# 26 Fevral Xocalı Soyqırımı Günüdür


Xalqın qəzetiÈ

# Xalq qəzeti

№ 43 (30737) 26 fevral 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

əsisçi À Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Xocalı dərdi — Xocalı dərsi

**. arixin ən uzaqlarından bugünə qədər soyqırımları baş verib və heç kəs zamin dura bilməz ki, gələcəkdə həmin müsibətlər Yer Kürəsinin harasındasa təkrarlanmayacaq. Bu gün Birləşmiş Millətlər Təşkilatının üzvü olan 200 civarında ölkənin 150-dən artığında tarixin müxtəlif dönəmlərində soyqırımları törədilib. Belə faciələrin təkrarlanmaması üçün gərək onların haqqında dönə-dönə danışılsın, dəfə-dəfə yazılsın. Holokost əzazil işgəncələrlə, iblisanə əzablarla, qan donduran məşəqqətlərlə altı milyondan artıq yəhudinin canını alıb. Holokost kəlməsinin içərisindəki "kost" sözcüyünün mənası "köz" deməkdir. Belə dərdlərin közü gərək heç vaxt sönməsin, belə ocaqlar həmişə közərməlidir, belə odlar həmişə insanları qarsmalıdır. Bəşəriyyət Holokostu unutsa, özünə bəşər deyə bilərmi? Ruandanın müsibətini yaddan çıxarsa, Afrika Afrika olmaz. Ruanda müsibətini unutsa, dünya dünya olmaz.**




Nə acı ki, o dəhşətlər silsiləsində dünyanın xəcaləti olan Xocalı faciəsi də var. Azərbaycan insanının da o dərdi unutmağa haqqı yoxdur. Azərbaycan insanının və bütün bəşəriyyətin! Çünki bu keşməkeşlərin hamısı insanlığın faciələridir. Hər cinayətin bir cəza müddəti var – soyqırımı cinayətindən başqa. Soyqırımı cinayətinin hüquqi qiymətinin və cəzasının verilməsi üçün vaxt məhdudiyyəti yoxdur. Elə eyni şəkildə soyqırımı hadisələrinin heç birinin də unudulma müddəti olmamalı, onlar mütləq zaman-zaman hafizələrdə dövr etməli, yaddaşın üst qatında qalmalıdır. İnsanayaraşmaz belə müsibətlərin yenə törədilməməsinin qarşısını almaq üçün yalnız o dərdə məruz qalanlar deyil, bütün bəşər həmişə əl-ələ olmalıdır.

**X**ocalı dünyanın xəritəsində balaca bir nöqtədir – vur-tut 970 kvadrat kilometrlik ərazi. Nəinki dünyanın ucqar nöqtələrində, hətta yaxın coğrafiyada belə o qəziyyəyə qədər Xocalıya bələd olanlar az idi. İndi Xocalını bütün dünya tanıyır. Heyiflər ki, qədim tarixi yaşadan bir məkan kimi deyil, ən əvvəl məhz böyük dərdi ilə tanıyır. Amma dünya tanıdıqca, bildikcə Xocalının dərdinin həm də elə dünyanın dərdi olduğunu daha artıq dərk edir. Xocalıya qədər dünya çox genosidlər görmüş, Azərbaycan özü də dürlü soyqırımı acıları yaşamışdı. Ancaq dünya soyqırımları içərisində tarixcə bəşərə ən yaxınlarından olan Xocalını seçdirən, rəmziləşdirən, yəqin ki, köhnə faciələrin ən vəhşətli və amansız mənzərələrinin hamısının bu dərdin yumağında cəmləşməsidir.

Soyqırımlarından, əsir düşmüş, girov götürülmüş, dustaq edilmiş naçar insanlara verilən işgəncələrdən, əzablardan bəhs ediləndə ifrat qəddarlığın ən bariz əlaməti kimi "faşizm" kəlməsini tez-tez dilə gətirirlər. Ancaq Xocalıda baş verənlərin təfərrüatlarından agah olduqca hər kəs etiraf etdi və gələcəkdə də o hadisələrin ayrıntılarından xəbərdarların sayı artdıqca onlar da təsdiqləyəcəklər ki, ermənilər və onlarla əlbirlərin Xocalıda bir gecədə törətdikləri faşistlərin illər boyu törətdiklərindən qat-qat müdhiş imiş.

Xocalıda 7000 əhali yaşayırdı. 1991-ci ilin noyabrından artıq bu balaca şəhər Azərbaycandan və dünyadan təcrid olunmuşdu. Elektrik enerjisi kəsilmişdi, telefon rabitəsi yox idi, Xocalı isə oçağkı Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların ən çox yaşadığı məskən idi.

**1992**-ci il yanvar ayının 28-də Xocalı səmasında Azərbaycan Hava Yollarına məxsus mülki vertolyot vuruldu, bu dikuçarın bortundakıların hamısı – bütün həlak olanlar azərbaycanlılar idi. Həmin gündən Xocalı ilə vertolyot əlaqəsi də kəsildi. Ətraf aləmdən təcrid edilmiş zavallı Xocalı camaatının naümid halını xəyalınıza gətirin. Erməni cəhənnəm, üstünə canavar cumsa özünü, ailəsini qorumaqçün ov tüfəngi belə yox idi. Qarabağlılar irəlicədən tərksilah edilmiş, Kremldən gələn göstərişlə evlərdən bütün icazəli ov tüfəngləri də rəsmi qərarla yığılmışdı. Əli dünyadan üzülmüş, işıqsız qalan, radio-televiziyası olmayan Xocalı əhalisinin kənar aləmlə yeganə bağlantısı yaxından-uzaqdan bura gəlib çatan top gurultuları, partlayış əks-sədaları idi. O səslər də bu fağır insanların varlığını əlavə bir vahimə və nicatsızlıqla doldururdu.

Və 1992-ci il fevral ayının 25-də axşam saat 10-da dünənəcən yaxından-uzaqdan əks-sədaları bura gəlib çatan gurultular artıq Xocalının içərisində eşidilməyə başladı. Elektriki, qazı, ocağında yandıracaq odunu olmayan Xocalıda qış idi. Qış günləri qaranlıq onsuz da tez qatışır. Axşam saat 10 artıq Xocalıda elə gecə kimi idi. Əvvəlcə güclü artilleriya atəşləri qopdu, ardınca Xocalıya zirehli maşınlar, tanklar daxil olmağa başladı. Xocalıda yalnız mülki əhali idi. Bu toplu- tüfəngli, təpədən-dırnağa yaraqlı quduzlar xocalılıların axırına çıxmağa gəlmişdilər. Bu insanların bircə günahı vardı – onlar azərbaycanlı idilər.


*(ardı 5-ci səhifədə)*


## XOCALI SOYQIRIMI: Tarix bizə nələri öyrətdi?

**Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsi zamanı dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş ən dəhşətli qətliamlardan biridir. Qabaqcadan hazırlanmış plana əsasən, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanıs Ayrım kəndinin mülki əhalisinin bir hissəsinə və Qarabağın azərbaycanlı kəndlərinə – İmarət Gərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinə qarşı xüsusi amansızlıqla qətliamlar həyata keçirilib. Təkcə onu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl, 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində 80-dən çox azərbaycanlı kütləvi şəkildə qətlə yetirilib.**



Fevralın ikinci yarısından başlayaraq Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam–Şuşa və Əsgəran–Xankəndi yolları arasındakı strateji nöqtədə, Qarabağda yeganə aeroportun yerləşdiyi Xocalı tamamilə erməni hərbi birləşmələri tərəfindən mühasirəyə salınıb. Mülki əhalinin qrup halında və ya təkbaşına mühasirədən çıxmaq cəhdlərinin qarşısı alınıb.


*(ardı 6-cı səhifədə)*


## "Xocalıya ədalət!"in dünyada əks-sədası





Səhifə ⇨ 11


## Prezident İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşımı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün sosial şəbəkə hesablarında Xocalı faciəsinin 33-cü ildönümü ilə bağlı paylaşım edib.**




AZƏRTAC xəbər verir ki, paylaşımda "26 Fevral. Xocalı soyqırımı" sözləri yer alıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımı ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda "Xocalı soyqırımının günahsız qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin" sözləri yer alıb.

## Xocalıda məhşər gecəsi




Səhifə ⇨ 8


## Pakistanın Baş nazirinin Azərbaycana səfəri başa çatıb

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına dövlət səfəri fevralın 25-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

## Paşinyan əgər Qarabağı Azərbaycan kimi tanımayıbsa...

### *Fransa Ermənistanı yeni bəlaya sürükləyir, yoxsa səfir Dekotini sərxoş imiş?*

**Fransanın ermənipərəst mövqe tutduğu məlumdur. Ölkə əlindən gələn bütün vasitələrlə rəsmi İrəvana dəstək göstərir. Biz buna, həm də ümumən 44 günlük müharibədən sonra Parisin erməni təəssübkeşliyinin əndazədən çıxmasına, bir növ, öyrəncəliyik. Ona görə də Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin sərsəmləmələrinə təəccüblənmədik. Sərsəmləmə deyirik, amma ola bilər diplomat sərxoş imiş. Amma...**

Deməli, səfir Dekotini diplomatik fəaliyyət həyata keçirdiyi ölkənin İctimai radiosunun efirindən bildirib ki, Ermənistan 2022-ci ilin Praqa danışıqları zamanı Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımayıb və bu barədə söylənilənlər yalandır.



Onun sözlərinə görə, Ermənistan Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu 1991-ci ilin Alma-Ata Bəyannaməsinə əsasən qəbul edib.


*(ardı 3-cü səhifədə)*

# Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Ermənistan Respublikasının Azərbaycan Respublikasına hərbi təcavüzü ilə başlanan I Qarabağ müharibəsi (1991–1994) zamanı Ermənistan tərəfindən Şərqi Zəngəzur və Qarabağ işğal edilərək dağıdılmış, Azərbaycan xalqına qarşı ən ağır beynəlxalq cinayətlər törədilmişdir.

1992-ci il fevralın 26-da Xocalı şəhəri işğal edilərkən dinc əhaliyə qarşı etnik zəmində törədilən soyqırımı cinayəti münaqişənin ən qanlı səhifəsidir.

Belə ki, erməni silahlı birləşmələri tərəfindən aylarla blokada şəraitində saxlanılaraq, ərzaq, elektrik enerjisi və bütün kənar yardımlardan məhrum edilən 2500-ə yaxın Xocalı sakini düşmənin çoxsaylı təhdidlərinə baxmayaraq, şəhəri tərk etməkdən imtina etmişdi. Fevralın 25-dən 26-na keçən gecə davamlı artilleriya atəşindən sonra Ermənistan silahlı qüvvələri və yarım-hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə şəhərə hücum edərək, mülki əhaliyə misli görünməmiş vəhşiliklə divan tutmuşlar. Həmin qətliam nəticəsində 613 azərbaycanlı, o cümlədən 106 qadın, 63 uşaq, 70 ahıl xüsusi amansızlıqla qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, onlardan 150-nin taleyi isə indiyədək naməlum qalmışdır. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq valideynlərindən hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 487 şəxs, o cümlədən 76 uşaq məruz qaldıqları ağır fiziki və psixoloji işgəncələrdən ömürlük əlilə çevrilmişdir.

Ermənistanın bütün cəhdlərinə, xüsusilə də o dövrdə yaratdığı informasiya blokadasına baxmayaraq, cinayətin miqyası və ağırlığı dünyanın aparıcı media qurumlarının və beynəlxalq təşkilatlarının hesabatlarında işıqlandırılmışdı. Yerli və xarici jurnalistlərin faciədən sonra Xocalı şəhəri və ətraf ərazilərdən topladıqları foto və video materiallar, o cümlədən şahid ifadələri hadisənin bütün dəhşətlərini açıq-aşkar göstərir. Avropa İnsan Hüquqları Məhkəməsinin 2010-cu ildə məsələ ilə bağlı çıxardığı yekun qərarda Xocalıda törədilən əməllər müharibə cinayətləri və insanlıq əleyhinə cinayət kimi qiymətləndirilmişdir.

Ermənistanın Xocalını işğal etmək planı hərbi məqsədlərlə məhdudlaşmır, eyni zamanda həmin ərazilərdəki Azərbaycan xalqına məxsus zəngin tarixi-mədəni izləri silmək, mədəni irsi məhv etmək və saxtalaşdırmaq niyyəti güdürdü.

Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılmışdır. Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Dövlət qurumları, xaricdə yaşayan soydaşlarımız, vətəndaş cəmiyyəti institutları, xüsusən, Heydər Əliyev Fondu Xocalı soyqırımının unudulmaması və beynəlxalq ictimaiyyət tərəfindən tanınması üçün əzmlə fəaliyyət göstərmişlər. Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması məqsədilə Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə başladılmış "Xocalıya ədalət!" maarifləndirmə kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsi ilə bağlı məlumatlılıq artırılmış, bir sıra tədbirlər, təqdimatlar, sərgilər keçirilmiş, kitab və məqalələr dərc edilmişdir.

Həmin kampaniya sayəsində 18 ölkənin qanunverici orqanı, ABŞ-nin 24 ştatı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda baş vermiş faciəni soyqırımı kimi tanımış və pisləmişdir. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur.

2020-ci ilin sentyabr–noyabr aylarında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında birgünlük lokal xarakterli antiterror əməliyyatında Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində tarixi torpaqlarımız, o cümlədən Xocalı rayonu işğaldan azad olundu və 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı ucaldıldı.

İşğaldan azad edilmiş bütün ərazilərdə hazırda sürətli bərpa-quruculuq işləri və Böyük Qayıdış prosesi davam etməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksi yaradılsın.

**2.** Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 479 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.29-cu yarımbəndində göstərilmiş məbləğin 18,3 milyon (on səkkiz milyon üç yüz min) manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**4.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, həmçinin digər aidiyyəti dövlət orqanları (qurumları) Soyqırımı Memorial Kompleksinin yaradılması məsələlərinin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 fevral 2025-ci il**

# Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabaha

***Əlahəzrət!***

25 Fevral – Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan-Küveyt dövlətlərarası əlaqələrinə xüsusi əhəmiyyət veririk. Xoş ənənələrə əsaslanan dostluq münasibətlərimizin və əməkdaşlığımızın inkişaf dinamikası bizi sevindirir. Siyasi əlaqələrimizin yüksək səviyyəsi bütün sahələrdə qarşılıqlı fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır. Beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığımızı ayrıca vurğulamaq istərdim.

Əminəm ki, birgə səylərimizlə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli qaydada əməkdaşlıq xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə uzun ömür, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 fevral 2025-ci il**

# "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə Azərbaycan Respublikasının qoşulması ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulmaq niyyətini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

1.1.1. emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi;

1.1.2. emal edilməmiş almazın ixracı ilə əlaqədar "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə uyğun sertifikatın forması və verilməsi qaydası;

1.1.3. emal edilməmiş almazın gömrük rəsmiləşdirilməsinin "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə uyğunlaşdırılması;

1.1.4. bu Sərəncamın 1.1.1-ci yarımbəndində qeyd olunan fəaliyyətin rəqəmsallaşdırılması;

1.1.5. emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi zamanı mühafizənin təşkili;

1.2. bu Sərəncamın 1.1.1-ci yarımbəndi nəzərə alınmaqla, dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə emal edilməmiş almazın gemoloji xüsusiyyətlərinin müəyyən edilməsi üzrə laboratoriyaların yaradılması və onların fəaliyyətinin təşkili ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə dövlət büdcəsindən vəsait ayrılmasını təmin etsin;

1.3. Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin iştirakçıları ilə qarşılıqlı əlaqələrinin qurulmasından irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 fevral 2025-ci il**

# "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dəmiryol nəqliyyatı sahəsində nəqliyyat əməliyyatlarını və logistika proseslərini daha səmərəli və operativ qaydada həyata keçirmək, eləcə də dəniz nəqliyyatına olan ehtiyacların daha dolğun ödənilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – Liman) ona qoşulması formasında yenidən təşkil edilsin.

**2.** Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1.Cəmiyyətin yenidən təşkili və ləğvi;

2.1.2.Cəmiyyətin icra orqanının rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi.

2.2. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON−a):

2.2.1. bu Fərmanın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

2.2.2. Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

**3.** Müəyyən edilsin ki, Limanın Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş hüquqları və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON):

5.1. Cəmiyyətin yeni nizamnaməsini və strukturunu üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 fevral 2025-ci il**

# Pakistanın Baş naziri "ASAN xidmət" mərkəzində



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ölkəmizə dövlət səfəri çərçivəsində fevralın 25-də Bakıdakı 7 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Qonağa "ASAN xidmət" modeli ilə bağlı təqdimat nümayiş etdirilib, Azərbaycanın intellektual brendinin hazırda 20-dən çox ölkəyə ixrac olunduğu diqqətə çatdırılıb.

Həmçinin qonağa "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, Səyyar "ASAN xidmət", "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar ətraflı məlumat verilib.

Mərkəzlə tanışlıqdan sonra jurnalistlərə müsahibə verən Pakistanın Baş naziri deyib: "Bu "ASAN xidmət" mərkəzini ziyarət etmək bizdə böyük məmnunluq hissi doğurdu. Bu innovativ xidmət modeli çox dəyərli qardaşım, Prezident İlham Əliyevin uzaqgörənliyinin və liderliyinin sübutudur. "ASAN xidmət" mərkəzi qabaqcıl düşüncəni və dinamizmi nümayiş etdirir. Burada peşəkar insan resursları, ən müasir texnologiyalar və yüksək dövlət xidmətləri mövcuddur. Mərkəzdə dövlət xidmətləri vətəndaşlara qısa müddət ərzində təqdim edilir və beləliklə əlçatan olur. Biz, həmçinin startap mərkəzi və könüllülərlə tanış olduq. Düşünürəm ki, gənc oğlanların və qızların fəaliyyət göstərdiyi bu mərkəzin dünyada tayı-bərabəri yoxdur. Dəyərli qardaşım Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasətini yüksək qiymətləndirərək Azərbaycanın bu təcrübəsindən faydalanmaq istəyirik".

Sonda Baş nazir xüsusi vurğulayıb ki, yaxın müddətdə İslamabad şəhərində "ASAN xidmət" təcrübəsi əsasında vahid məkanda xidmətlər göstərən mərkəz yaradılacaq və bununla bağlı tezliklə əməkdaşlıq sazişi imzalanacaq.

***XQ***

# "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli 1050 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli 1050 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1487 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 fevral 2025-ci il**

# S.G.İlyasovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Gülmirzə oğlu İlyasov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 fevral 2025-ci il**

# Paşinyan əgər Qarabağı Azərbaycan kimi tanımayıbsa...

*(əvvəli 1-ci səhifədə)*



İlk baxışdan düşünülə bilər ki, səfirin bildiriklərində hansısa fövqəladə məqam yoxdur. Ancaq belə deyil. Çünki Dekotini başqa mətləblərdən də söz açıb. O mətləblərdən ki, onlara nəzərən Fransanın Qarabağ avantürasını saxlamaq niyyətinin mövcudluğunu, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının müdafiəsinə qalxdığını demək mümkündür. Hər halda, Fransa kimi ölkəni təmsil edən yüksək ranqlı diplomat hər sözünün nəyə hesablandığını dərk etməlidir. Ona görə Dekotininin açıqlamasına əsasən, rəsmi Parisin aşkar təxribata hazırlaşdığını söyləyə bilərik.

Əvvəla, xatırladaq ki, 2022-ci ilin oktyabrında Praqada Azərbaycan və Ermənistan liderləri Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi, Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə görüşmüşdülər. Görüşdən sonra Ermənistanın baş naziri Nikol Paşinyan bəyan etmişdi ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünü tanıyır. İlk baxışdan, tanınma özündə Qarabağ kazusunu da birləşdirirdi. Amma şübhələr də qalırdı. 2023-cü ilin yayında Azərbaycan və Ermənistan liderləri Ş.Mişelin vasitəçiliyilə yenidən bir araya gələndə isə N.Paşinyan bu dəfə tam açıq tekstlə Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını vurğuladı. Əlbəttə, bundan əvvəlki və sonrakı proseslərə nəzər salmaq lazımdır.

2022-ci ilin oktyabrından sonra elə düşünülürdü ki, ilin sonuna doğru Bakı və İrəvan arasında sülh müqaviləsi imzalanacaq. Çünki həmin ilin dekabrında tərəflər yenə Ş.Mişelin vasitəçiliyi ilə Brüsseldə görüşməyə razılaşmışdılar. Ancaq qəfildən Fransa prezidenti E.Makron yerli televiziyaya müsahibəsində Azərbaycanı "işğalçı" adlandırdı. O, həmçinin Rusiyanı müttəfiqi Ermənistanın maraq və mənafelərini satmaqda günahlandırdı. Rusiya indi də bildirir ki, Paşinyanın Praqada səsləndirdiyi fikir Qarabağı Azərbaycana təhvil vermək idi. Yəni Moskva dolayısı ilə bildirir ki, Nikol Ermənistanı satmamaq üçün lazım olan bütün rıçaqları sıradan çıxarıb.

Əlqərəz, Makronun sərsəm bəyanatından sonra N.Paşinyan bəyan etdi ki, Prezident İlham Əliyevlə dekabrdakı görüşə Fransa Prezidenti olmadan qatılmayacaq. Bundan sonra sülh danışıqları pozuldu, Ş.Mişelin vasitəçilik missiyası puça çıxdı. 2023-cü ilin əvvəllərindən etibarən tərəflər arasında gərginlik artdı. Bunu görüb vaxt udmaq istəyən N.Paşinyan Makronsuz görüşlə razılaşdı və həmin ilin mayında reallaşmış üçtərəfli (Prezident İlham Əliyevin, baş nazir Nikol Paşinyanın və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə keçirilmiş – red.) sonra haqqında söz açdığımız bəyanatı vermək məcburiyyətində qaldı. Söhbət Ermənistanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımasından gedir.

Lakin erməni baş nazir sentyabr ayının əvvəlində bildirdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Belə çıxdı ki, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasının heç bir əhəmiyyəti yoxdur və Azərbaycanın problemi Qarabağdakı separatçı rejimlədir. Bu cür əndazəsiz ifadə və separatçı rejimdə "seçkilər" Azərbaycanın səbr kasasını daşdırdı və ölkəmiz 2023-cü ilin sentyabrında Qarabağda lokal xarakterli antiterror tədbirləri reallaşdırdı. Nəticədə separatçı rejim tarixin arxivinə gömüldü və dövlət suverenliyimizə qovuşduq.

İndi isə 1991-ci ilə qayıdaq. Bəli, həmin ildə imzalanmış Alma-Ata Bəyannaməsi keçmiş müttəfiq respublikaların bir-birinin ərazi bütövlüyünü tanımalarını nəzərdə tuturdu. Ancaq Ermənistan sənədi nəzərə almayaraq, 1991-1993-cü illərdə Azərbaycan torpaqlarına qəsb reallaşdırdı. İşğal otuz ilə yaxın müddətdə davam etdi və səfir Dekotini bunu bilməmiş olmaz.

Ancaq Dekotininin dedikləri Ermənistanın revanşist-şovinist kəsimində və baş nazir N.Paşinyana müxalif dairələrdə kəskin etiraz doğurub. Ona görə ki, onlar səfirin erməni iqtidarının postulatlarını müdafiəsinə qalxdığı qənaətindədirlər. Yada salaq ki, rəsmi İrəvan ümumən Azərbaycanla sülhün 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında qərarlaşması məntiqindən çıxış edir. Yəni, Paşinyan iqtidarı üçün sənəddə Qarabağ mövzusu yox, Ermənistan Respublikasının Sovet Ermənistanının sərhədlərində qalması ritorikası var.

Yada salaq ki, 1988-ci ildə Qarabağın Ermənistana birləşdirilməsini nəzərdə tutan "Miatsum" hərəkatı sonradan mahiyyətini dəyişdi. Erməni başbilənlər "Dağlıq Qarabağ Respublikası" oyununa girişdilər. Beləliklə, "Qarabağ xalqı" deyimi formalaşdı və Qarabağ danışıqlarında separatçı rejimi tərəf kimi prosesə qatmaq cəhdləri qeydə alındı. Əlbəttə, Azərbaycan dövləti buna imkan vermədi.

Sözümüz ondadır ki, Ermənistan üçün 1991-ci ilin Alma-Ata Bəyannaməsi avantürist niyyətlərin gerçəkləşməsi yolunda əngəl olmayıb. Qarabağı Azərbaycan ərazisi kimi tanımaq isə problem yaradar, istər-istəməz danışıqlar fərqli diplomatik məcraya düşərdi. Ona görə, o zaman tanınma baş vermədi. Axı hər bir halda söhbət Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsindən gedirdi. Separatçı rejim və "Qarabağ xalqı" klişeləri bu "məqsəd" naminə, bir növ, tramplin sayılırdı.

Ermənistanın 44 günlük müharibədəki məğlubiyyəti həlledici oldu. N.Paşinyan savaşdan sonra ölkəsinin Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını bəyan etdi. Bu deyim həm müharibə məğlubiyyətinə bəraət qazandırmaq idi, həm də Qarabağ avantürasını yeni fazaya daşımaq məqsədi güdürdü.

Nikolun Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını açıq şəkildə bildirməsi də avantüranın davamına hesablanmışdı. Yəni, Paşinyan iqtidarı bölgədəki separatçı rejimi Ermənistandan kənar tutdu ki, mövcud təqdimatın kulminasiya anının nə zaman yaşandığını diqqətə çatdırdıq. Bir daha deyək ki, söhbət erməni baş nazirin 2023-cü ilin sentyabrında Qarabağın özünün seçkili hakimiyyətinin olduğunu deməsindən gedir.

Bəli, başlıca mahiyyət Qarabağın Ermənistana birləşdirilməsi idi. Bunu Rusiyada da çox yaxşı dərk edirlər. Bu barədə söz açdıq. Əlavə edək ki, Rusiya rəsmiləri, o cümlədən Prezident Vladimir Putin dəfələrlə bildirib ki, Paşinyan Praqada hər şeyi korladı. O zaman səfir O.Dekotininin fikirlərini necə qarşılayaq? Düşünək ki, Fransa "gerçək mahiyyətə", yəni Rusiyanın baxış bucağına qayıdır? Ortada işğal faktı, Fransanın ABŞ və Rusiya ilə birlikdə ATƏT-in Minsk qrupunda həmsədr kimi təmsilçiliyi, Qarabağ üzrə danışıqlarda iştirak təcrübəsi var. O danışıqlarda ki, işğalı leqallaşdırmaq, onu şüurlara yeritmək, bunun üçün vaxt udmaq məqsədinə söykənmişdi, ədalətin bərpasına yox! Və həmin vaxt Alma-Ata Bəyannaməsi heç yada belə düşmürdü. Daha doğrusu, bu sənədin mövcudluğu erməni qəsbkarlığını dayandırmaq üçün əsas olaraq götürülmürdü. Bir halda ki, Ermənistan Azərbaycan torpaqlarının işğalının dayandırılması ilə bağlı BMT-nin dörd qətnaməsinə əhəmiyyətsiz yanaşırdı, Alma-Ata Bəyannaməsi nə kimi mahiyyət daşıya bilərdi ki?

Deməli, Fransa yaxın keçmişə, yəni Praqaya deyil, nisbətən uzaq keçmişə qayıdırsa, üstəlik səfir Dekotini Paşinyanın Praqada Azərbaycanın ərazi bütövlüyünü tanımadığını bildirərkən, bununla əlaqədar fikirləri xüsusi tonla "yalan" adlandırırsa, belə nəticəyə gəlmək olar ki, rəsmi Paris Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının davamında maraqlıdır.

Birmənalı şəkildə demək olar ki, istər səfir Dekotininin bu açıqlaması, istərsə də ümumən Fransanın tutduğu mövqe ölkənin Cənubi Qafqazda erməni avantürizminin davamında maraqlı olduğunun növbəti sübutudur. İndi Dekotini həmin avantürizmə birbaşa Qarabağ seqmenti qazandırır. Nəzərə alaq ki, onun qənaətimizi təsdiqləyən başqa fikirləri də var. Məsələn, diplomat Qarabağ ermənilərinin bölgəyə qayıtmalarından söz açır. Nəinki söz açır, eyni zamanda, onların 2023-cü ildə ərazini tərk etmələrinə görə beynəlxalq ictimaiyyəti qınayır.

"Dağlıq Qarabağ sakinlərinin öz evlərinə qayıtmalarına gəlincə, bu, hüquqdur. Bu fərziyyə deyil, qanundur. Bu hüquq Beynəlxalq Ədalət Məhkəməsinin 17 noyabr 2023-cü il tarixli qərarı ilə tanınıb. Bu qərar məcburidir, yəni Azərbaycan onu icra etməyə borcludur", – deyən O.Dekotininin sözlərinə görə, Fransanın məsələ ilə bağlı mövqeyi son dərəcə aydındır: İlk növbədə, məcburi köçkünlərə və onları qəbul edib yerləşdirən Ermənistana dəstək vermək.

Bəli, ayının min oyunu bir armudun başında imiş. Deməli, Ermənistana dəstək vermək lazımdır ki, Qarabağ avantürası davamını tapsın. Yəni məsələ heç də ermənilərin bölgəyə qayıtmalarının təminatında deyil. Onlar alətdirlər, həmişə də bu ampluada olublar. Əgər Qarabağ ermənilərinin qayıtmaları ilə bağlı gerçək istək olsaydı, bölgəni tərk etmələri həyata keçirilməz, erməni əhali Azərbaycan vətəndaşlığını qəbul edərdi. Ölkəmizin rəhbərliyi bununla razılaşdığını dəfələrlə açıqlamışdı.

Həm Ermənistan rəhbəriliyi, həm də onun xaricdəki havadarları başqa yolu tutdular. Onlar antiterror tədbirlərindən əvvəl Qarabağ erməniləri üçün ayrıca beynəlxalq təminat tələb etdilər. Antiterror tədbirlərindən sonra isə Qarabağa qayıdışın beynəlxalq təminat məsələsini qaldırdılar. Yəni, hər bir halda, avantürizm üçün yaşıl işıq yandırmağa cəhd göstərdilər. Səfir Dekotini də Beynəlxalq Ədalət Məhkəməsinin qərarını məhz bu yöndə interpretasiya edir.

*

Əvvəldə Fransanın Azərbaycana qarşı aşkar təxribata hazırlaşdığını vurğuladıq. Dekotinin bildirdikləri, yəni, 1991-ci ilin Alma-Ata Bəyannaməsinə baş vurması, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə məhəl qoymayan diplomatik tərz seçməsi, eləcə də Qarabağ ermənilərinin qayıdışı məsələsini qabartması təxribat üçün zəmin yaratmaqdan başqa bir şey deyil. Rəsmi Parisin Ermənistanı silahlandırması amilini də nəzərə alsaq, bütün daşların yerinə oturduğunu söyləyə bilərik.

Sonda bir məqamı da vurğulayaq. Əvvəldə bildirdik ki, rəsmi Parisin ermənipərəstliyinə təəccüblənmirik. Bütün bu bildirdiklərimiz fonunda onu da deyək ki, yaxın günlərdə Ermənistan sülh danışıqları kontekstində yeni mikro gündəm uydurub səfir Dekotininin sərsəmləmələrini həmin gündəmə daxil etmək istəsə, yenə təəccüblənmərik. Buna, eləcə də Ermənistanın silahlandırılması fonunda yaşana biləcək proseslərə hazırıq. Qalır qarşı tərəfin atacağımız addımlara hazırkığı. Necə deyərlər, özü yıxılan ağlamazmalıdır. Hərçənd, Ermənistan heç özü müstəqil şəkildə yıxıla da bilmir. Dekotinili Fransa onu itələyir. Əlbəttə ki, odun-alovun içinə.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan Orta Dəhlizin önəmli ölkəsidir

**Hamburq Ticarət Palatasının və Alman İqtisadiyyatının Şərq Komitəsinin birgə təşkilatçılığı ilə Hamburq şəhərində "Yeni marşrutlar, yeni bazarlar. Qlobal Keçid və Orta Dəhliz boyunca potensial bazarlar" mövzusunda konfrans keçirilib.**



Tədbirdə 200-dən çox iş adamı, eləcə də Almaniyanın dövlət qurumlarının, aparıcı beyin mərkəzlərinin, media nümayəndələri və xarici diplomatlar iştirak ediblər.

Tədbirin əsas məruzəçisi qismində çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev vurğulayıb ki, son illər Avrasiya qitəsində baş verən hadisələr Orta Dəhlizin əhəmiyyətini daha da qabarıq şəkildə göstərir. Səfir bildirib: "Azərbaycan üçün Orta Dəhliz sadəcə müvəqqəti alternativ və ya ehtiyat planı deyil, regional əlaqəlilik və iqtisadi inteqrasiya baxımından strateji, uzunmüddətli ticarət marşrutudur. Son iyirmi il ərzində Azərbaycan bu dəhlizin infrastrukturuna əhəmiyyətli sərmayələr yatıraraq onu müasir, effektiv və dayanıqlı nəqliyyat mərkəzinə çevirib. Alman şirkətləri üçün imkanlar təkcə nəqliyyat və logistika ilə məhdudlaşmır. Bu dəhliz istehsal mərkəzləri yaratmaq, ixracı artırmaq və bu dinamik marşrut boyunca və onun hüdudlarından kənarda inkişaf edən bazarlara çıxış əldə etmək üçün strateji qapıdır".

"Limanlar və logistika" adlı panel müzakirədə iştirak edən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov tədbir iştirakçılarına Azərbaycanın regional və qlobal nəqliyyat şəbəkəsində tutduğu strateji mövqe, ölkə üzərindən keçən beynəlxalq marşrutlar, o cümlədən Bakı Limanının regional əlaqələrin qurulmasında artan rolu haqqında ətraflı məlumat verib.

"İnfrastrukturun inkişafı: Layihələr və maliyyələşmə" adlı panel müzakirədə iştirak edən Azərbaycanın "Silk Way West Airlines" şirkətinin prezidenti Volfqanq Mayer ölkəmizin hava nəqliyyatı, xüsusilə hava yolu ilə beynəlxalq yük daşımaları sahəsində son illərdə regionun aparıcı dövlətlərindən birinə çevrildiyini qeyd edərək, Orta Dəhlizin inkişafında hava nəqliyyatının perspektivlərindən bəhs edib.

***XQ***

Replika

# "Əli ətəyindən uzun" qayıdış

**Fransa prezidenti Emmanuel Makron ABŞ-dan gözlədiyi dəstək zəmanətini almadan, yəni Donald Trampın Ukraynadakı müharibə ilə bağlı mövqeyinə yenidən baxmasına nail olmadan Vaşinqtonu tərk etdi. Bu barədə "The Guardian" qəzeti oxucularına heç də xoş olmayan xəbəri çatdırıb. Nəşr xəbərinə onu da əlavə edir ki, Makronun ardınca Vaşinqtona gələcək Böyük Britaniyanın Baş naziri Key Starmer də Ağ evin dəstəyi ilə Ukraynaya 30 min sülhməramlını yerləşdirməyi təklif etməyi planlayıb. Avropanın iki nəhənginin baş nazirləri əmindirlər ki, qitənin qlobal təhlükəsizliyi üçün "ən kritik an" yetişib. Bu məqamda NATO amilinin ön plana keçməsi təbiidir. Fəqət, bu planın həyata keçmək ehtimalı yalnız Moskva və Kiyevin atəşkəslə bağlı razılığa gələcəyi təqdirdə reallaşa bilər.**



Aydın məsələdir ki, Fransa və Böyük Britaniya Donald Trampı Avropadan üz döndərməməyə inandırmağa çalışırlar. Yəqin, onları buna "ürəkləndirən" rəsmi Vaşinqtonun Rusiya və Ukrayna ilə bağlı siyasətində korrektələr etməyə hazırlaşdığı barədə gündəmi məşğul edən mövzulardır.

Bəs, Tramp Makronu eşitdimi? Sualın cavabı ABŞ Prezidentinin Ukraynaya dəstək məsələsinin müzakirəsi üçün Ağ evə təşrif buyuran Fransanın dövlət başçısını qarşılamaması faktında gizlənib. Makron üçün həmin qanqaraldıcı anı əks etdirən video-kadrlar sosial şəbəkədə yetərincədir. Görüntülərdə Emmanuel Makronun xidməti avtomobilindən endikdən sonra jurnaistlərə əl yelləyib, tək-tənha Ağ evin qapısından içəri daxil olduğu aydınca öz əksini tapıb. Əslində, bu faktın özü Fransa liderinin Vaşinqtona səfərində ümid etdiyi məqsədə çatmayacağının əyani göstəricisi sayılmalıdır. Ağ evin yeni sahibinin protokola uyğun olaraq Makronu rəsmi qarşılamadan vaz keçməsi həm də Makronun diplomatik cəhətdən diqqət çəkən məqamdır. Xarici siyasət kursunun uğursuzluğa uğradığı Fransa Prezidentinin dövlət başçısı kimi diplomatik naşılığı növbəti dəfə özünü büruzə verdi.

Emmanuel Makron buna bənzər vəziyyətlə əvvəllər də rastlaşıb. Diqqəti oxucular 2022-ci il fevralın 7-də Moskvada Rusiya Prezidenti Vladimir Putinlə Fransanın dövlət başçısı Emmanuel Makron arasında görüşü xatırlayırlar. Üç il əvvəl iki ölkə liderinin hansı formada görüşməsi və danışıqlar aparması zamanı çəkilən görüntülər uzun müddət dünyanın aparıcı media seqmentlərinin müzakirə predmetinə çevrilmişdi. Müzakirəyə səbəb olan birinci məqam: Putin Makronu əli cibində qarşıladı. İkinci məqam: Rusiya lideri Fransa prezidentini uzun masanın uzaq başında əyləşdirdi. Amma Kremldə Makronun başına gələn macəralar bununla da bitməyib. Beş saatdan çox davam edən "gərgin görüş"dən sonra mətbuat konfransı keçirilib və ardınca Vladimir Putin zalı tərk edib. Amma çıxış qapısının kandarında ayaq saxlayır və şəhadət barmağı ilə Makrona arxasınca gəlməyi işarə edib. Onun fransalı qonağı təlsik qapıya doğru addımlayır və zaldan çıxır. Yəni yenə tək qalan Makron Kremlin sahibinin arxasınca getməli olur.

Bu görüntülər öz yerində, Fransa telekanalları o zaman "uzun masa" mövzusunu əməlli-başlı qabartmışdılar. Misal üçün, "CNews" telekanalı reportajı "Emmanuel Makron–Vladimir Putin görüşü: yaxınlaşmanın uzun masası", "Huffpost" kanalı "Makron ilə Putin görüşündəki masanı dövr etməyən dəyər" "zastavka"larından istifadə etməklə yayımlamışdılar. "Liberation" qəzeti isə "Makron və Putin – russayağı dialoq" sərlövhəli məqaləsini manşetə çıxarmışdı. Ölkənin müxalifət nümayəndələri Makronun Moskvada təhqir edildiyini açıq şəkildə deyirdilər.

Moskva görüşünün detallarına vararaq onu da qeyd edək ki, görüş zamanı əlin şalvarın cibində olması iki cür izah oluna bilər. Psixoloqların, bədən dili mütəxəssislərinin qənaətlərinə görə, qarşılayan şəxs az sonra nə edəcəyini, necə davranacağını bilmədiyindən, əlini qoymağa yer tapmadığından onu cibində "gizlədir". Bu hala həmin fərdin özünəinamsızlığı kimi "diaqnoz" qoyulur. İkinci izahat isə bunun tam əksi sayılır: Əli cibə salmaq qarşısındakına meydan oxumaq mənasına gəlir. Yəni həmin hərəkəti, ən azı, hörmətsizlik kimi qəbul etmək lazımdır. Diplomatik etiketə gəldikdə isə rəsmi görüşlərdə, protokol qaydasına uyğun olaraq, dövlət başçıları kresloda yan-yana əyləşir və onların arasında balaca miz qoyulur. Bu qayda söhbət-müzakirənin səmimi mühitdə keçməsini təmin edir. Uzun masa ətrafında isə diplomatik nümayəndələr əyləşirlər və görüş yenə rəsmi xarakter daşıyır.

Üç il bundan əvvəl Moskvadan aşağılanmış durumda, kor-peşman qayıdan Makronun Vaşinqtondan da əli ətəyindən uzun geri dönəcəyi gözlənilən idi. Çünki nəticə əvvəlcədən bəlli olmuşdu...

***İ.HƏSƏNQALA***
***XQ***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin mart ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Xaçmaz** | Xaçmaz, Şabran | **03** |
| 2 | **Baş prokuror** Kamran Əliyev | **Beyləqan** | Beyləqan, Füzuli, İmişli, Sabirabad, Saatlı, Xocavənd, Cəbrayıl | **04** |
| 3 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Samux** | Samux, Gəncə, Göygöl, Daşkəsən, Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | **04** |
| 4 | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı | **06** |
| 5 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Yevlax** | Yevlax, Mingəçevir, Naftalan, Goranboy, Xocalı | **07** |
| 6 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Biləsuvar** | Biləsuvar, Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı, Cəbrayıl | **07** |
| 7 | **Energetika naziri** Pərviz Şahbazov | **Ucar** | Ucar, Zərdab, Kürdəmir, Göyçay, Ağdaş | **14** |
| 8 | **Ədliyyə naziri** Fərid Əhmədov | **Şəki** | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | **14** |
| 9 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Ağdaş** | Ağdaş, Yevlax | **14** |
| 10 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Qusar** | Qusar, Quba | **14** |
| 11 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Salyan** | Salyan, Neftçala | **14** |
| 12 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **14** |
| 13 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | **14** |
| 14 | **Mədəniyyət naziri** Adil Kərimli | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar, Şirvan, Hacıqabul | **14** |
| 15 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **14** |
| 16 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar | **14** |
| 17 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **14** |
| 18 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Şəmkir** | Şəmkir, Gədəbəy | **14** |
| 19 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Abşeron** | Abşeron, Zəngilan | **14** |
| 20 | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Zərdab** | Zərdab, Ucar | **14** |
| 21 | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **14** |
| 22 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **14** |
| 23 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Şabran** | Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən | **17** |
| 24 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Beyləqan** | Beyləqan, Ağcabədi, İmişli, Füzuli, Xocavənd | **17** |
| 25 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Abşeron** | Abşeron, Sumqayıt, Xızı, Zəngilan, Qubadlı | **19** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Minsk qrupunun fəaliyyətinə son qoyulmalıdır

**Azərbaycanla Ermənistan arasında münaqişə başa çatıb, sülh müqaviləsi üzrə danışıqlar davam etdirilir. Hər iki tərəf istəyir ki, sülh müqaviləsi bağlansın. Bu müqavilə Azərbaycan – Ermənistan münasibətlərində yeni fəsil açılacağına və düşmənçiliyə son qoyulacağına səbəb ola bilər. Bu, həmçinin Cənubi Qafqazın üç dövləti – Azərbaycan, Gürcüstan və Ermənistan arasında siyasi-iqtisadi əməkdaşlığın genişlənməsinə töhfə verəcək.**



Bundan başqa, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi də praktiki nəticələr verir. Məlumdur ki, Azərbaycan ilə Ermənistan arasındakı dövlət sərhədi uzun illər rəsmi İrəvanın işğalçılıq siyasəti nəticəsində şərti xarakter daşıyıb. Amma indi vəziyyət dəyişib. Azərbaycanın qalib tərəf kimi diktə etdiyi şərtlər fonunda Ermənistan delimitasiya prosesində məqsədli şəkildə ləngimələrə yol verə bilmir. Bunun nəticəsidir ki, Qazaxda artıq müəyyən olunmuş dövlət sərhədi var. Hazırda delimitasiya danışıqları davam edir. Məcburi köçkünlər də işğaldan azad olunmuş ərazilərə, öz doğma ata-baba torpaqlarına qayıdırlar.

Bu mənada, Ermənistanla sülh müqaviləsinin açıq qalan müddəaları üzrə danışıqların, həmçinin şərti dövlət sərhədində delimitasiya və demarkasiya məsələlərinin davam etdirilməsi 2025-ci ildə Azərbaycan hökumətinin fəaliyyət istiqamətlərini müəyyənləşdirir.

Qeyd edək ki, bu istiqamətdə danışıqların heç birində ATƏT-in Minsk qrupu iştirak etmir. Belə olan halda bu quruma ehtiyac varmı? Əlbəttə, yox! ATƏT-in Minsk qrupunun vəzifəsi vasitəçilik, missiyası isə tənzimləmə qrupu kimi münaqişənin sülh yolu ilə beynəlxalq hüquq normaları əsasında həllinə nail olmaq idi. Amma ATƏT-in Minsk qrupu Azərbaycanla Ermənistan arasındakı münaqişənin həlli üçün heç bir addım atmayıb, ortaya ciddi sənəd qoymayıb. Münaqişənin həlli üçün vahid mövqe razılaşdırmayıb.

Danışıqlar zamanı həmsədrlərin hər biri öz maraqlarını güdüb. Onların razılaşdıqları yeganə şey problemin Azərbaycanın maraqlarının ziyanına, Ermənistanın xeyrinə həlli olub.

Minsk qrupu məcburi köçkünlərin geri qayıtması üçün də heç nə etməyib. Parisdə və başqa yerlərdə keçirilən beynəlxalq konfranslar isə sadəcə, gözdən pərdə asmaqdan başqa bir şey deyildi. O da aydın olub ki, Minsk qrupu münaqişənin həlli üçün deyil, de-fakto onun saxlanması üçün yaradılıb.

Başqa sözlə, Minsk qrupu münaqişənin tənzimlənməsinin həlli ilə deyil, "diplomatik turizm"lə məşğul olub. Sonda Azərbaycan öz gücü ilə, hərbi-siyasi yolla münaqişənin həllinə nail oldu. Ordumuz 44 günlük müharibədə möhtəşəm Qələbə qazanaraq, ərazi bütövlüyünü bərpa etdi. Bunu vasitəçilərsiz, illərlə davam edən mənasız danışıqlarsız etdi. Bununla da, ATƏT-in yaratdığı Rusiya, ABŞ və Fransanın həmsədr olduqları Minsk qrupu tarixin zibilliyinə atıldı. Buna baxmayaraq, Minsk qrupu hələ də rəsmi şəkildə ləğv olunmayıb. Qərb onu dirçəltməyə çalışır. Bununla da Cənubi Qafqazda biz də varıq deməyə çalışır. Yəni təzyiq vasitəsi kimi özünü qorumağa çalışır.

Azərbaycan tərəfi isə Minsk qrupunun ləğvini təklif edib. Bu, ilk növbədə Azərbaycanın onların fəaliyyətinə heç bir ehtiyac duymaması ilə bağlıdır. Daha heç bir vasitəçiyə ehtiyac qalmayıb. Bakı və İrəvan aralarındakı problemləri vasitəçilər olmadan ikitərəfli danışıqlar yolu ilə həll etməyə çalışırlar. Bu barədə Prezident İlham Əliyev çıxışlarının birində deyib: "Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq".

Ermənistan da Qarabağ münaqişəsinin həlli üzrə Rusiya, ABŞ və Fransadan ibarət ATƏT-in Minsk qrupunun buraxılmasını məqsədəuyğun hesab edir. Bu barədə Ermənistan baş naziri Nikol Paşinyan keçirdiyi son mətbuat konfranslarından birində bildirib: "Sülh kontekstində biz ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı qərar qəbul etməyi mümkün sayırıq".

Bunlara baxmayaraq Qərb "ölü" qurumu diriltməyə çalışır. Bəs məqsəd nədir? Bu məsələyə toxunan Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Qaya Məmmədov vurğulayıb ki, Helsinki prinsiplərinin pozulmasından əziyyət çəkmiş ölkə kimi biz ATƏT-in öz prinsiplərini qorumaqda uğursuzluğundan dərin məyusluq hissi keçirən ilk dövlətlərdən biriyik. O qeyd edib ki, ikili standartlara və beynəlxalq hüququn seçmə yanaşma əsasında tətbiqinə son qoymaq lazımdır: "İnsan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadə yolverilməzdir... Vasitəçiliyin zorla qəbul etdirilməsi cəhdləri BMT Baş Assambleyasının müvafiq qətnaməsi daxil olmaqla, beynəlxalq hüququn pozulması deməkdir. Məsələn, ATƏT-in qondarma Minsk qrupunu süni şəkildə saxlamağa çalışmaq münaqişə yaratmaq məqsədi daşıyır və sülhə xidmət etmir. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə edilmiş bütün konkret nəticələr ikitərəfli formatda mümkün olub. Azərbaycan qalan məsələlərin xoş niyyət əsasında ikitərəfli şəkildə həllinə sadiqdir".

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli isə bildirdi ki, Ermənistanla Azərbaycan arasında davam edən danışıqlar prosesində ölkəmizin Ermənistan qarşısında qaldırdığı tələblərdən biri də Minsk qrupunun fəaliyyətinə son qoyulmasıdır. Faktiki olaraq bu qurum fəaliyyət göstərmir. İkinci Qarabağ müharibəsindən sonra münaqişə həll edilib. Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Yəni Minsk qrupunun məşğul olduğu məsələ artıq öz həllini tapıb.

Azərbaycan Minsk qrupunun fəaliyyətinə son qoyulması ilə bağlı Ermənistanla birgə ATƏT-ə müraciət etməlidir. Təəssüf ki, ölkəmiz dəfələrlə danışıqlarda bu məsələni qaldırsa da, müsbət nəticə əldə olunmayıb. Çünki Ermənistan hökuməti əvvəllər buna razılıq vermirdi. Ancaq son zamanlar, hər halda müsbət haldır ki, onlar belə bir qrupun fəaliyyətinə ehtiyac olmadığını bildirirlər. Bununla yanaşı, müraciət etməyə hazır olduqlarını da bəyan edirlər. Ermənistan baş naziri və digər rəsmilər tərəfindən mövqe bildirilsə də, təəssüf ki, ermənilər tərəfindən bu istiqamətdə konkret addımlar atılmır. Hər halda, düşünürəm ki, bu məsələ həllini tapmalıdır. Çünki o, sülh prosesinə maneədir.

Hesab edirəm ki, belə bir qurumun strukturunu saxlamaq bölgədə münasibətlərin normallaşmasını istəməyən güc mərkəzlərininin maraqlarına uyğundur. Onlar çalışırlar ki, Minsk qrupu öz mövcudluğunu davam etdirsin. Əllərində təsir vasitələri olsun. Ancaq Azərbaycan mövqeyini ortaya qoyub. Bu mövqe ona əsaslanır ki, artıq münaqişə həllini tapıb və Minsk qrupunun fəsliyyətinə son qoyulmalıdır".

Bəli, artıq Cənubu Qafqazın geosiyasi vəziyyəti dəyişib. Azərbaycan regionun güclü dövlətinə, söz sahibinə çevrilib. Kimsə düşünürsə ki, hansı yollasa ona təzyiq edəcək, yanılır. Minsk qrupu keçmişdə qaldı, Azərbaycan gələcəyə doğru əmin addımlarla irəliləyir. Onu bu yoldan döndərmək mümkün deyil.

***Pünhan ƏFƏNDİYEV,***
***XQ***

*Köşə*

# "Tərəfkeş" vasitəçilər kimə lazımdır?



*Gülşən PAŞAYEVA,*
*Milli Məclisin deputatı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü*

**Məlum olduğu kimi, 1992-ci il martın 24-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) Xarici İşlər Nazirlər Şurasının Helsinkidə keçirilmiş əlavə iclasında ATƏM-in himayəsi altında Azərbaycan–Ermənistan Dağlıq Qarabağ münaqişəsinə dair Minsk konfransının keçirilməsi haqqında qərar qəbul edildi. Bu konfrans ATƏM-in prinsip, öhdəlik və müddəalarına əsaslanaraq, danışıqlar aparmaq vasitəsilə münaqişənin sülh yolu ilə həll edilməsi üçün daimi fəaliyyət göstərən bir qurum olmalı idi.**

Lakin 1992-ci ilin iyununda 11 dövlətin –ABŞ, Almaniya, Belarus Respublikası, Çexiya və Slovakiya Federativ Respublikası (1993-cü il yanvarın 1-də Çexiya və Slovakiya bir-birindən ayrılaraq müstəqil dövlətlərə çevrildilər), Fransa, İsveç, İtaliya, Rusiya Federasiyası, Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilməli olan bu konfrans baş tutmadı. Elə həmin dövrdən etibarən 11 dövlətin nümayəndələri Minsk qrupu adı altında danışıqlar prosesinə vasitəçilik etməyə başladılar.

1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin qətiyyətli qərarları, apardığı müdrik siyasət nəticəsində 1994-cü ilin mayın 12-də tərəflər arasında atəşkəs haqqında razılıq əldə edildikdən sonra 1994-cü ilin 5-6 dekabr tarixlərində keçirilmiş ATƏM-in Budapeşt Zirvə toplantısında Ermənistan–Azərbaycan münaqişəsinə vasitəçilik edən Minsk qrupunun həmsədrlik institutu təsis edildi. İlk olaraq bu təsisata iki həmsədr təyin edildi.1997-ci ilin yanvarın 1-dən isə ATƏT-in Minsk qrupuna Rusiya Federasiyası, Fransa və ABŞ həmsədrlik etməyə başladılar. Eyni zamanda, ATƏT çərçivəsində bu münaqişə ilə məşğul olan daha iki təsisat – Vyanada üzv dövlətlərin hərbi ekspertlərindən ibarət olan Yüksək Səviyyəli Planlaşdırma qrupu və Tbilisidə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisi yaradıldı.

Lakin 1994-cü ildə əldə edilmiş atəşkəs razılaşması dövründən İkinci Qarabağ müharibəsinə qədər davam edən 26 il ərzində Minsk qrupunun vasitəçilik səyləri bir nəticə vermədi. 2018-ci ildə hakimiyyətə gəlmiş Ermənistanın baş naziri Nikol Paşinyanın keçmiş Ermənistan Prezidentləri Robert Koçaryan və Serj Sarkisyan kimi, 1992–1994-cü illərdə əldə edilmiş status-kvonu qoruyub saxlamaqla və Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimi dəstəkləməklə yanaşı verdiyi "Qarabağ Ermənistandır və nöqtə" təxribatçı bəyanatı danışıqlar prosesini tamamilə məhv etdi.

Nəticəsiz danışıqlar, ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyi və Ermənistan hökumətinin hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi. Nəhayət, Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatmış 44 günlük müharibə və 2023-cü ilin 19–20 sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri boyu öz suverenliyini bərpa etməsini labüd etdi və beynəlxalq hüququn təntənəsi ilə yekunlaşdı.

Bu gün Azərbaycan və Ermənistan rəsmiləri Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında saziş üzərində işləyirlər. Bu 17 maddədən ibarət sənədin artıq 15 maddəsi Azərbaycan və Ermənistan tərəfindən razılaşdırılmışdır. Yalnız iki maddənin və iki şərtin razılaşdırılması tələb olunur. Onlar arasında Ermənistan konstitusiyasından, eləcə də normativ aktlardan Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasını, ATƏT-in Minsk qrupunun rəsmi olaraq ləğv edilməsini, Ermənistanın və Azərbaycanın beynəlxalq məhkəmələrdə bir-birinə qarşı qaldırdıqları iddialarını geri götürməyə hazır olmalarını və hər iki dövlətin sərhədləri boyunca başqa ölkələrin qoşunlarının yerləşdirilməməsini qeyd etmək olar.

Beləliklə, Ermənistan və Azərbaycan arasında davamlı sülhün əldə edilməsi üçün ATƏT-in Minsk qrupunun rəsmi olaraq ləğv edilməsi vacib şərtlərdən biridir. Bu gün həm məntiqi, həm də siyasi baxımdan tamamilə aydındır ki, ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Qrupu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi öz dövrünü başa vurmuş təsisatlara daha ehtiyac yoxdur. Eləcə də onların ATƏT tərəfindən maliyyələşdirilməsi əsassızdır.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında bu məsələni daim diqqətdə saxlayır. Digər tərəfdən, son dövrlər Ermənistan baş naziri Nikol Paşinyan da ATƏT-in Minsk qrupunun buraxılması haqqında şərhlər vermişdir. Beləliklə, ATƏT-in Minsk qrupu və yuxarıda qeyd edilən digər təsisatların rəsmi olaraq ləğv edilməsi ilə bağlı hər iki ölkənin liderinin ATƏT-ə müraciət etməsi Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimad tədbirlərinin qurulması baxımından əhəmiyyətli ola bilərdi.

# Xocalı dərdi ` Xocalı dərsi



*(əvvəli 1-ci səhifədə)*

Quduzlaşmış ermənilər onları azərbaycanlı olduqlarına görə məhv edirdilər.

613 şəhidin 106-sı qadın idi. Onları öldürənləri də ana doğmuşdu (Ya bəlkə onlar iblis bətnindən çıxmışdılar?).

O gecə 230 uşaq valideynlərindən birini – atasını, ya anasını itirdi.

23 uşaqsa həm atasız, həm anasız qaldı.

Öldürülən 59 uşağın ən kiçiyi 1, ən böyüyü 18 yaşında idi.

Xocalı faciəsini ən yaxın məsafədən görmək mənə nəsib oldu. Yox, həmin günlərdə Xocalıda deyildim. Heç o günlərdən sonrakı günlərdə də ora ayağım dəyməyib. Ancaq həmin Varfolomey gecəsindən bir neçə gün sonra oradan salamat qurtarıb gəlmiş bir xocalılının gözlərinə baxmaq əzabını mən də çəkdim.

Bu qızcığaz erməniçiliyin tam yetimə, tam kimsəsizə döndərdiyi, dünyanın bədbəxtinə çevirdiyi həmin 23 nəfərdən biri idi – həm atasını, həm anasını, əslində bütün ailəsini itirmiş bir yeniyetmə qız.

Xocalı soyqırımı ilə bağlı çoxlu fotosənədlər, videogörüntülər var. Ancaq mən o qızın gözlərini görmüşəm. O qızın gözlərində gördüyüm və oxuduğum gerçəklər o anacan seyr etdiyim bütün foto və video görüntülərdən daha təsirli, Xocalı faciəsinin ən yandırıcı əzab səhnələri idi.

1992-ci ilin martıydı. Xocalı faciəsindən lap az ötürdü. "Amerikanın səsi" radiosunun Azərbaycan redaksiyasının baş redaktoru Həsən Cavadi Vaşinqtondan Bakıya gəlmişdi. Mən də o vaxt həmin radionun Azərbaycan üzrə xüsusi müxbiri idim. Doktor Cavadiyə təklif etdim ki, qətliamdan salamat qurtararaq Bakıya gəlib çatmış xocalılılarla müsahibələr aparsın, reportajlar hazırlasın və onları da yalnız Azərbaycan redaksiyası xətti ilə yaymasın, "Amerikanın səsi"nin digər redaksiyalarına da ötürsün. İngilisdilli verilişlərdə də o faciənin təfsilatı işıqlandırılsın. Razılaşdıq və yollandıq Respublika Xəstəxanasına. Respublika Xəstəxanası baş həkiminin müavini olan unudulmaz Rafiq İmanov mənim dostum, həm də qohumum idi. Dərhal görüşümüzə şərait yaratdı. Palatalardan birinə daxil olduq. Olmazın əziyyətlərdən keçərək uzun məsafə qət etmiş, Allahın möcüzəsi ilə şər girdabından sağ qurtarmış bir yeniyetmə qız qarşımızdaydı. Qış gecəsi hərəsinin əynində nazik bir paltar, ayaqyalın, başaçıq çıxmışdılar evdən. Xeyli müddət sükut içərisində oturduq. Nə illah etdik, qız heç nə danışa bilmədi. "Amerikanın səsi"nin müxbiri suallar verirdi, qız dinmirdi. Mən suallar verirdim, nəsə soruşurdum, cavab yox idi. Donuq baxışları gözlərimizə zillənmişdi. Sanki o qızın baxışlarında həyat ölmüşdü. O baxışlara dözmək də çətin idi. Yarım saatmı keçdi, bir saatmı sovuşdu, saat yarımmı ötdü? Çox oturduq ki, heç olmazsa dilindən bir-iki cümlə çıxsın, həmin sözlər də "Amerikanın səsi"ndə verilsin. Handan-hana sanki həyata qayıdan kimi oldu, qısaca da olsa düçar olduğu müsibətin tarixçəsini nağıl etdi: "Atam dedi ki, qaçın, həm də hərəniz bir tərəfə qaçın, özü isə qaldı evdə. Anam bir yana qaçdı, qardaşım bir tərəfə yüyürdü, mən də bir ayrı səmtə. Hər yan zülmət idi. Bir qədər aralanmışdım ki, zil qaranlıqda qəfildən atamın qışqırığını eşitdim. Ardınca da atəş səsləri gəldi. Bir az da keçdi. Qardaşımın səsi lap yaxından gəldi. Yenə atəş səsləri eşidildi. Mən başladım daha da bərk qaçmağa".

Ayaqyalın, başaçıq, nazik bir paltarda qaçmışdı. Ayaqları donmuşdu, əllərini şaxta kəsmişdi. Amma Pərvərdigar, görünür, elə anlarda insana qeybdən qeyri-adi güc verir.

Qızcığaz o soyuqlu, sazaqlı günlərdə kilometrlərlə yolu piyada adlamışdı. Deyirdi ki, ağacın qabığını soyub nazik budaqlarla yalın ayaqlarına sarımışdı. Elə bu cür zülm çəkə-çəkə, ilk insanlı məskənə çatana qədər, qolundan yapışan bir insanla rastlaşanacan irəliləmişdi.

O qızın sonrakı taleyindən xəbərim olmadı. Bilmirəm indi yaşayır, ya yox. Əgər yaşamaqda davam edirsə, əminəm ki, ömrünün son saniyəsinəcən onun qulağına atasının qışqıran səsi gələcək, ardınca da atəş sədası. Əminəm ki, axırıncı nəfəsinə qədər onun qulaqlarına anasının ah-naləsi gələcək və ardınca da açılan avtomat atəşləri. Əminəm ki, həyatının son anınacan onun qulaqlarında eşidilən qardaşının son çığırtısı, həmin axırıncı qışqırığın ardınca eşidilən atəş səsi olacaq.

Dünyanın ən dəhşətli soyqırımlarından olan Holokost altı milyon yəhudinin axırına çıxdı. Ruanda qətliamı, bəzi qaynaqlara görə, beş yüz min, bəzilərinə görə səkkiz yüz min, bəzilərinə əsasən bir milyon ömür apardı. Elə Azərbaycanın özündə, XX yüzil boyu törədilmiş soyqırımlarında həlak edilənlərin miqdarı on minlərlə ölçülür. Ancaq Xocalı daha əvvəl baş vermiş soyqırımlarının hamısından ayrıcadır. Çünki Xocalıda edilmiş qəddarlıqların misli-bərabərinə daha əvvəllərdə rast gəlinməyib. Xocalıya hücum edənlər sovet ordusundan orada varis qalmış, elə həmin siyasəti, həmin xətti davam etdirən 366-cı motoatıcı alay idi. Onların da sağında-solunda dünyanın müxtəlif ölkələrindən gizli yollarla Qarabağa gətirilmiş erməni terrorçuları, peşəkar qatillər. O günəcən müxtəlif soyqırımlarında insanlığa qarşı törədilmiş nə qədər rəzalətlər varsa, sanki qəsd qoyublarmış ki, Xocalıda bir gecənin içərisində onların hamısını təkrarlasınlar.

Tarix çay kimidir, axır gedir. Ən çəkilməz dərdlər də, ən qövr edən yaralar da asta-asta səngiyir, tarixin dünənində qalır. Ancaq elə hadisələr var ki, onları nəinki unutmağa, heç bir an belə yaddan çıxarmağa haqqımız yoxdur. Ermənistanın Azərbaycana təcavüzü illərində işğalçıların özlərinin çəkdikləri və göstərdikləri bir kinoxronikanı da görmüşəm. Qətlə yetirilmiş gənc Azərbaycan əsgəri yerə sərili qalıb. Vəhşiləşmiş erməni zabitlərindən biri o cansız cəsədə yaxınlaşır, başından təpiklə vurur.

Və bunu da çəkib dünyaya göstərirlər. Öldürməklə ürəyi soyumursa, öldürəndən sonra hətta cəsədini təpiklə vurursa, demək, o əsgər son anında da bu düşməni yandırıb.

1992-ci il fevral ayının 27-si. Bizimkilər dünənki amansız gecədə qətl edilmişlərin cəsədlərini yığırlar. Onların içərisində bir məsum körpə. Çox kiçikdir, yəqin, hələ heç dil də açmayıbmış, ya bəlkə də ana dilində ilk sözlərini deyirmiş. Onu da öldürüblər və sadəcə güllə ilə vurmayıblar, cəlladcasına, o zərifcə vücudunu deşik-deşik edərək öldürüblər.

Zaman keçəcək, çox yaraların zoqqultusu toxtayacaq, çox qəmlər sönəcək. Möhtəşəm Zəfərimizlə başa çatmış müharibənin bir çox acıları da onillər sonra bizi bəlkə indiki kimi şiddətlə duyğulandırmayacaq, lap barışıq da olacaq, bir çox sahələrdə dinc qonşu həyatı da sahmana düşəcək, kin-küdurət qalacaq dünəndə.

Fəqət döyüş meydanında həlak olub düşmüş o əsgərin başına vurulan o təpiyi heç vaxt yaddan çıxarmaq olmaz.

Cəlladcasına qətlə yetirilmiş o Azərbaycan körpəsini heç vaxt unutmaq olmaz. Bunları bağışlasaq, biz xalq ola bilmərik.

Xalqım bunları bağışlasa, mən xalqımı da bağışlamaram!

...Xocalı Azərbaycan millət təqviminin qaraya boyanmış, üstündə qan ləkələri olan bir hüznlü səhifəsidir. O səhifəni bütün nisgilləri və acısıyla biz yaxşı bilirik, hər əsəb telimizlə hiss edirik. O haqda biz yalnız ildönümündən-ildönümünə, hər il fevral ayı gələndə düşünmürük. Bu ağrı daim içərimizdədir, iliyimizdə, qanımızdadır, varlığımızda nəbz kimi çırpınmaqdadır. Gərək insanlığın belə faciələrinin bütün müdhiş anlarından, dünyanın hər yerində, hər düşünən insan vaqif olsun ki, gələcəkdə belə təhlükələrdən qoruna bilsin. İnsana yaraşdırılması düşüncəyə sığmayan belə gedişat dünyanın harasında cərəyan etsə də, məsuliyyəti dünyanın hər nöqtəsindəki insanların boynundadır.

1998-ci ildə Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton Ruandaya getmişdi və üzr istədi ki, o vaxt burada qətliam baş verərkən Amerika Birləşmiş Ştatları onları layiqincə müdafiə edə bilməyib.

Amma Ruandada törədilən dəhşətlərdə ABŞ kimi dolayısı ilə deyil, birbaşa olaraq Fransanın əli vardı, oradakı hakimiyyətlə əlaqədə idi, mübarizə aparan partizanların nə qədərinin məhv olmasına bilavasitə şərait yaradanlardan olmuşdu. Üzr istəmək nədir, heç buna oxşar cəhd etmədi.

Dünyanın qüdrətli, sözükeçər dövlətlərinin gözü qarşısında 1992-ci ildə – XX yüzilliyin bitəcəyində Xocalı boyda soyqırımı baş veribsə, onlar gərək hamısı üzr istəyə. Amerika Birləşmiş Ştatları da, Fransa da, Rusiya da, Almaniya da və dünyada mənəm-mənəmlik iddiasında olan dövlətlərin hamısı.

2001-ci ilin aprel ayı idi və Azərbaycan Avropa Şurası Parlament Assambleyasında həqiqi üzv olaraq fəaliyyətlərinə başlayırdı. Həmin ilin yanvarında unudulmaz ulu öndər Heydər Əliyev Strasburqda – Avropa Şurası iqamətgahı qarşısında Azərbaycanın üçrəngli bayrağını qaldırmışdı və aprel ayından artıq bərabərhüquqlu üzv kimi fəaliyyətə başlayırdıq. Hələ nabələd idik, orada müxtəlif ölkələrdən olan deputatlarla təmaslarımız başlanmamış, tanışlığımız yaranmamışdı. Ancaq Böyük Britaniya nümayəndə heyətində mənim köhnədən Londondan tanıdığım Con Teylor adlı bir deputat vardı. Çox təcrübəli insan, bədənində qəlpələr gəzdirən mərd siyasətçi. Köhnədən bilirdim ki, onun həyat yoldaşı da bir türk xanımıdır. Sessiyanın ilk günləri idi. Con Teylor mənə xısınca söylədi ki, nümayəndə heyətinizə də xəbər ver, buradakı səfirliyiniz də bilsin, Türkiyə nümayəndə heyətinə də çatdır, ermənilər bir sənəd hazırlayıblar, altında da artıq yüzdən artıq imza var, mənə də o sənədi imza atmaq üçün vermişdilər, surətini çıxardıb götürdüm.

Sənədi verdi mənə. Bu, "Türkiyənin ermənilərə qarşı törətdiyi soyqırımının tanınması haqqında" yazılı bəyannamənin layihəsi idi. Həqiqətən də altında yüzdən çox imza. Avropa Şurasının Nizamnaməsinə görə, istənilən nümayəndə heyətinin təqdim etdiyi hər hansı sənədin qəbul olunaraq nəşr edilməsi üçün əvvəlcə müəyyən şərtlər yerinə yetirilməlidir. Gərək əvvəlcə Assambleyanın müxtəlif ölkələrdən və fərqli siyasi qruplardan olan deputatları sənin fikrinə şərik çıxaraq təqdim etdiyin layihəyə imzasını atmış ola.

Ermənistan nümayəndə heyətində cəmi dörd nəfər vardı və onlar da bizim kimi hələ heç kəsi tanımırdı. Təbii ki, həmin yüzdən çox imzanı toplamaqçün gərək sənədin mahiyyəti haqqında o adamların hər biri ilə dübədü danışaydın, izah edəydin, inandıraraq razılığını ala biləydin. Bu isə əsla sadə məsələ deyildi. Təbii ki, onların əvəzinə bu işi uzun əllərinin köməyi ilə erməni lobbisi görmüşdü.

Belə bir sənədin varlığını Türkiyə nümayəndə heyətinə də dedim, nəsə çox məhəl qoymadılar. Təkid etdim ki, buna sıradan olan kağız parçası kimi baxmayın, ermənilərin məkri uzaq hədəfləri nişan alır, yəqin ki, bu işi davam etdirəcəklər, niyyətlərin qədəm-qədəm irəliləməsindən ötrü Avropa Şurası çərçivəsində hüquqi təməllər qazanmağa çalışacaqlar.

Amma, eyni zamanda, ürəyimdən keçdi ki, buna qarşılıq olaraq bir başqa sənəd hazırlayaq – "Azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımının tanınması haqqında". Məqsədimi Azərbaycanın Avropa Şurasındakı daimi nümayəndəliyinin rəhbərinə də bildirdim. "Xam xəyaldır. Burada heç kəs Ermənistanın Azərbaycana qarşı soyqırımı törətməsi haqqında sənədə imza atmayacaq", – dedi.

Avropa Şurasındakı ilk nümayəndə heyətimizin rəhbəri, bu gün Azərbaycanı uğurla gələcəyə aparan cənab İlham Əliyevə müraciət etdim. Dedim ki, ermənilər belə bir sənədi artıq hazırlayıb, altında imzalar da var, mütləq qəbul olunacaq və nəşr də ediləcək. Bu, bizimçün bir fürsətdir. Başqa situasiyada biz heç vaxt azərbaycanlılara qarşı Ermənistanın törətdiyi soyqırımının tanınması haqqında sənədi keçirə bilmərik. Amma indi əsl məqamdır, o sənəd varsa, bunu da ona qarşılıq olaraq ortaya çıxarmaq mümkündür.

Prezident İlham Əliyevin arxada qalan illərdəki müdrikliyinə, qətiyyətinə, sabahgörənliyinə hər kəs artıq şahiddir.

Elə 2001-ci ilin aprelində də bu sənədin arxasındakı gələcəyi dərhal gördü, ləngimədən mətni hazırlamağı tapşırdı və tarixi sənədə ilk imza atan da məhz İlham Əliyev oldu.

Bu, Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində uğradığı soyqırımları və Xocalı soyqırımını ilk dəfə bəyan eləyən bir sənəd idi. İlk dostlarımızı və bədxahlarımızı elə həmin əsnada tanıdıq.

Sonralar Azərbaycan əleyhinə həmişə qərəzli fəaliyyətlər göstərmiş Andreas Qrosa yaxınlaşdım. Dedim, ermənilər belə bir sənəd hazırlayıb, biz də ona qarşılıq olaraq sənəd hazırlamışıq və burada maddə-maddə göstərmişik ki, Azərbaycana qarşı XX yüzildə Xocalı soyqırımı da daxil olmaqla hansı qətliamlar törədilib. Qırmızı-qırmızı qayıtdı ki, Xocalı hadisəsi soyqırımı deyil, müharibə epizodudur, belə hadisələr hər müharibədə olur. Amma ermənilərə qarşı türklərin törətdiyi soyqırımıdır, ona görə o biri sənədə imza atmışam, buna imza atmayacam.

Amma bunun ardınca böyük britaniyalı tanınmış siyasətçi, Avropa Şurasında yüksək nüfuz sahibi olan Terri Devisə müraciət etdim. Dedim, siz Siyasi Komitənin sədrisiniz. Ermənilərin təqdim etdiyi elə bir sənədə imza atmısınız ki, ən azı tutduğunuz vəzifəyə görə, balansı gözləmək xatirinə onda gərək bura da imza atasınız, ya oradakı imzanızı geri çəkəsiniz. Bir qədər düşündü və mənim sənədimi imzaladı. Sənədin altında Siyasi Komitənin sədri Terri Devis kimi mötəbər bir şəxsiyyətin imzasını görən müraciət etdiyim digər deputatlar da imza atmağa çox tərəddüd keçirmədilər. Norveçdən, Lüksemburqdan, Makedoniyadan və digər ölkələrdən olanların imzasını topladım. Ermənistanın azərbaycanlılara qarşı törətdiyi soyqırımı, o cümlədən Xocalı genosidi haqqındakı sənəd ilk dəfə işıq üzü gördü. Azərbaycanlılara qarşı erməniçiliyin törətdiyi soyqırımları ilə bağlı həqiqətləri əks etdirən bu sənəd bütövlükdə beynəlxalq təşkilatlar çərçivəsində bu mövzuda işıq üzü görən ilk sənəd idi.

Unudulmaz ulu öndərin adı Heydər idi və bu ad ona təsadüfən verilməmişdi. Bu bir yadigar ad idi. 1918-ci ildə Zəngəzurda ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımları dönəmində Heydər adlı bir gənc azərbaycanlı da qətlə yetirilmişdi. Həyatdan nakam gedən o gəncin adı yaşasın deyə illər sonra bacısı bu adı dünyaya gələn oğluna verdi. Unudulmaz Heydər Əliyev, əlbəttə, çox yaxşı bilirdi ki, o, hansı tarixçəsi olan hansı adı daşıyır.

Və bu da həyatın ayrı məntiqidir: Xocalı faciəsinin, Azərbaycanın uğradığı işğal siyasətinin, nəhayət ki, başa çatması, bütün işğal altındakı torpaqlarımızın azadlığına qovuşması, insanlarımızın üstündən qaçqınlıq, məcburi köçkünlük damğasının götürülməsi üçün Heydər Əliyev ömrü uzunu mübarizə apardı, həmin yolu möhtəşəm qələbəyədək Prezident İlham Əliyev davam etdirdi.

Heydər Əliyevin nəvəsi, İlham Əliyevin qızı Leyla xanım Əliyevanın təşəbbüsçüsü olduğu, artıq dünya boyunca son dərəcə faydalı nəticələrini gördüyümüz "Xocalıya ədalət!" şüarı ilə başlanan hərəkat da rəmzidir, nəsildən gələn həmin mübariz ruhun ifadəsidir.

Ataların sözü var – "qisas qurdla qiyamətə qalmaz" və gərək qalmasın. Ümid eləyirəm və inanıram ki, ürəkdən tikan çıxaran bir gün də gələcək ki, Nürnberq məhkəməsinə bənzəyən ədalət divanı mütləq qurulacaq, Xocalı cəlladları o məhkəmənin qarşısında dayanaraq cavab verməli olacaqlar.

Bu, həm həyatda olan və həyatdan getmiş xocalılılara gərəkdir, həm də bütün dünya insanına lazımdır. Gərək bəşər görsün ki, insana qarşı qəddarlıqlar edənlər bağışlanılmır, üstündən nə qədər zaman keçsə də, o cinayəti törədənlərdən hansılarsa artıq gəbərmiş olsalar da, məhkəmə qurulmalı, cəzalar müəyyənləşməlidir. Əgər o dünya, o dünyanın cəhənnəmi varsa, insan oğluna bu dünyada bu əzabları verənlər o dünyada o əzabları hökmən çəkəcək, cəhənnəm odunda yanacaqlar.

Sənədlər, sübutlar hamısı ortada. Neçə illər əvvəl mən Respublika Hərbi Prokurorluğunda soyqırımı muzeyi yaradırdım. Əvvəl onlar təklif etmişdilər ki, elə bir-iki otaqda yerləşən bir ekspozisiya düzəldək və bu, əsasən onların apardığı istintaqların materiallarını əks etdirən bir məkan olsun. Amma cinayət qovluqlarını vərəqləməyə, dindirmə protokollarını diqqətlə oxumağa, dəhşətli sənədlər, əşya-yi dəlillərlə tanış olmağa başladıqca anladım ki, bu işi sadəcə yola vermək olmaz, dolğun bir muzey yaradılmalıdır. Fotolar dil açıb söyləyirdi ki, o məzlum insanlara həyatın son dəqiqələrində hansı zülmlər veriblər. Elə zülmlər, elə işgəncələr ki, əslində, heç bir canlı məxluq o əzabı özündən olan bir başqasına qarşı etməz. Ancaq bunlar etmişdilər. O sübutlar hər gələcəkdə qurulacaq Nürnberq məhkəməsinə bənzəyən ədalət divanında ortaya çıxacaq.

Ancaq cəlladlarının özünüifşaları da az deyil. "Miatsum" ideyasının əsas ideoloqlarından biri yazıçı Zori Balayanın 1996-cı ildə Vanadzorda "Воскрешение души нашей" – "Ruhumuzun dirilməsi" adlı kitabı nəşr edilib.

Yazıçılıq bir peşədir ki, onun cövhərində insana məhəbbət dayanmalıdır. Ancaq Zori Balayanın nifrət saçan yazılarını vərəq-vərəq oxuduqca onun içərisində nəinki bir yazıçının, hətta bir insanın olduğuna şəkk gətirirsən. Di gəl, o, yazıçı olmaqdan daha əvvəl həkimlik ixtisası almışdı. Təbib ixtisasına yiyələnənlər adətən Hippokrat andı içir. "Zori Balayan" deyilən murdarlığın və bütövlükdə erməniçiliyin bəşəriyyət üçün hansı mərəz olduğunu dərk etməkçün o idbarın yazdığı bu sətirlərdən münasib sübut olmaz. Zori Balayan Xocalı təəssüratlarını belə bölüşür: "Biz Xaçaturla uşaqların saxlandığı zirzəmiyə enən vaxt əsgərlərimiz artıq onlardan birini ovuclarından (balaca bir uşağı – R.H.) pəncərə çərçivəsinə mıxlamışdılar. Uşağın səs-küyünü azaltmaq üçün Xaçatur uşağın ağzına onun öldürülmüş anasının kəsilmiş döşünü soxdu. Sonra mən uşağın başının, sinəsinin və qarnının dərisini soydum. O, qan itirməsindən yeddi dəqiqə sonra öldü".

Sən bir sadistliyə bax! Hətta saata baxır, ölçür ki, qurbanının diri qalması, nəfəsinin gedib-gəlməsi nə qədər sürəcək.

Beləsinə adam deməyə dil dönməz!

Və arsız-arsız davam edirdi: "Birinci ixtisasıma görə həkim olduğumdan humanistəm və ona görə də uşağa edilən hərəkətlərdən sevinc duymadım. Lakin qəlbim şadlanırdı. Xaçatur bədəni hissələrə böldü və onları itlərə atdı. Axşam eyni şeyi biz daha üç türk uşağı ilə etdik. Mən erməni, vətənpərvər və vətəndaş kimi borcumu yerinə yetirdim. Xaçatur da xeyli tər axıtdı. Mən onun və digərlərinin gözündə intiqam və güclü humanizm mübarizəsi gördüm. Sonra isə mənim uşaqlıq dostum, mayor Suren dedi: "Biz vəhşi deyilik, lakin ürəyimizi soyuq saxlamalıyıq". İnsan adlanması insanlığa həqarət olan Zori Balayan kirimir: "Sonrakı gün biz kilsəyə daxil olduq. Dünən gördüyümüz və etdiyimiz hərəkətlərdən ruhumuzun təmizlənməsi təmənnası ilə dua etdik".

Bir də dəqiq yerini göstərirəm: bu qan qoxulu sətirlər Zori Balayanın 1996-cı ildə Vanadzorda nəşr edilmiş "Воскрешение души нашей" – "Ruhumuzun dirilməsi" kitabının 260-262-ci səhifələrində gedib.

Bunları haçansa, lap min il ötsə də, bağışlamaq olarmı?

1992-ci il mart ayının 26-da – Xocalı hadisələrindən vur-tut bircə ay sonra İspaniyada çıxan "Levante" qəzetində kanadalı, milliyyətcə erməni olan hüquqşünas Vaskel Sitaryanın bir məqaləsi dərc edilir. Yazırdı ki, "biz ermənilər özümüz özümüzü dünyada rüsvay etdik. Bizim üçün çox ağır olan beynəlxalq məhkəmələr qurulacaq. Kimdir erməni millətini məhkəmə qapılarına sürükləyən?"

Ya bundan da bir qədər əvvəl – 1992-ci il mart ayının 12-də Parisdə nəşr edilən "Frans Katolik Ekleziya" jurnalında "Hücumdan öncə" sərlövhəli bir məqalə dərc edilir. Məqalənin müəllifi artıq Xocalıda olmuş, elə dırnaqarası yaxşı adlandırıla biləcək bir jurnalist idi. O mənada "yaxşı" ki, hər halda müəyyən həqiqətləri etiraf eləməyə cəsarəti çatırdı. Yazırdı ki, "mən Xocalıda oldum, hər şeyi öz gözümlə gördüm. Artsaxlıların hər qarış torpaq uğrunda necə cəsarətlə döyüşdüklərinə heyran qaldım".

Və əlavə edirdi ki, "ancaq mən torpaq uğrunda mübarizənin bu şəkildə aparılması ilə razı deyiləm. Çünki ətraf cəsədlərlə dolu idi. Hər yerdən qan iyi gəlirdi. Azərbaycanlılar susmayacaqlar və bunu unutmayacaqlar. Bu gün ruslar bizimlədir, bəs sabah nə edəcəyik? Biz tənha qala bilərik".

Erməni olanda nə olar? Sabahın həqiqətini doğru ehtimal edir.

Hələ ki tam tənha deyillər. Amma büsbütün yalqız qalacaqları günlər də uzaqda deyil. Şər sayca, çəkicə, əhatəcə bəzən həddən çox ola, xeyir, düzlük, doğruluq, həqiqət onun müqabilində kiçik görünə bilər. Amma həqiqətin, xeyirin xüsusi çəkisi həmişə şərdən qat-qat ağırdır. Bu gün Xocalı soyqırımını dünyanın doqquz dövləti, Amerika Birləşmiş Ştatlarının iyirmidən artıq ştatı ya tam, ya parlament səviyyəsində tanıyır. Günlər ötdükcə bu sıralar sıxlaşacaq.

Və o sıxlaşan sıralar da şərin, erməniçiliyin Böyük Cəza Gününü yaxınlaşdıracaq.

Xocalı faciəsi hələ bizə vaxtca çox yaxındır. O faciəni gözü ilə görmüş, hadisələrin içərisindən çıxaraq salamat qurtarmış insanların neçəsi yaşayır. Ahıllaşıblar, ixtiyarlaşıblar. Ancaq 40 il keçəcək, 50 il ötəcək, 100 il arxada qalacaq, nəsillər dəyişəcək.

Azərbaycan nə bəxtiyardır ki, bu gün Qarabağımız başdan-sona azaddır. Azərbaycan nə məsuddur ki, yenə Xocalıda üçrəngli bayrağımız ucalır.

Lap az keçəcək, Xocalıda toylar da çalınacaq, şən məclislər də qurulacaq, yeni, xoşbəxt, firavan günlər də yaşanacaq.

Təzə nəsillər, elə Xocalıda dünyaya gəlib böyüyənlər Xocalı faciəsi haqqında həqiqətləri tarix kitablarından oxuyacaqlar. Ancaq gərək elə edək ki, o xocalılıların da və gələcəyin bütün azərbaycanlılarının da yaddaşında, ürəyində Xocalı faciəsi yalnız tarix kitabından oxunan hadisə kimi qalmasın. Diri, canlı hadisələr kimi qalsın. Hər an beyni deşən, qaysaqlanmamış, açıq yara kimi qalsın.

Xocalı da, 20 Yanvar da yalnız dərd günü deyil, həm də bu xalqın dözüm günüdür, iradə günüdür, şər qabağında əyilməmək günüdür. Zülm, əzab, işgəncə, məşəqqət bizi yenə bilmədi. Dirçəldik, düşməni də yendik,





torpağımızı da azad etdik. O yerləri cənnətə çevirməkdə davam edirik. Ancaq gələcəyin Xocalısında – cənnət Xocalıda ən məsud saatlarımızda da o günləri daim xatırlayaq. 20 Yanvar da, Xocalı da, Qarabağ müharibəsinin hər günü də Azərbaycan insanı üçün həmişə yaddaş zəngi olmalıdır. Yaddaşlarımızda o zəng səsləndikcə daha ayıq, içəridən daha səfərbər, daha güclü və sabah yollarında daha inamlı olacağıq!

"Biz bir amalla, bir arzu ilə yaşamışıq bütün bu illər ərzində ki, bu torpaqlara qayıdaq. Və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu, demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik. Onların tör-töküntülərini məhv etmişik. Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv eləmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib!"

Bunlar xoşbəxt Fatehin – Zəfərimizin Memarı Prezident İlham Əliyevin sözləridir.

Nə bəxtiyarıq ki, yaralarımıza məlhəm olan bu sözləri eşitmək səadəti nəsibimiz oldu!

…Bu günü gördük, o günü də mütləq görəcəyik. Qalib Prezident İlham Əliyev Xocalı faciəsinin 33-cü ildönümündə sərəncam imzaladı ki, Xocalı Dərdini dünyaya Dərs olacaq bir rəmz kimi yaşatsın deyə nahaq qanlar çilənmiş dünənki dərdli, bugünkü azad Xocalıda abidə ucaldılsın. Xocalı Qəminin 34-cü, ya 35-ci ildönümündəmi o Abidə dikələcək. Bundan belə əbədilik yaşayacaq həmin Abidə heç vəchlə dərdin yox Əzmin, ağrının deyil, Zəfərin ABİDƏSİ kimi yüksələcək! Yüksələcək və gələcəkdəkilərə bitməz Dərd və Qalibiyyətin Təntənəsi Dərslərini verməkdə davam edəcək!

***Rafael HÜSEYNOV,***
***Milli Məclisin sədr müavini,***
***akademik***

# XOCALI SOYQIRIMI: Tarix bizə nələri öyrətdi?



*(əvvəli 1-ci səhifədə)*

### Bir qərinəlik qanlı tarix

1992-ci il fevralın 25-dən 26-na keçən məşum gecədə Ermənistan silahlı qüvvələri beynəlxalq hüquqların bütün normalarını pozaraq, mühasirədə olan Xocalı şəhərinin dinc sakinlərinə qarşı ağır hərbi texnikadan istifadə edərək, görünməmiş qəddarlıqla repressiyalar həyata keçirib, şəhər yer üzündən silinib. Təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət nəticəsində 613 dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onların 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə onlardan birini itirib. Bundan əlavə, 487 mülki şəxs ağır yaralanıb, 1275 nəfər girov götürülüb. 68 qadın və 26 uşaq daxil olmaqla 150 girovun taleyi naməlum olaraq qalır. Bunlar sadəcə acınacaqlı statistikadır, lakin bu rəqəmlərin arxasında bütün Azərbaycan xalqının faciəsi dayanır.

Xocalı qətliamı dünya tarixində dinc əhalinin qətli kimi dərin iz qoymuş Xolokost, Xatın, Sonqmi, Lidise, Babi Yar, Ruanda və Srebrenitsa... soyqırımları kimi faciələrlə eyni sırada dayanır.

Fevralın 26-da azərbaycanlıların Xocalı soyqırımının 33-cü ildönümü tamam olur. Lakin faciədən keçmiş illərdə 1980-ci illərin sonları və 1990-cı illərin əvvəllərində baş vermiş faciəli hadisələrin yenidən dərindən düşünülməsinə kifayət qədər diqqət yetirilməyib. Sovet İttifaqının dağılması Cənubi Qafqazda, Mərkəzi Asiyada, Dnestryanı bölgədə və postsovet məkanının digər regionlarında münaqişələrə səbəb olmuş, insan itkisi və kütləvi köçkünlərlə nəticələnmişdir.

Bu gün artıq danılmaz faktdır ki, 33 il əvvəl Xocalı şəhərində törədilmiş soyqırım aktının əsas təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, Ermənistan silahlı qüvvələri və 366-cı motoatıcı alayın şəxsi heyətidir. Onların hərəkətləri insan hüquqlarının kobud şəkildə pozulması, Cenevrə Konvensiyası, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, Fövqəladə Hallar və Silahlı Münaqişələr zamanı Qadın və Uşaqların Müdafiəsi haqqında Bəyannamə və digər beynəlxalq hüquq aktları kimi beynəlxalq sənədlərə məhəl qoymamaq kimi qiymətləndirilir.

Bu baxımdan xüsusilə qeyd etmək lazımdır ki, Xocalı soyqırımı Ermənistan Respublikasının keçmiş prezidentinin qanunsuz separatçı rejimin "Özünümüdafiə qüvvələri komitəsi"nə rəhbərlik etdiyi və müvafiq olaraq bu şəhərin zorakılıqla ələ keçirilməsinə görə məsuliyyət daşıyan şəxslərdən biri olduğu vaxtda baş verib. Bundan əlavə, Serj Sarkisyanın özü və bu cinayətin digər birbaşa iştirakçıları cəzasızlıq şəraitində vicdan əzabı çəkmədən Xocalı sakinlərinin və müdafiəçilərinin məhvinə görə məsuliyyətlərini açıq şəkildə etiraf ediblər.

2012-ci il fevralın 24-də Karnegi Beynəlxalq Fondunun aparıcı eksperti Tomas de Vaal (məşhur "Qara bağ" kitabının müəllifi (Moskva: Mətn, 2005. 413 s.) fondun saytında "President, müsahibə və faciəli yubiley" məqaləsini dərc edib) 2000-ci il dekabrın 15-də rus dilində demişdir: "Xocalıdan əvvəl azərbaycanlılar bizim sadəcə zarafat etdiyimizi düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyəcək insanlardır. Bu əhval-ruhiyyəni yox etmək lazım idi. Və belə də oldu". (http://carnegieendowment.org/2012/02/24/president-interviewand-tragic-anniversary/9vpa). Bununla Sarkisyan dinc sakinləri, qocaları, qadınları və uşaqları qətlə yetirdiyini etiraf edib. İndi kim inkar edə bilər ki, Serj Sarkisyan hərbi cinayətkardır və hərbi cinayətlərə görə cinayət məsuliyyətinə cəlb olunur?...

… Xocalı soyqırımı öz qeyri-insani qəddarlığı ilə Ukrayna, Gürcüstan, Rusiya, İngiltərə, Fransa, Almaniya, ABŞ, Baltikyanı ölkələrin, Polşa, Türkiyə və digər dövlətlərin jurnalist və publisistlərini dəhşətə gətirib. Həmin günlərdə bu vəhşiliklərin qeyri-insaniliyini təsvir edən xarici qəzetlər belə yazırdılar: "Croix l'Evenement" jurnalı (Paris), 25 mart 1992-ci il: "Ermənilər Xocalı ərazisinə hücum etdilər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar min nəfərin öldürülməsindən danışır". "The Sunday Times" (London), 1 mart 1992-ci il: "Erməni əsgərləri yüzlərlə ailəni qətlə yetirdilər". "Financial Times" (London), 9 mart 1992-ci il: "Ermənilər Ağdama doğru hərəkət edən qaçqınlar kolonuna atəşə tuturlar". "The Times" (London), 4 mart 1992: "Çoxları şikəst edildi və bir balaca qızın yalnız başı qaldı". "İzvestiya" (Moskva), 4 mart 1992-ci il: "Videokamera qulaqları kəsilmiş uşaqları göstərirdi. Yaşlı bir qadının üzünün yarısı kəsilmişdi. Kişilərin baş dərisi soyulmuşdu". "Le Monde" qəzeti (Paris), 14 mart 1992-ci il: "Ağdamda xarici jurnalistlər Xocalıda qətlə yetirilən qadın və uşaqlar arasında başlarının dərisi soyulmuş, dırnaqları çıxarılmış üç qadın və uşaq gördülər. Bu, Azərbaycan təbliğatı deyil, reallıqdır". "İzvestiya", 13 mart 1992-ci il: "Mayor Leonid Kravets: "Mən özüm təpədə yüzə yaxın meyit görmüşəm. Bir oğlanın başı yox idi. Hər yerdə qadınların, uşaqların, qocaların xüsusi amansızlıqla qətlə yetirilən meyitlərini görmək olardı"…

Xocalı şəhərində törədilmiş cinayətlərin xarakteri və miqyası onların BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 (III) nömrəli qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş qaydalara tam uyğun olduğunu təsdiq edir. Məhz bu ərazidə yaşayan əhalinin azərbaycanlı olduqları üçün tamamilə məhv edilməsi məqsədi ilə əvvəlcədən planlaşdırılmış kütləvi və amansız repressiya aktı həyata keçirilmişdir. Vəhşi cəlladlar insanların baş dərisini soyur, müxtəlif orqanları kəsir, azyaşlı uşaqların gözlərini çıxarır, hamilə qadınların qarınlarını yarır, insanları diri-diri basdırır və ya yandırırdılar. Yanan şəhərdən qaçıb canını qurtarmaq istəyənlərə yollarda və meşələrdə pusqu quran erməni əsgərləri xüsusi amansızlıqla qətlə yetirirdilər.

1978-ci ildə İrandan Azərbaycana köçməsinin 150 illiyi münasibətilə Qarabağda abidə ucaldan ermənilərin millətçi və ekstremist dairələri son iki əsrdə özlərinin xarici əlaltılarının köməyi ilə ardıcıl olaraq Azərbaycana qarşı təcavüzkar siyasət həyata keçiriblər. "Böyük Ermənistan" yaratmaq ideyasından ruhlanan ermənilər iki əsr boyunca yad torpaqları ələ keçirmək, işğal etmək və bu torpaqlarda öz dövlətlərini yaratmaq üçün mübarizə apardılar.

Tarixdən məlumdur ki, erməni millətçiləri daima qonşu xalqlara qarşı aqressiv hücumlar törətmiş, öz planlarını həyata keçirmək üçün vasitələrdən çəkinməmiş, başqa insanların hüquqlarını tapdalamış, onları öz ata-baba yurdlarından qovmuş, terrordan, fiziki qırğından belə, yad ərazilərı addım-addım zəbt etməyə çalışmışlar.

Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı işğalçı terror siyasəti İrəvanın dövlət siyasətinə çevrilib və artıq minlərlə günahsız insanın ölümü ilə nəticələnib. Təkcə 1994-cü ildə qədər ermənilər dinc azərbaycanlı əhaliyə qarşı 373 terror aktı törədiblər.

Bu gün dünya ərazi iddialarında ifadə olunan təcavüzkar erməni separatizmi, soyqırım, terror, deportasiya yolu ilə həyata keçirilən yad torpaqların zəbt edilməsi kimi təhlükəli hadisə ilə üz-üzədir. XIX əsrdən başlayaraq erməni şovinist millətçiləri Azərbaycan xalqına qarşı vaxtaşırı etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirmişlər. Çoxsaylı tarixi sənədlərin sübut etdiyi kimi, 1905–1907, 1918–1920, 1948–1953-cü illərdə yüz minlərlə azərbaycanlı etnik təmizləməyə, kütləvi qırğına və soyqırımına məruz qalıb. Bu proses Rusiya imperiyası tərəfindən başlanıb və ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsi ilə müşayiət olunub.

Ermənilərin tərəfdarı M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə 1987-ci ilin noyabrında Parisdə keçirilən növbəti Erməni Milli Konqresində DQMV-nin Ermənistana "birləşdirilməsi" üçün "erməni xalqının qanuni tələblərinin" ödənilməsi üçün SSRİ-də başlanmış demokratik islahatlardan istifadə edilməsi barədə qərar qəbul edildi. Eyni zamanda, Fransada yaşayan Erməni lobbisinin təşəbbüsü ilə Qarbaçovun həyat yoldaşı Raisa Qarbaçovanın dəstəyi ilə Ermənilərin Qarabağdakı işğalçılıq hərəkatlarına da sürət verildi. Bununla da 1988-ci ilin fevralında Qarabağın Ermənistana birləşdirilməsi üçün ermənilərin ilk mitinqləri başladı və bu, İrəvan və Kremlin siyasi ssenarisinin ilk aktı oldu. Daşnaklarla əlbir olaraq bu missiyanı həyata keçirmək üçün fəaliyyət proqramı hazırlandı.

Qarbaçov təyin olunan kimi "Krunk" daşnak təşkilatı fəaliyyətini leqallaşdırdı. Partiya və sovet orqanları, həmkarlar ittifaqı təşkilatları "Krunk"un bölmələrinə və konkret icraçılarına çevrildilər. Bu arada İrəvanda milli məsələlərə həsr olunmuş silsilə konfranslar keçirilirdi, onlara muxtar vilayətdən daşnak inancları ilə tanınan şəxslər dəvət olunurdu. Gələcək mitinqlər, nümayişlər, tətillər, azərbaycanlı əhalinin qovulması, hətta məhv edilməsi əvvəlcədən planlaşdırılmışdı. Ermənilərin 1988-ci ildən Dağlıq Qarabağı ələ keçirmək uğrunda başladığı mübarizə kənd və şəhərlərin dağıdılmasına, on minlərlə günahsız insanın qətlə yetirilməsinə, yüz minlərlə azərbaycanlının öz tarixi-etnik ərazilərindən qovulmasına səbəb oldu.

1988-1989-cu illərdə Ermənistanda öz tarixi-etnik torpaqlarında yaşayan 250 mindən çox azərbaycanlı sonuncu nəfərə qədər deportasiya edildi. Bu, Qarabağ münaqişəsinə təkan verdi. Sovet dövründə azərbaycanlıların öz tarixi torpaqlarından didərgin salınması siyasəti davam etdirilsə də, kommunist rejimi millətlərarası münasibətlər sahəsini öz nəzarətində saxlaya bildi. Qarbaçovun yenidənqurması milli prosesləri aktivləşdirdi. Bu dövr, məlum olduğu kimi, milli məsələnin kəskinləşməsi ilə xarakterizə olunurdu.

Xocalı soyqırımı Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı öz doğma torpağının müdafiəsinə qalxan xalqımızın əzmini darmadağın etmək, onların döyüş ruhunu sarsıtmaq, Qarabağın azərbaycanlı əhalisinin bir hissəsini məhv etmək məqsədi ilə həyata keçirilən silsilə qətllərdən biridir. Bunu Xocalı faciəsindən təxminən ay yarım sonra, aprelin 8-də Kəlbəcər rayonunun Ağdaban kəndinin işğalı zamanı əvvəlcədən planlaşdırılan qırğın aktı nəticəsində uşaq, qadın və qocalar da daxil olmaqla 67 dinc sakinin xüsusi amansızlıqla qətlə yetirilməsi, kəndin tamamilə yandırılması, onlarca insanın girov götürülməsi faktı da bunu təsdiq edir.

Bunun davamı olaraq 1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya kəndində daha bir amansız cinayət - insanların kütləvi şəkildə qətlə yetirilməsi törədildi. Nəticədə Azərbaycan vətəndaşı olan 24 mülki şəxs amansızlıqla qətlə yetirildi, o cümlədən 6 azyaşlı uşaq, o cümlədən altıaylıq körpə, azyaşlı 3 uşaq hər iki valideynini itirdi. Öldürülən mülki şəxslərin bəzilərinin cəsədləri yandırıldı. Ballıqayada hətta 93 yaşlı qadına da aman verilmədi. Ümumiyyətlə, burada öldürülənlərin əksəriyyəti uşaq, qadın və qocalar idi.

### Xocalı soyqırımı niyə törədildi?

Bir çox tədqiqatçıların fikrincə, bu şəhərin taleyi Qarabağ münaqişəsinin başlanğıcında əvvəlcədən müəyyən edilib. Xocalı Qarabağın Şuşadan sonra, demək olar ki, tamamilə azərbaycanlıların yaşadığı ikinci yaşayış məntəqəsi idi. Üstəlik, Qarabağın paytaxtı Xankəndi (Stepanakert)lə Azərbaycanın Ağdam şəhərini birləşdirən yol Xocalıdan keçirdi və Qarabağda mülki aviasiya üçün yeganə hava limanı burada yerləşirdi. Lakin əsas rolu Xocalının Ermənistandan, eləcə də münaqişə zonasında yerləşən ətraf şəhər və kəndlərdən azərbaycanlı qaçqınların axın etdiyi yerə çevrilməsi oynadı. Beləliklə, Xocalı erməni ekstremistləri tərəfindən qəsdən seçilib. Şəhərin yalnız azərbaycanlıların məskunlaşması faktı soyqırımın törədildiyini sübut etmək üçün kifayətdir, çünki erməni silahlıları dinc əhalini milli mənsubiyyətinə görə qətlə yetirmişlər ki, bu da soyqırımın törədilməsinin əsas sübutdur.

Erməni tərəfi 366-cı motoatıcı alayın döyüş maşınlarının ekipajları ilə birlikdə şəhərə hücumda iştirak etdiyini gizlətməyib. Əslində, onlar etnik təmizləmə prosesində muzdlu kimi çıxış ediblər. 1991-ci ilin sonlarında Sovet İttifaqı dağıldıqdan sonra Qarabağ münaqişəsinin döyüş bölgəsində yerləşən bir çox hərbi hissələr müqabilində erməni quldur birləşmələrinin tərəfində silah satmaqla və hərbi əməliyyatlarda iştirak etməklə pul qazanıblar. Zaqafqaziya Hərbi Dairəsinin komandanlığı baş verən vəhşiliklərdən xəbərdar olsa da, öz hərbçilərinin erməni silahlıları ilə əməkdaşlığını açıq şəkildə təşdiq edirdi.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Xocalıya hücumda keçmiş sovet qoşunlarına məxsus 366-cı motoatıcı alayın hərbçiləri iştirak ediblər. Xocalının tutulması üçün aparılan hərbi əməliyyat zamanı bu şəhərin dinc əhalisinə qarşı kütləvi zorakılıqlar baş verdi. Azad dəhliz zonasında və ona bitişik ərazidə yerləşən mülki əhalinin kütləvi şəkildə qətlə yetirilməsi heç bir hərbi fövqəladə vəziyyətlə əsaslandırıla bilməz.

Xocalı faciəsini araşdıran istintaq qrupunun materiallarında hücum zamanı qadağan olunmuş 5,45 kalibrli güllələrdən və kimyəvi silahdan istifadə edildiyi göstərilir. İnsanlara xüsusi amansızlıqla işgəncə verilirdi: başlarını soyur, başlarını və digər bədən hissələrini kəsir, uşaqların gözlərini çıxardır, hamilə qadınların qarınlarını yarır və diri-diri yandırırdılar. Bu faktlar Ermənistanın Cenevrə Konvensiyasının protokollarına məhəl qoymadan Xocalının dinc əhalisinə qarşı soyqırımı törətdiyinin birbaşa təsdiqidir.

### Beynəlxalq hüquq pozulur, dünya susur

Sual yaranır: nə üçün Xocalı soyqırımı eləcə də bütövlükdə Qarabağ məsələsi dünya birliyi tərəfindən beynəlxalq hüququn norma və prinsipləri əsasında hələ də öz həllini tapmayıb? Axı Xocalıda törədilmiş dəhşətli cinayətin xarakteri və miqyası göstərir ki, onun törədilməsi zamanı bu konvensiyada öz əksini tapmış soyqırımı cinayətini təşkil edən bütün hərəkətlər baş verib. Planlaşdırılan kütləvi və amansız qırğın aktının məhz azərbaycanlı olduqları üçün bu ərazidə yaşayan insanları tamamilə məhv etmək məqsədi ilə həyata keçirildiyi artıq heç kəsdə şübhə doğurmur.

Üstəlik, Ermənistanın müharibə zamanı davranış normalarını müəyyən edən beynəlxalq hüquq normalarına məhəl qoymaması ilə bağlı faktlar bununla məhdudlaşmır. Beynəlxalq humanitar hüququn tələblərinə görə, müharibə yalnız silahlı münaqişə tərəflərinin silahlı qüvvələri arasında aparılmalıdır. "Müharibə dövründə mülki şəxslərin müdafiəsi ilə bağlı" IV Cenevrə Konvensiyasının 3-cü maddəsi mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsdləri, o cümlədən müxtəlif vasitələrlə qətl və xəsarət yetirilməsi, əhaliyə amansız rəftar edilməsi, iztirab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd edilməsini qadağan edir. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin tətbiqi, onların qorxudulması, onlara qarşı terror aktları və repressiyalar açıq şəkildə qadağandır. Konvensiyanın 34-cü maddəsinə əsasən mülki şəxslərin girov götürülməsinə də aiddir. Lakin təkcə Xocalıda ermənilər mindən çox insanı girov götürərək, bu hüquq normalarına məhəl qoymayıblar. Beləliklə, Ermənistanın bütün hərəkətlərinin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada nəzərdə tutulmuş soyqırımı cinayətinin törədilməsi şərtlərinə düşdüyü tamamilə aydındır.

Bu faciə ilə bağlı müstəqil araşdırma aparan "Memorial" İnsan Hüquqları Mərkəzi bəyan edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıya basqın zamanı Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin aşağıdakı maddələri də pozulmuşdur:

– 2-ci maddədə hər kəsin bu Bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olması göstərilir;

– hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququnu tanıyan 3-cü maddə;

– qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarı qadağan edən 5-ci maddə;

- əsassız həbsi, həbsi və ya sürgünü qadağan edən 9-cu maddə; – 17-ci maddə, hər kəsin mülkiyyət hüququnu elan edir və şəxsi əmlakından özbaşına məhrum etməyi qadağan edir.

Üstəlik, silahlı birləşmələrin hərəkətləri Fövqəladə hallar və silahlı münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi haqqında Bəyannamə ilə kobud şəkildə ziddiyyət təşkil edir.

Beləliklə, Xocalı faciəsində iştirak etmiş ermənilərin və onların əlaltılarının əməlləri insan hüquqlarının kobud şəkildə pozulması və beynəlxalq hüquqi aktlara kin-küdurətlə etinasızlıqdır:

– Cenevrə Konvensiyası, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi;

– Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt;

– İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt;

– Uşaq Hüquqları Bəyannaməsi;

– Fövqəladə hallar və silahlı münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi haqqında Bəyannamə və digər beynəlxalq hüquq aktları.

### Cinayətə ilk siyasi qiymət

Ümummilli lider Heydər Əliyev o vaxtkı ölkə rəhbərliyinin Xocalını taleyinə mövqelərinə kəskin etirazını bildirərək demişdir: "... Azərbaycanın və xalqımızın milli müstəqilliyi ilə bağlı xəyanətkar mövqeyi, öz konstitusiya borcuna cinayətkarcasına biganəliyi, siyasi hakimiyyət uğrunda aramsız oyunlar, respublikamızda bilavasitə hakimiyyətdə olan anarxiya və xaos hökm ilə bu tarixi faciənin törədilməsinə, Xocalını xilas etmək üçün real imkanların olmasına baxmayaraq, uzun müddət düşmən mühasirəsində taleyinə buraxılmış, günahsız əhali qəsdən qırğına buraxılmış vətəndaşlarımızın kömək çağırışlarına biganəlik göstərilib. Erməni faşizminin əsl simasını bir daha ortaya qoyan və göstərən Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquq normalarına uyğun olaraq sivil dünya tərəfindən pislənilməlidir".

Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı ilə erməni separatçılarının Azərbaycan xalqına qarşı cinayətkar əməllərinə dövlət səviyyəsində ilk dəfə siyasi qiymət verdi. Onun 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı azərbaycanlıların deportasiyasının hərtərəfli öyrənilməsi və bu cinayətə siyasi-hüquqi qiymətin verilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımı ilə bağlı demişdir: "Azərbaycan hökumətinin və xalqının qarşısında Xocalı soyqırımı, ümumiyyətlə, (Dağlıq) Qarabağda ermənilərin törətdikləri vəhşiliklər haqqında həqiqətləri bütün miqyasda bu soyqırımın və dəhşətli aktların yenidən həyata keçirilməsinə nail olmaq üçün dövlətlərə, dünya parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin xatirəsi qarşısında bizim vətəndaşlıq və insani borcumuzdur. Digər tərəfdən, faciəyə əsl beynəlxalq siyasi-hüquqi qiymət verilməsi, onun ideoloqlarının, təşkilatçılarının və günahkarlarının layiqli cəzalandırılması bütövlükdə bəşəriyyətə qarşı yönəlmiş bu cür qəddar əməllərin gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".

Bu gün azərbaycanlıların soyqırımının beynəlxalq hüquqi tanınmasına nail olmaq və bu hadisələrə siyasi-hüquqi qiymət verilməsini öz vəzifəsi hesab edən Azərbaycan alimləri və politoloqları tərəfindən də birgə iş aparılır.

Bu baxımdan qeyd etmək yerinə düşər ki, bir çox jurnalistlər, ekspertlər, siyasətçilər regiondakı vəziyyəti təhlil edərkən, adətən, nəinki Xocalı faciəsinin, ümumiyyətlə, Ermənistan–Azərbaycan qarşıdurmasının geosiyasi aspektini tam nəzərə almırlar. Fevral qırğınından sonra bu müstəvini Rusiyanın tanınmış hüquq müdafiəçisi və sülhməramlısı, "Etnoharmonizasiya Missiyaları Təşkilatı" (OMEGA) insan hüquqları xeyriyyə cəmiyyətinin təsisçisi Viktor Popkov müəyyən qədər işıqlandırdı. Qızıl Xaç Cəmiyyəti İttifaqının nümayəndəsi kimi (Dağlıq) Qarabağa səfər edən V.Popkov bu qənaətə gəlib: "366-cı alayın dəstəyi ilə həyata keçirilən əməliyyatın təkcə hərbi əhəmiyyəti yox, həm də siyasi əhəmiyyəti var idi. Mülki vətəndaşlarla məşğul olmaq məqsədi daşıyan əməliyyatın cəza hissəsi iki problemi həll edib. Birincisi, onlar Azərbaycan tərəfinin ermənilərin genişmiqyaslı təcavüzünə bəraət qazandıra biləcək hərəkətlərinə təhrik etdilər, ikincisi, nəhayət, Xocalıda baş verənlərdən sonra cinayətin təşkilatçılarının fikrincə, istənilən şəraitdə Azərbaycanın tərkibində qalmaq imkanından, nəhayət, kəsilən (Dağlıq) Qarabağ xalqını öz siyasətlərinin girovuna çevirməyə cəhd etdilər".

*(ardı 7-ci səhifədə)*

# Xocalı: Xalqımızın qan yaddaşı



**Bəşəriyyət tarixinə nəzər saldıqda onun savaşsız, fəlakətsiz, iztirabsız günlərinin sayının heyrətamiz dərəcədə az olduğu görünür. BMT-nin statistikasına görə, yalnız XX əsrdə baş vermiş müharibələrdə 100 milyondan artıq insan həlak olub. Elə yaşadığımız XXI əsrin də bircə günü belə dünya üçün savaşsız ötüşməyib. Bu müharibələrin içində öz qəddarlığı və insanlığa sığmayan əməlləri ilə fərqlənən elə cinayət aktları var ki, onlara heç zaman və heç bir vasitə ilə haqq qazandırmaq mümkün deyil. 1992-ci ilin 26 fevralında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalı şəhərində törədilmiş kütləvi qətliam da məhz həmin cinayət aktlarından biridir. Xocalı soyqırımı tariximizə Qarabağ müharibəsinin ən qanlı səhifələrindən biri kimi yazılıb.**

Sovet dövrünün son 10 illiyində, ölkədə baş verən qarışıqlıqdan istifadə edən ermənilər çökməkdə olan imperiya mərkəzinin köməyi ilə yenidən Ermənistanda etnik təmizləmə siyasəti aparmaqla özlərinin "böyük ermənistan" xülyasını gerçəkləşdirmək fikrinə düşmüşdülər. 1988-ci ildə hələ də Ermənistan ərazisində yaşayan 300 mindən çox Azərbaycanlı silah gücünə Ermənistandan qovuldu. Ermənistan ərazisində Azərbaycanlıların yaşadıqları bütün əraziləri etnik təmizləməyə məruz qoyduqdan sonra daha da həvəslənən ermənilər Azərbaycanın keçmiş Dağlıq Qarabağ vilayətinin Ermənistana birləşdirilməsini tələb etməyə başladılar.

1991-ci ilin 18 oktyabrında Azərbaycan Müstəqillik Aktını qəbul etməklə 70 illik sovet əsarətinə son qoydu. Azərbaycan ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdi və dərhal dünyanın mütərəqqi ölkələri ilə tarixi siyasi-iqtisadi əlaqələrini bərpa etməyə başladı. Baş verənlər əslində imperiya mərkəzi üçün bütün Qafqazın itirilməsi demək idi. Buna yol verməməkdə israrlı olan imperiya mərkəzi Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinə dəstək vermək yolunu tutdu.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə birləşmiş rus-erməni silahlı qüvvələri Xocalıya hücum edərək Xocalı soyqırımını törətdi. Soyuq fevral gecəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 1275 nəfər əsir götürüldü, 150 nəfər isə itkin düşdü. Öldürülən uşaqların, qocaların, qadınların cəsədləri tanınmaz hala salınmışdı. Xocalının mühasirəyə alınaraq mülki əhalinin şəhəri tərk etməsinə imkan verilməməsi ermənilərin soyqırımı törətdiyini göstərirdi. Bu soyqırımı aktı təkcə Azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə, beynəlxalq sülhə qarşı törədilmiş ən ağır cinayət idi. Xocalı faciəsi yalnız Azərbaycanı yox, dünyanın digər ölkələrində də bu faciədən xəbər tutan bütün insanları sarsıtmışdı.

Əslində, Xocalı qətliamı ondan iki il əvvəl Sovet imperiyası tərəfindən Bakıda törədilmiş Qanlı 20 Yanvar faciəsinin davamı idi. Qafqazın itirilməsini heç cür qəbul edə bilməyən rus imperiyası Qarabağın işğalına göstərdiyi həm mənəvi, həm də hərbi –siyasi dəstəklə yenicə müstəqilliyini bərpa etmiş Azərbaycana öz gücünü nümayiş etdirirdi. 1994-cü ildə yaradılmış ATƏT-in Minsk Qrupu bu münaqişəni sülh yolu ilə həll etmək missiyasını öz üzərinə götürdü. O illərdə Azərbaycan ədalətin bərpa olunması, ölkənin 20 faizə yaxın işğal olunmuş ərazilərinin azad edilməsi və bir milyondan çox qaçqın və məcburi köçkünlərin öz yurdlarına qaytarılması üçün dünya xalqlarının və dövlətlərinin, eləcə də beynəlxalq qurumların – BMT-nin, Avropa Birliyinin, ATƏT-in Minsk qrupunun ədalətli münasibətinə ümid bəsləyirdi. Lakin dünyanın ən böyük güc mərkəzləri hesab olunan ABŞ, Fransa və Rusiyanın həmsədrlik etdiyi Minsk Qrupu 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarının erməni işğalından azad olunması üçün heç bir əməli addım atmadı. Bu onu göstərir ki, müasir dünya siyasətində qlobal güclərin və onlara xidmət edən ayrı-ayrı dairələrin maraqları beynəlxalq ədalət və hüquq normalarından üstün tutulur.

Bu həqiqəti dərk edən Azərbaycan xalqı nəyin bahasına olursa olsun Xocalı qatillərini cəzalandırmaq və işğala son qoymaq məqsədilə Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşdi. Beynəlxalq təşkilatların, Ermənistanın işğalçılıq siyasətini gizli şəkildə dəstəkləyən bir sıra dövlətlərin təzyiqlərinə və təhdidlərinə baxmayaraq Dəmir yumruq Qarabağımızda kök salmış şər yuvasının başına endirildi. 2020-ci ilin 44 günlük Vətən müharibəsi erməni işğalına birdəfəlik son qoydu. 2020-ci ilin Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xocalı qurbanlarının qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu gün Qarabağın və Şərqi Zəngəzurun bütün ərazisində Azərbaycan bayrağı qürurla dalğalanmaqdadır.

Bu gün Xocalı soyqırımının ildönümüdür. Xalqımız bu tarixin kədərini yaşamaqla bərabər həm də alınmış qisasın qürurunu yaşayır. Amma Xocalıda vəhşiliklə qətlə yetirilmiş soydaşlarımızın qisası alınmış olsa da, tariximizin bu faciəli səhifəsini bir an belə unutmaq olmaz.

Məhz buna görə hələ 1994-cü il fevralın 24-də Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edilmişdi. Prezident Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsi hər il fevral ayının 26-sı saat 17:00-da bütün ölkə ərazisində keçirilən sükut dəqiqəsi ilə yad edilir. Hər il Xocalı soyqırımının ildönümü ilə əlaqədar minlərlə insanın iştirakı ilə "Ana harayı" abidəsi önündə anım mərasimi keçirilir. Xocalı faciəsinin qurbanlarını yad edərkən Prezident İlham Əliyev bu hadisəni belə səciyyələndirmişdi: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir".

Buna görə də erməni işğalı və Xocalı faciəsi ilə bağlı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması bu gün də davam etdirilir. Bu faciənin geniş miqyasda tanıdılması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən dünyanın yüzdən artıq ölkəsində "Xocalıya ədalət" beynəlxalq kampaniyası həyata keçirilir. Kampaniya çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsinə həsr olunmuş tədbirlərin təşkil olunması, 30 il ərzində Ermənistan tərəfindən Azərbaycana qarşı yürüdülmüş işğalçılıq siyasəti haqqında əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırılır. Bu günədək 100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyib. Sosial şəbəkələrdə təşviqat, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər tədbirlər təşkil edilir. Kampaniyanın Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbini irəli sürən Müraciətini artıq bütün dünyada on minlərlə insan imzalayıb.



Xocalı faciəsinin soyqırımı və ya insanlığa qarşı cinayət kimi tanınması haqqında bir çox ölkələrdə parlament aktları qəbul olunub. Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilib. Xocalı soyqırımı ABŞ-ın 30-dan çox ştatının qanunvericilik qurumları və qubernator bəyanatları səviyyəsində tanınıb. Avropa İnsan Hüquqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən edib. Artıq torpaqlarımız işğaldan azad edilib, bütün ərazilərimiz üzərində suverenliyimiz təmin olunub. Xocalı rayonunun sakinləri artıq öz doğma torpaqlarına qayıtmağa başlayıblar. Xocalıda həyat yenidən canlanır və tezliklə hər tərəfdə qaçışan uşaqların şən qışqırıqları bu torpaqlara sevinc və fərəh gətirəcək. Lakin Xocalı faciəsi heç vaxt unudulmayacaq və yaddaşlardan silinməyəcək. Çünki bu bizim tariximizin qan yaddaşıdır.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

*Cavanşir FEYZİYEV,*
*Milli Məclisinin deputatı*

(əvvəli 6-cı səhifədə)

# XOCALI SOYQIRIMI: Tarix bizə nələri öyrətdi?

## Ümumi nəticələr

Qarabağ münaqişəsi nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib, 20 minə yaxın insan həlak olub, 50 min nəfər yaralanıb və ya əlil olub, 5 min nəfər isə itkin düşüb. İşğal zonasında yüzlərlə şəhər və kənd, minlərlə ictimai və mədəniyyət binası, təhsil və səhiyyə müəssisələri, tarix və mədəniyyət abidələri, muzeylər, məscidlər, müqəddəs ibadət yerləri, qəbiristanlıqlar yer üzündən silinib, misli görünməmiş vandalizmə məruz qalıb. Bununla da Azərbaycanın ərazisinə, ekologiyasına və əhalisinə böyük iqtisadi və mənəvi ziyan dəymişdir.

Təəssüf ki, dünya miqyasında faciəyə hələ də siyasi qiymət verilməyib, baxmayaraq ki, Azərbaycan xalqının genefondunun məhv edilməsi faktı göz qabağındadır və bir sıra ölkələr Xocalı hadisələrini soyqırımı kimi tanıyıblar. Bu faciəni "insanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəd İslam Konfransı Təşkilatının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi Xüsusi Qətnamə oldu. Dünyanın 51 ölkəsinin qəbul etdiyi qətnamədə Xocalı faciəsi "erməni silahlı qüvvələri tərəfindən mülki əhalinin törədilmiş kütləvi soyqırımı" və "insanlığa qarşı cinayət" kimi qiymətləndirilib.

Bu baxımdan Heydər Əliyev Fondunun "Xocalıya ədalət!" kampaniyası çərçivəsində təşkil etdiyi işlər ildən-ilə genişlənir. Xocalı soyqırımının dünya miqyasında tanınmasına yönəlmiş sistemli işin nəticəsi olaraq İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədləri də soyqırım komitəsinin soyqırımı aktını təsdiq edir. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, o cümlədən Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunverici orqanları Xocalı faciəsini soyqırımı kimi qiymətləndirib və onu qətiyyətlə pisləyiblər.

Bununla bağlı bir daha beynəlxalq hüquqi aktlara istinad etmək olar: Buradan belə çıxır ki, erməni separatçılarının Azərbaycan xalqına münasibətdə hərəkətləri BMT-nin məqsəd və vəzifələrinə tamamilə ziddir. Məsələn, BMT Baş Assambleyasının 11 dekabr 1946-cı il tarixli 96 saylı qətnaməsində deyilir ki, soyqırımı insan qruplarının yaşamaq hüququnu tanınmamaqla insan ləyaqətini alçaldır, bəşəriyyəti insanların yaratdığı maddi və mənəvi dəyərlərdən məhrum edir. BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya soyqırımı cinayətinin hüquqi əsaslarını müəyyən etmişdir. Beləliklə, Konvensiyaya qoşulmuş dövlətlər soyqırımın sülh və ya müharibə dövründə törədilməsindən asılı olmayaraq, beynəlxalq hüququ pozan cinayət olduğunu təsdiq edərək, soyqırımın qarşısının alınması və onu törədənlərin cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər.

Bununla belə, bir sıra ölkələrdə parlamentarilərin nə üçün aşkar soyqırıma göz yummaları, tarixi həqiqətlərə laqeyd münasibət bəsləmələri qaranlıq olaraq qalır. Axı istənilən cinayət cəzasız qaldıqda başqa cinayətlərə gətirib çıxarır. Ermənilər xristian dünyasında hər zaman hər şeyə inandıqlarından istifadə edərək, yalnız yalanları çoxaldır, təcavüzkarı qurban rolunda təqdim edir və günahı qurbanların üzərinə yıxmağa çalışırlar.

Ermənilər həyasızcasına azərbaycanlılara qarşı törədilən soyqırıma haqq qazandırır, onu törədənlər isə milli qəhrəman sayılırlar. Ermənistanda yeni Azərbaycan torpaqlarının zəbt edilməsi üçün dövlət miqyasında ideoloji əsaslar yaradılır. Erməni gənclərinin şovinizm ruhunda tərbiyə olunmasına zəmin yaratmaq üçün saxtalaşdırılmış erməni tarixi dövlət siyasəti səviyyəsinə qaldırılır. Erməni tarixçiləri



və siyasətçiləri, guya, erməni soyqırımının baş verdiyi 1915-ci il hadisələrini ildən-ilə şişirtməklə, bununla bağlı təbliğat aparmaqla, əslində, əsrin əvvəllərindən bu yana həyata keçirilən azərbaycanlıların kütləvi qırğınını dünya ictimaiyyətinin şüurunda unutdurmağa çalışırlar.

Bütün yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək istərdik ki, Azərbaycan bu məsələdən nə siyasi, nə maliyyə, nə ərazi, nə də başqa dividendlər əldə etmək məqsədi güdür. Onun da məqsədi hər bir Azərbaycan vətəndaşının amalı kimi tarixi ədaləti bərpa, cinayətkarları ifşa və dünya ictimaiyyəti qarşısında məsuliyyətə cəlb etməkdir. Milli Məclisin 24 fevral 1994-cü il tarixli qərarına əsasən fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Xocalı soyqırımı hər il genişmiqyaslı tədbirlərlə anılır. 2017-ci ildə Xocalı soyqırımının 25-ci ildönümü Bakıda daha bir ümumxalq yürüşü ilə də qeyd olundu. Yürüş zamanı "Xocalı soyqırımını dünya tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalı unutma!", "Xarolsun erməni faşizmi!", "Xocalı – 20-ci əsrin soyqırımı", "Cinayətkarlar cəzadan qaçmayacaq!" kimi çağırışlar və şüarlar səsləndirilib və s.

Xocalı soyqırımı ilə bağlı keçirilən ənənəvi ümumxalq yürüşləri Azərbaycan xalqının sıx birliyini, soyqırımı qurbanlarının xatirəsinə dərin ehtiramını, işğal olunmuş torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirir.

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Xocalı şəhərində törədilmiş soyqırımı aktında iştirak etmiş şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması istiqamətində tədbirlər davam etdirilir.

## Yeni dövrün başlanğıcı

2020-ci il noyabrın 8-də ordumuz Şuşanı azad edəndə bu Qələbə azərbaycanlıların iradəsinin simvoluna çevrildi. İki gün sonra Ermənistan təslim oldu və Azərbaycan işğala son qoydu. Laçın rayonunda Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradıldı ki, bu da bizə ərazi bütövlüyümüzü tam bərpa etməyə imkan verdi. 2023-cü il sentyabrın 20-də biz suverenliyimizi tam bərpa etdik.

Beləliklə, artıq torpağımızda boz zonalar, qanunsuz obyektlər, separatizm yoxdur. Hesab edirik ki, bu, güclü siyasi iradənin, Azərbaycan xalqının birliyinin nümayişi, eləcə də Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olması hələ də revanşist ideyalarla yaşayanlar üçün yaxşı siqnaldır.

Ümummilli lider Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək yeni reallıq üzə çıxdı. Bu reallığı düşməni işğal etdiyi 20 faiz torpaqlarımızdan qovmuş, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirən Azərbaycan Ordusu yaradıb ki, 27 il ərzində bu qətnamələr çoxları üçün – təkcə Ermənistan üçün deyil, digərləri üçün də kağız parçası olub. Azərbaycan bilir ki, beynəlxalq hüquq bizim tərəfimizdədir. Biz özümüz beynəlxalq hüquq praktikasında və regionda yeni reallıq yaratmışıq. İşğal sona çatdı.

*Arif QULİYEV,*
*Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru,*

*Qara HƏSƏNOV,*
*Melitopol Milli Pedaqoji Universitetinin aspirantı*

# Xocalıda məhşər gecəsi

## *Rus zabiti V.Savelyevin BMT-yə məxfi arayışı şahidlik edir*

**Vətənsiz və xəyanətkar erməni toplumunun türk soyuna, xüsusən, azərbaycanlılara qarşı niftət və ədavətini dünyanın xaç mərkəzləri, bölücü din qardaşları zaman-zaman qızışdırmış, himayə etmişlər.**

XIX əsrin əvvəllərində Azərbaycanın quzeyini işğal etmiş çar Rusiyasının Osmanlı və Qacarlar dövlətlərindən Qafqaza köçürdükləri ermənilər sonrakı dövrdə xalqımıza qarşı soyqırımı və deportasiyalar törətməklə öz ağalarının əlində alətə çevrilmişlər. Qərb imperializmindən də dəstək alan gəlmə ermənilər XX əsrin əvvəllərində bolşevik Rusiyasının məkrli siyasəti nəticəsində Qərbi Azərbaycanda oyuncaq erməni dövləti qurmaq şansı qazanmışlar.

Bununla kifayətlənməyən erməni millətçiləri Azərbaycanın mərkəzi vilayəti Qarabağı 2 yerə bölərək milli muxtariyyət də əldə etmişlər. Onlara daxili idarə muxtariyyəti verilməsi ilə razılaşmayan erməni sparatçıları dəfələrlə tarixi Azərbaycan torpağını Ermənistana birləşdirməyə cəhd göstərmişlər.

Qan üzərində qurulmuş, Azərbaycan torpaqlarında zorakılıqla erməni dövləti qurmuş kommunist rejimi süqut etməyə üz qoyanda Qərb imperializmi və imperiya xislətini qoruyub saxlamış SSRİ varisi olan Rusiya Azərbaycana yeni təsir imkanları əldə etmək üçün erməni millətçilərinin Qarabağ separatizminə meydan açmış, onları bütün vasitələrlə himayə etmişdir. Bu gün XX əsrin ən dəhşətli soyqırımı kimi 33-cü ildönümü tamam olan Xocalı qətliamı da məhz bu siyasətin nəticəsində baş vermişdir.

Xocalıda kütləvi insan qırğınında Xankəndidəki 366-cı sovet-rus alayının hərbi texnikasının və zabitlərinin geniş iştirakı qırğının miqyasının qat-qat dəhşətli olmasına imkan yaratmışdır. Bu o hərbi hissə idi ki, çarizm Qarabağ xanlığını ilhaq edəndən sonra burada rus ağalığını bərqərar etmək və bu feodal dövlətini işğal altında saxalamaq üçün xanın mülkü olan Xankədidə yerləşdirilmişdi. Bu qarnizonun rəisi mayor Dmitri Lisaneviç çox keçmədən – 1806-cı ilin 12 iyununda Qarabağ hökmdarı İbrahim xanı və ailəsini ermənilərin fitnəsi ilə məhv etmişdi.

Üstündən 186 il keçmiş təbiətini dəyişməyən rus imperializminin qanlı alayı 10 minlik Xocalı şəhərinin yer üzündən silinməsinin, əhalisinin kütləvi surətdə güllələbaran edilməsinin hərbi-texniki icraçısı oldu. Bütün bunları həmin vaxt hərbi hissənin kəşfiyyatı zabiti olmuş polkovnik Vladimir Savelyevin oyanmış hərbçi vicdanı ilə Birləşmiş Millətlər Təşkilatına göndərdiyi məxvi arayış təkzibolunmaz şəkildə və təfərrüatı ilə sübut edir.

Xocalı soyqırımının hazırlanması və qəddarlıqla gerçəkləşdirilməsinə şahidlik etmiş rus zabitinin toplayıb qeydə aldığı tükürpədici məlumat hər il qətliamın ildönümündə iri planda gündəmə gəlir. Həmin arayış dinc insanların ağır texnika ilə məhv edilməsinin, erməni qaniçənliyinin mənzərəsini və miqyasını canlandırmaqla yanaşı, kimin hansı cinayətin sahibi olduğunu da nişan verir.

Vladimir Savelyev sovet zamanında Dağlıq Qarabağda yerləşmiş və SSRİ-nin süqutundan sonra nəzarətsiz qalıb Ermənistanın əlinə keçmiş 366-cı alaydakı 2270 nömrəli hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olmuşdu. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına Xocalıda baş verən hərbi cinayətlər barədə "Məxfi arayış"ını təqdim etmişdir. O, son arayışlarını "Zabit Puqaçov" imzası ilə göndərmişdir. Həmin arayış və erməni mənbələrinin etirafları Xocalı soyqırımının bir sıra gizlinlərinə dünya miqyasında aydınlıq gətirmişdir.

**Polkovnik erməni terror təşkilatları ilə sovet ordusundan qalma qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə, "agentura" yolu ilə əldə etdiyi informasiyalarda bütün olub-keçənlərin şərhini verərək etiraf etmişdir:**



– Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də Müdafiə Nazirliyinə, Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun! – dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi!

Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, Prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş ali baş komandandır. Azərbaycan hərbi əks-kəşfiyyatına gəlincə belə bir qurum iflic olub. Aldığımız məlumata görə, bu qurumun əməkdaşları əsas məsələlərə girişə bilmirdilər. Prezident Xocalıda nəyin baş verməsini dərk etmirdi.

Azərbaycan Ordusunun Baş Qərargahında da hamı özünü qərargah rəisi kimi aparırdı. Dördüncü ümumordu qoşun birləşmələrində isə gərginlik genişlənirdi. Bu qoşun birləşmələrində hər şey Azərbaycan əleyhinə idi. Vəziyyət nəzarətdən çıxmışdı. Zabitlər başlarını itirmişdilər. Məlumat aldıq ki, Azərbaycanda Prezident Aparatında və güc nazirliklərində ikitirəlik var. Məqsəd və fikirlər bir-birini tamamlamırdı. Hamı siyasi məqsədləri üçün "Müharibə kartından" yapışmışdı. Bu kartı paylayanlara gəlincə, onların bir qismi Azərbaycanın ali baş komandanının, bir qismi də müxalifətin və nəyə xidmət etdiklərini anlamayan savadsız və küt generalların yanını kəsdirmişdilər".

**Kəşfiyyat zabiti tarixi arayışında daha sonra bildirmişdir:** "Əslində, millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı alay ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda alayın ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı".

**Polkovnik 1992-ci il aprel ayının 12-də Rusiya Müdafiə Nazirliyinə göndərdiyi məktubunda isə yazmışdır:** "Öldürülmüş, məhv edilmiş adamların bir qisminin şəxsiyyətlərini təyin edən sənədlərdən 46-sını nömrələyib Azərbaycanın MN-nə, Prezident Aparatına göndərdim. Mənə cavab gəldi ki, biz həmin sənədləri araşdırırıq. Onda mən Tbilisidə idim və məktubu da oradan yola salmışdım. Amma dərk edə bilmirdim ki, Azərbaycan hərbi kəşfiyyatı nəyi araşdırır".

Qarabağ münaqişəsi başlayanda 2 xalqı qarşı-qarşıya qoymuş erməni "millət qəhrəmanları" indi Xocalıda soyqırımına birbaşa rəhbərlik edirdilər. Savelyevin təbirincə desək onlar dərk etmirdilər ki, heç kəsin qanı yerdə qalmır. Edilən cinayətlər üçün, tökülən qanlar üçün cavabdehlik və məsuliyyət nə Vaşinqtonun, nə Londonun üstündə qalırdı. Bütün bu vəhşiliklərin cavabdehliyi İrəvanın üzərinə düşürdü. Bunu isə sadəcə, dərk etmək lazım idi. V.Savelyev isə bütün bunları görür və dərk edirdi.

**Polkovnik V.Savelyev daha sonra bildirmişdir:** "Xocalının işğalında, ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm. Bu necə Vətəndir? Bu necə ordudur? Bütün bunları anlaya bilmirəm. Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaltdılar, şərəfinə lənət damğasını vurdular. Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyi gündən qorxuram".

Lənətlənmiş günlər isə bir-birini əvəz edirdi. Xocalı faciəsini "işıqlandırmaq" (ermənilər buna qəhrəmanlıq deyirlər) üçün Xankəndiyə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti gəlmişdi. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: guya, "Azərbaycanlılar günahsız erməniləri qırırlar".

**Beləliklə, fevral ayının 25-dən 26-sına keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V.Savelyev "Məxfi arayış"ında bu barədə qeyd etmişdir:** "Üçüncü batalyon Xocalı işğal olunan gecə müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı alay isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. "Böyük Ermənistan" adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu, hələlik açıq qalmış bir məsələdir".

Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini təsvir edərək göstərmişdir: Xocalının işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itirdi. Nazirlər isə Baş nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar. Alayın çıxarılmasında, hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın: general-polkovnik Qromov, general-leytenant Qrekov, general-leytenant Ohanyan, polkovnik Y.Zarviqarov, polkovnik O.Kraule, deputat İ.Andronov Dördüncü Ordu 23-cü motoatıcı diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratmışdı. 23-cü motoatıcı diviziyanın komandan müavini A.Babukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş hərbi texnikanın geri qaytarılmasını tələb etmişdi. Onları isə kim idi eşidən?!".

**V.Savelyev bu məsələləri şərh edərək daha sonra qeyd etmişdir:** "1992-ci ilin fevral ayının 23-də hərbi şəhərcik "Qrad" qurğularından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov alayın daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqaviməti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdirilməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmayın) təkid edib ki, artilleriya divizionu, zenit artilleriya divizionu, tank rotası texnikası saxlanılsın. Nəticədə, ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd PDM, 3 ədəd ZSU-23-4, 8 ədəd D-30 və xeyli digər döyüş texnikası ələ keçirdilər".

**V.Savelyev bütün bunları belə təsvir etmişdir:** "Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı və şəxsi heyəti dağlar arasındakı Çapar dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü surətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyevə və şəxsi heyətə pul təklif edilərək, birlikdə vuruşmağa çağırılıblar".

Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran da elə İvan Moiseyevin batalyonu olub. Və bu batalyon da ermənilər arasında "İvanın vəhşi batalyonu" kimi tanınıb.Tədqiqat zamanı 02270 saylı hərbi hissənin əks-kəşfiyyatının materiallarından aydın olur ki, 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçmişdi. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd bronejilet, 11 ton konservləşdirilmiş yemək, 1200 cüt ayaqqabı, 146 ədəd tapança ermənilərin istifadəsinə verilmişdi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylanılmışdı.

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S.Lukaşovun əmrilə yandırılmışdır.

**Rus zabitinin Xocalıda ləkələnmiş şərəfindən dərin narahatlıq və peşmançılıq keçirmiş polkovnik V.Savelyev arayışının sonunda aşağıdakıları qeyd etmişdir:** "Ermənilər ruslara məxsus "02-19–MM" nömrəli "KamAZ"la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular. İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim.

Mən sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm. O, 19 müxtəlif rütbəli erməni və rus zabitin adını yazıya əlavə edərək bildirir ki, əsas canilərin sırasında 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər də var idi".

Vladimir Savelyevin — vicdanlı, səriştəli rus kəşfiyyatçısının "Məxfi arayışı" haqsızlıqlarla barışmayan bir zabitin acı etirafıdır. Bu arayış ermənilərin və onların havadarlarının Xocalıda planlı, düşünülmüş hərbi cinayətlər törətdiklərini dünyaya bəyan etmişdir.

***Hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

# Erməni millətçilərinin tarixi üz qaralığı

**Azərbaycan tarixinin qanlı səhifələrindən biri olan Xocalı soyqırımı tək bir xalqın deyil, bütövlükdə, insanlığın yaşadığı ən dəhşətli cinayətlərdən biridir. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının birbaşa iştirakı ilə Xocalı şəhərinə hücum etdilər. Həmin müdhiş gecədə dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutuldu.**

Bu hərbi təvavüz nəticəsində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 yaşlı insan amansızcasına qətlə yetirildi, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verildi. 8 ailə tamamilə məhv edildi, 56 nəfər xüsusi işgəncələrlə öldürüldü, 1275 nəfər əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də naməlum olaraq qalır. Xocalı şəhəri yerlə-yeksan edildi, mülki infrastruktur, tarixi və mədəni abidələr məhv edildi.

Xüsusilə qeyd edilməlidir ki, Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Erməni cəlladlarının  Xocalıda törətdikləri vəhşilik heç zaman unudulmayacaq. Çünki həmin gecə baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir addım atmamışdı. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra bu qanlı faciəyə hüquqi-siyasi qiymət verilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımını Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirərək bu faciənin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq hüquqi qiymət alması üçün mühüm addımlar atdı. Belə ki, 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verdi və 26 fevral "Xocalı soyqırımı günü" elan edildi. Ulu öndər çıxışlarında belə bir fikri dönə-dönə qeyd edirdi: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi – Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş təzahürüdür". Ümumilli lider Heydər Əliyev Xocalı soyqırımını törədənlərin gec-tez ədalət qarşısında cavab verəcəyini və bu faciənin unudulmaması üçün gənc nəslin həqiqətləri bilməsinin vacibliyini xüsusi vurğulayırdı. Bu səbəbdən ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad olunmasına xüsusi diqqət yetirilir. Məhz Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir.

Ulu öndər Heydər Əliyevin başladığı bu işlər onun siyasi kursunu layiqincə həyata keçirən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan dövləti "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində Xocalı həqiqətlərini dünya ictimaiyyətinə daha geniş çatdırmaq istiqamətində səmərəli işlər görür. Yeri gəlmişkən, 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlayan "Xocalıya ədalət" beynəlxalq kampaniyası qlobal miqyasda insan hüquqlarının müdafiəsi sahəsində aparılan ən böyük maarifləndirmə hərəkatlarından biri kimi qəbul edilir.



Kampaniya zamanı Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinin çatdırılması, bu cinayətin beynəlxalq hüquqi müstəvidə soyqırımı kimi tanınmasına nail olunması istiqamətində mühüm işlər həyata keçirilir. Bununla yanaşı, Xocalı qurbanlarının xatirəsini əbədiləşdirilməsinə xüsusi diqqət yetirilir. Bütövlükdə, bu kampaniya insan hüquqları, sülh və ədalət uğrunda mübarizəyə töhfə vermək kimi strateji məqsədləri özündə birləşdirir.

Bu günə qədər dünyanın bir çox ölkələrinin parlamentləri, beynəlxalq təşkilatlar və insan haqları qurumları Xocalı faciəsini soyqırımı və insanlığa qarşı cinayət kimi tanımışdır. "Xocalıya ədalət" kampaniyası dünya ictimaiyyətinə göstərir ki, bu faciə sadəcə bir xalqın deyil, bəşəriyyətin faciəsidir və belə cinayətlərə heç vaxt göz yumulmamalıdır. Xocalı qurbanlarının ruhuna ədalət tələb etmək təkcə azərbaycanlıların yox, bütün vicdanlı insanların borcudur. Məhz bunun nəticəsidir ki, indiyədək Pakistan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, İordaniya, Peru, Honduras, Panama, Sudan, Paraqvay, Şotlandiya və digər ölkələrin parlamentləri Xocalı soyqırımını rəsmən tanımış, ABŞ-ın 20-dən çox ştatında bu faciə ilə bağlı müvafiq qətnamələr qəbul olunmuşdur.

Tarixdə insanlığa qarşı törədilmiş ən dəhşətli cinayətlər sırasında Xocalı soyqırımı öz qəddarlığı və miqyası ilə Holokost, Xatın və Srebrenitsa kimi faciələrlə bir sırada dayanır. Bu qətliamlar yalnız müəyyən bir xalqın deyil, bəşəriyyətin qan yaddaşına yazılmış ağrılı səhifələrdir.

Lakin tarixi ədalət gec-tez bərpa olunur. Xocalının azad edilməsi və Qarabağda suverenliyimizin tam təmin olunması bunu bir daha sübut etdi. Uzun illər boyu xalqımız Xocalı soyqırımının ağrısını yaşasa da, heç vaxt ədalətin bərpasına olan ümidini itirmədi. Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı.

2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı. 44 günlük müharibədə misilsiz igidlik göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Bu, yalnız bir şəhərin azad olunması deyil, tarixi ədalətin və milli qürurun bərpası idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Tarixi ədalət yalnız keçmişi xatırlamaq deyil, həm də gələcəyi qurmaqdır. Bu gün Xocalı azaddır və bu, Azərbaycanın gücünün, qətiyyətinin və ədalət uğrunda apardığı mübarizənin təntənəsidir. Xocalının azad olunması ilə şəhərdə genişmiqyaslı yenidənqurma işlərinə start verildi. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı şəhərində infrastruktur bərpa edilir, yeni yaşayış kompleksləri, məktəblər, sosial obyektlər tikilir. 2024-cü il fevralın 26-da Prezident İlham Əliyev Xocalı Soyqırımı Memorialının təməlini qoydu və rayon ictimaiyyəti ilə görüşdü. Bundan sonra, mayın 28-də, dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Xocalıda yenidən qurulmuş yaşayış binaları ilə tanış oldu və ilk sakinlərin doğma torpaqlarına qayıdışına şahidlik etdilər.

Eyni zamanda, şəhərdə yol infrastrukturu, enerji və su təchizatı sistemi bərpa edilir, Xocalının tarixi və mədəni irsi qorunaraq müasir şəhər konsepsiyasına uyğun inkişaf etdirilir. Bütün bunlar Xocalını tərk etməyə məcbur olmuş sakinlərin layiqli həyat şəraitinə qovuşması və şəhərin yenidən çiçəklənməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdir. Azərbaycanın quruculuq siyasəti Xocalının təkcə tarixdə faciə yeri kimi deyil, həm də dirçəlişin və qələbənin simvolu kimi tanınmasını təmin edəcək.

Xocalı faciəsini unutmaq mümkün deyil və unutmamalıyıq! Bu faciəni törədənlərin hamısı istisnasız olaraq gec-tez beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verməlidirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması və ona hüquqi qiymət verilməsi hər birimizin vətəndaşlıq borcudur. Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin hüzn və ehtiramla anır, Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik.

***Azər ALLAHVERƏNOV,***
***Milli Məclisin deputatı***

# Suverenliyin bərpası və yeni siyasi münasibətlər mövzusunda dəyirmi masa



**Siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də siyasi dialoq mühitinin təşviq olunması məqsədilə Prezident Administrasiyası tərəfindən fevralın 25-də "Hilton Baku" hotelində dəyirmi masa təşkil olunub.**

Dəyirmi masada Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Ədliyyə və Maliyyə nazirliklərinin, Hesablama Palatasının, 24 siyasi partiyanın nümayəndələri, həmçinin tanınmış alimlər, politoloqlar, siyasi şərhçilər, internet televiziya kanalları və onlayn media subyektlərinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ötən dövr ərzində mövcud istiqamətdə görülmüş işlər haqqında danışaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühitinin təşviq olunduğunu bildirib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, qızıl hərflərlə yazılmış bu unudulmaz tarix dövlətimizə ərazi bütövlüyü və suverenlik bəxş etməklə Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub.

Yeni siyasi konfiqurasiya haqqında söhbət açan Ə.Vəliyev dövlət idarəetməsinin davamlı inkişafı naminə cəmiyyətdə mövcud potensialın səfərbər olunmasında siyasi partiyaların rolunu vurğulayaraq, sağlam əməkdaşlıq mühitinin sabitliyi və tərəqqini təmin edən əsas amillər olduğunu ifadə edib. Administrasiya rəsmisi 2022-ci ilin dekabrında qəbul edilmiş "Siyasi partiyalar haqqında" Qanunun əhəmiyyətindən danışarkən bildirib ki, yeni Qanun ölkənin partiya sisteminin keyfiyyətcə daha böyük inkişafına zəmin yaratmaqla, bütün siyasi partiyaların ilkin imkanlarını tarazlaşdırıb və partiyaların yeni siyasi konfiqurasiyanın formalaşması prosesində aparıcı instituta çevrilməsinə xidmət edib.

2024–2025-ci illərdə keçirilən Prezident, parlament və bələdiyyə seçkilərində siyasi partiyaların fəal iştirakı haqqında danışan Ə.Vəliyev partiyaların mütləq əksəriyyətinin seçkilərdə iştirakını demokratik münasibətlərin təzahürü kimi dəyərləndirib və bu iştirakçılığın partiyaların siyasi institut kimi daha da təkmilləşməsinə və inkişafına müsbət təsirlərini qeyd edib.

Tədbirdə çıxış edən dövlət orqanlarının nümayəndələri – Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Mərkəzi Seçki Komissiyası sədrinin birinci müavini Rövzət Qasımov, ədliyyə nazirini müavini Abiddin Hüseynov, maliyyə nazirinin müavini Azər Bayramov, Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov siyasi partiyaların fəaliyyətinin tənzimlənməsinin müxtəlif aspektlərinə toxunaraq, dövlətin mövcud istiqamətdə gördüyü işlər barəsində ətraflı məlumatlar veriblər. Tədbirdə siyasi partiya üzvlərinin reyestrinin aparılması, bu sahədə qanunvericilikdə edilmiş son dəyişikliklər, siyasi partiyaların seçkilərdə fəal iştirakı, partiyalara dövlət büdcəsindən ayrılan maliyyə yardımları, bu yardımların xərclənməsi, hesabatlılıq, partiya sədrlərinin mediadakı fəaliyyəti, onların siyasi dialoqun dərinləşməsi prosesində rolu və digər bu kimi məsələlər geniş müzakirə olunub.

Daha sonra siyasi partiya (Yeni Azərbaycan Partiyası sədrinin müavini–Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev, Haqq Ədalət Partiyasının sədri Əli İnsanov, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Ağ Partiyasının sədri Tural Abbaslı, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, REAL Partiyası Siyasi Komitəsinin sədri Natiq Cəfərli, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev), elm (AMEA-nın Fəlsəfə və Sosiologiya institutunun direktoru İlham Məmmədzadə) və media ("Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu) nümayəndələri çıxış edərək müzakirə olunan məsələlərə öz münasibətlərini ifadə edib, cəmiyyəti narahat edən məsələlərin daha səmərəli həllinin tapılmasında siyasi partiyaların rolunu vurğulayıblar.

Tədbir iştirakçıları birmənalı olaraq bəyan ediblər ki, milli maraqlar və milli birliyin qorunması naminə ölkənin bütün vətənpərvər və intellektual qüvvələrinin səfərbər olması zəruridir. Tədbirdə çıxış edən siyasi partiyaların sədrləri və təmsilçiləri ümummilli məsələlərdə hər zaman açıq əməkdaşlığa hazır olduqlarını bildirərək cəmiyyətin parçalanmasına yönəlmiş istənilən təxribatı sərt şəkildə qınayıblar.

Tədbir dövlət orqanlarının təmsilçiləri tərəfindən siyasi partiya nümayəndələrinin çoxsaylı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

İştirakçılar bu qəbildən olan tədbirlərin mütəmadi təşkilinin və hər bir siyasi təsisatın belə təşəbbüslərdə fəal iştirak etməsinin faydalı olacağını dilə gətiriblər.

Tədbirdə aşağıda adları qeyd edilən siyasi partiyalar iştirak edib:

***Yeni Azərbaycan Partiyası***
***Vətəndaş Həmrəyliyi Partiyası***
***Böyük Quruluş Partiyası***
***Ana Vətən Partiyası***
***Ədalət, Hüquq,***
***Demokratiya Partiyası***
***Demokratik İslahatlar Partiyası***
***Azərbaycan Demokratik***
***Maarifçilik Partiyası***
***Milli Cəbhə Partiyası***
***Azərbaycan Milli İstiqlal Partiyası***
***Böyük Azərbaycan Partiyası***
***REAL Partiyası***
***Haqq Ədalət Partiyası***
***Azərbaycan Ümid Partiyası***
***Azərbaycan Demokrat Partiyası***
***Azərbaycan Xalq Partiyası***
***Vəhdət Partiyası***
***Ədalət Partiyası***
***Klassik Xalq Cəbhəsi Partiyası***
***Milli Dirçəliş Hərəkatı Partiyası***
***Ağ Partiyası***
***Azad Vətən Partiyası***
***Müasir Müsavat Partiyası***
***Gələcək Azərbaycan Partiyası***
***Yeni Zaman Partiyası***

***XQ***

# Azərbaycanın dini liderlərinin "Xocalıya ədalət!" çağırışı

**Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri ölkə tarixinin ən dəhşətli səhifələrindən biri, XX əsrin qanlı faciələrindən olan Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı müraciət yayıblar.**

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının başçısı Yepiskop Aleksiyin, Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayevin, Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobilinin, Avropa Yəhudiləri İcmasının rəhbəri" Aleksandr Şarovskinin imzaladıqları sənəddə bildirilir ki, Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı dinc mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərbi cinayətlərin ən dəhşətlisidir.

Soyqırımının miqyas və dəhşətlərini xatırladan din xadimləri bildirirlər ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində törədilmiş misilsiz soyqırımı zamanı 613 dinc sakin şəhid olmuş, 487 nəfər ağaır yaralanmış, 150 nəfər itkin düşmüş, 1275 nəfər işgəngəli girovluq taleyi yaşamışdır: "Azğınlaşmış ekstremistlər insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, insanları diri-diri torpağa basdırmış və ya yandırmış, meyitlərin üzərində vəhşi həqarətlər etmiş, bir qismini minalamışlar. Şaxtalı hava şəraitində əl-ayağı yalın qaçıb xilas olmaq istəyən mülki əhaliyə belə aman verilməmiş, onlar təqib edilərək yollarda, meşələrdə erməni hərbi birləşmələri tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişlər".

Dini liderlər qeyd edirlər ki, Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi əsassız ərazi iddiaları və təcavüzkar siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın işğal altında saxlanılmış, xalqımıza qarşı etnik təmizləmə siyasəti, fiziki və mənəvi terror həyata keçirilmiş, bir milyondan artıq insan Ermənistandakı və Azərbaycanın Qarabağ bölgəsindəki öz ata-baba torpaqlarından qovularaq qaçqın və məcburi köçkün məşəqqəti yaşamışdır.

Müraciətin davamında dünya ictimaiyyətinin diqqətinə çatdırılır ki, Ermənistan işğalçılıq, etnik təmizləmə və soyqırımı siyasəti ilə yanaşı, həm də 30 illik işğal zamanı Azərbaycanın dini-mədəni və tarixi irsinə qarşı hərbi cinayətlər və vandalizm aktları həyata keçirmişdir. Bölgədə 67 məsciddən 65-i tamamilə dağıdılmış, məscidlər tövləyə çevrilmişdir. İşğalçılar Azərbaycan torpaqlarını tərk edərkən "yandırılmış torpaq" siyasəti tətbiq etmiş, minlərlə mina yerləşdirmişlər.

Dini qurum rəhbərlərinin müraciəti humanist çağırışla bitir: " Biz beynəlxalq və dini təşkilatları Azərbaycanda mövcud olan nümunəvi tolerantlıq və multikulturalizm mühiti ilə yerində tanış olmaq, işğaldan azad olunmuş ərazilərdə real vəziyyətlə, o cümlədən mədəni və dini abidələrimizə qarşı erməni vandalizminin nəticələrini öz gözləri ilə görərək bu qeyri-insani əməllərə obyektiv qiymət verməyə dəvət edirik. Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq. Xocalı bərpa olunur, lakin Xocalıya tarixi ədalət də bərpa olunmalıdır".

***XQ***

# Şəhidin xatirəsi əbədiləşdirildi



**Binəqədi rayonunun Sulutəpə qəsəbəsində düşmənə əsir düşməmək üçün özlərini partladan Azərbaycan Ordusunun 8 kəşfiyyatçısından biri, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş şəhid Dinar Mustafayevin adına salınmış küçənin və barelyefin açılışı olub. Mərasimdə dövlət rəsmiləri, şəhidlərin ailə üzvləri, qohumları, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Əvvəlcə Şəhidlər xiyabanında Dinarın məzarı ziyarət olundu. Azərbaycan Dövlət Himni səsləndirildi və ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova şəhid Dinar Mustafayev barəsində geniş danışaraq, onunla bərabər 1997-ci ildə əsir düşməmək üçün özlərini partladan 8 kəşfiyyatçının döyüş yoluna nəzər saldı: "Azərbaycanın iki kəşfiyyat qrupu xüsusi tapşırıqla Xocavənd rayonu ərazisinə göndərilir.




Əməliyyatın məqsədi Ermənistan ordusunun oradakı dislokasiya yerlərinin müəyyən edilməsi, düşmənin canlı qüvvəsi, döyüş texnikaları haqda məlumatların toplanması, hərbi eşalonlarında istehkam-mühəndis hazırlığı vəziyyətinin öyrənilməsi olub. Birinci qrup itkisiz qayıtsa da, əməliyyatın üçüncü günü 8 nəfərdən ibarət 2-ci qrup geri qayıdarkən düşmən tərəfindən aşkarlanır. Ağır döyüşdən sonra kəşfiyyatçıların sursatları tükəndiyindən düşmənin əlinə keçməmək üçün özlərini əl qumbarası ilə partladırlar. Çavuş Aqil Əhmədov isə ağır yaralanaraq huşsuz vəziyyətdə əsir düşür. Erməni məhkəməsi Aqilə güllələnmə cəzası kəssə də, uzun sürən danışıqlardan sonra – 1999-cu ilin mart ayında onu dəyişmək mümkün olub".

Jalə Cəfərova onu da bildirdi ki, kəşfiyyatçılar haqında film çəkiləcək, Naxçıvan Dövlət Milli Dram Teatrında "7 şəhid, 1 şahid" tamaşasına hazırlıq gedir.

Xocəsən bələdiyyəsinin sədri Nigar Məmmədova rayon icra hakimiyyəti ilə birgə küçənin təmir-bərpa işləri barədə məlumat verdi.

Ehtiyatda olan çavuş-kəşfiyyatçı Aqil Əhmədov silahdaşlarına verilən dəyərə görə təşəkkürünü bildirdi, Dinar və dostları ilə bağlı xatirələrini danışdı.

"Dinar kimi qəhrəman oğulların sayəsində Vətən öz müqəddəratını qoruyub saxladı. Dinarın adına salınan yeni küçədə abadlıq işlərinin görülməsində zəhməti olan əlaqədar qurumlara təşəkkür edirik". Bu sözləri şəhidin anası Firəngiz Mustafayeva səsləndirdi. Şəhidin bacısı Yazanə Mustafayeva isə dedi ki, Dinar ürəyimizdə, ruhumuzda yaşayır, o, daim bizimlədir: "Biz onu dünyasını dəyişən biri kimi hiss etmirik. Son dəfə – 20 yaşında necə görmüşüksə, elə də təsəvvürümüzdə canlanır. Küçəyə qardaşımın adının verilməsi bizi çox sevindirdi. Ölümlü dünyada biz olmayanda küçənin sakinlərinin şəxsiyyət vəsiqəsində Dinarın adı yaşayacaq".

Rəsmi qurumların nümayəndələri, şair Şahmurad Qaraqoyunlu, şəhid olmuş 7 kəşfiyyatçıdan biri – V.Yarəhmədovun oğlu Vüqar Yarəhmədov, şəhidlərin qohumları, qəsəbənin sakinləri çıxışlarında 44 günlük Vətən müharibəsində şəhidlərimizin qisasının alınmasından söz açaraq, tezliklə Zəngəzura, Göyçəyə qayıdacaqlarını səbirsizliklə gözlədiklərini dilə gətirdilər.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# "Kolonial siyasət informasiya axınını manipulyasiya edir"

*Mətbuat Şurasında Fransa müstəmləkələrindən gələn jurnalistlərlə görüş*

**Mətbuat Şurasında (MŞ) Fransa əsarətindəki müstəmləkələrdən Azərbaycana səfərə gələn media nümayəndələri ilə görüş keçirilib. Bu barədə məlumat XQ-yə Şuradan daxil olub.**



Məlumatda bildirilib ki, görüşdə çıxış edən MŞ sədri Rəşad Məcid rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri ilə bağlı ətraflı məlumat verib. R.Məcid Azərbaycanın da beynəlxalq media, o cümlədən Fransa mediası tərəfindən əsassız ittihamlara məruz qaldığını deyib. O, ədalətsizliyə qarşı mübarizəni ölkəmizin media təmsilçiləri ilə Fransa əsarətindəki müstəmləkələrin jurnalistlərini birləşdirən ortaq maraq kimi səciyyələndirib.

Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli qonaqlara ölkəmizdə medianın durumu barədə məlumat verib, mövcud istiqamətdəki statistikanı açıqlayıb.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Fransa əsarətindəki müstəmləkələrdən olan media təmsilçilərinin ölkəmizə səfərlərinin kommunikasiya üzrə təcrübə mübadiləsi məqsədi daşıdığını bildirib, iştirakçıları qonaq jurnalistlərin səfər qrafiki ilə tanış edib.

Müzakirələr zamanı MŞ sədri R.Məcid, həmçinin MŞ İdarə Heyətinin üzvləri Azər Həsrət, Hacıbəy Heydərli və Şuranın icraçı katibi Əvəz Rüstəmov xarici media təmsilçilərinin MŞ-nin fəaliyyəti, eləcə də Azərbaycan jurnalistikası ilə bağlı suallarını cavablandırıblar.

Görüş zamanı müstəmləkəçilik siyasətinin yaratdığı sosial, siyasi və mədəni fəsadlar geniş müzakirə edilib. Xüsusilə, müstəmləkə rejimlərinin medianın inkişafına zərbələr vurduğu və təzyiqlərin davam etdiyi bildirilib. Bu çərçivədə kolonial siyasətin informasiya axınını manipulyasiya etməsi, senzura tətbiqi və yerli mədəniyyətlərin informasiya məkanından sıxışdırılması kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Fransa müstəmləkələri altında fəaliyyət göstərən jurnalistlərin qarşılaşdıqları real çətinliklər ön plana çəkilib.

Görüş zamanı, həmçinin tərəflər arasında beynəlxalq mediada yerli xalqların səsinin eşidilməsi, informasiya axınında ədalətli təmsilçilik və dezinformasiyaya qarşı birgə mübarizə yolları ətrafında diskussiyalar gedib, Azərbaycanın media qurumları ilə əməkdaşlıq imkanları dəyərləndirilib. Gələcəkdə birgə layihələrin həyata keçirilməsi, müştərək konfransların, seminarların və təlimlərin təşkilinə maraq ifadə olunub. Eyni zamanda, müstəmləkə təcrübələrinə dair tədqiqatların aparılması barədə planlar irəli sürülüb. Belə təmaslar beynəlxalq media əməkdaşlığının gücləndirilməsi və müstəmləkə siyasətinin informasiya sahəsində yaratdığı maneələrin aradan qaldırılması istiqamətində mühüm addım kimi qiymətləndirilib.

***R.AMİN***

# Erməni faşizminin bəşəri cinayəti

*Azərbaycan xalqı bu qanlı xəyanəti heç vaxt unutmayacaq!*

## Paytaxtda xatirə mərasimləri



### *Bakı Dövlət Universiteti*

**Bakı Dövlət Universitetində keçirilən "Reza Deqatinin Gözündə Xocalı Soyqırımı" adlı görüşdə Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib, bu qətliamın yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmaması diqqət mərkəzində olub.**

BDU-nun rektoru Elçin Babayev, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Azərbaycan Gənclər Fondunun icraçı direktor müavini Yusif Vəliyev və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin sədri Aynurə Ələkbərli çıxış edərək bu cür tədbirlərin gənclərin milli tarixi daha dərindən anlaması və Azərbaycan həqiqətlərini beynəlxalq arenada düzgün şəkildə təbliğ etməsi baxımından çox önəmli olduğunu vurğulayıb, dünyaca məşhur fotoqraf Reza Deqatinin Xocalı Soyqırımına dair fotoşəkilləri və şahidliyinin hadisənin faciəvi reallıqlarını gənclərə vizual olaraq çatdırmaqda mühüm rol oynadığını qeyd ediblər.

Tədbirin davamında Reza Deqati Xocalı Soyqırımından dərhal sonra çəkdiyi nadir fotoları təqdim edərək şahidi olduğu hadisələrdən danışıb. O, həmin ağrılı və acılı günlərin indi də gözünün önündə canlandığını söyləyib. Fotoqraf vurğulayıb ki, Xocalı Faciəsi təkcə Azərbaycan xalqına deyil, ümumiyyətlə insanlığa qarşı törədilmiş ağır cinayətdir və bu cinayətin tanınması üçün beynəlxalq səviyyədə mübarizə aparmaq vacibdir.

Qeyd edək ki, "Xocalıya Ədalət" Kampaniyası çərçivəsində Azərbaycan Gənclər Fondu, Bakı Dövlət Universiteti və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə baş tutub.

### *Hərbi Prokurorluq*



**Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda "Xocalı soyqırımının otuz üçüncü ildönümü" ilə əlaqədar elmi-praktik konfrans keçirilib. Prokurorluğun inzibati binasında yerləşən və onun nəzdində fəaliyyət göstərən Soyqırımı Memorial Muzeyində reallaşan tədbirdə prokurorluq əməkdaşları, deputatlar, habelə ictimaiyyət və media nümayəndələri iştirak ediblər.**

Konfransı açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini –Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlardan, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad olunmasından, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs edib. Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, əldə edilən uğurlara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın zəngin fəaliyyəti töhfələr verməkdədir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev konfrans iştirakçılarının diqqətini Xocalı soyqırımına yönəltməklə, həmin dəhşətli gecədə baş verənlərdən, hadisələrin necə cərəyan etməsindən ətraflı danışaraq, bütün bunların Azərbaycan Respublikasının Baş Prokurorluğunda və Hərbi Prokurorluğunda istintaq olunmuş cinayət işinin materiallarında toplanmış mötəbər dəlillərlə sübuta yetirildiyini bildirib.

Ötən əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının son dərəcə mühümlüyünü qeyd edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə görülən işlər, o cümlədən Heydər Əliyev Fondunun səmərəli fəaliyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Hərbi prokuror Xanlar Vəliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasından, o cümlədən Xocalı soyqırımı haqqında doğru və dolğun məlumatların bütün dünyaya yayılması ilə bağlı yorulmaz fəaliyyətindən söz açıb.

Tədbirdə deputatlar – Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Müşfiq Cəfərov, Nigar Arpadarai və digər şəxslər də bəşəriyyətin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı barədə çıxış ediblər.

Daha sonra Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təşəbbüsü ilə soyqırımı haqqında hazırlanmış "Əsrin faciəsi" rəqəmsal videodiski nümayiş etdirilib.

### *Milli Azərbaycan Tarixi Muzeyi*

**Milli Azərbaycan Tarixi Muzeyində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunmuş anım mərasimində əvvəlcə Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

C.Naxçıvanski adına Hərbi Liseyin kursantları, Bakı şəhəri məktəblərinin şagirdləri və muzey əməkdaşlarının iştirak etdikləri tədbirdə muzeyin İnnovasiyalar və təhsil proqramları şöbəsinin müdiri Fəridə Şəmsi çıxış edərək, nümayiş olunan "Xocalı yaddaşımız" adlı fotosərgi barədə məlumat verib. Onun sözlərinə görə, sərgidə Azərbaycan Fotoqraflar Birliyinin (AFB) fotoarxivinə məxsus 36 fotoşəkil nümayiş olunub. Fotoların müəllifləri Mirnaib Həsənoğlu, Şahvələd Eyvazov, Xalid Əsgərov, İlqar Cəfərov və Oleq Litvindir.

Şöbənin baş mütəxəssisi Aynur Babayeva faciədə yüzlərlə dinc, günahsız azərbaycanlıların qətlə yetirildiyini xatırladıb. "Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımlarından biridir. 1992-ci il fevralın 26-da erməni silahlı qüvvələri tərəfindən Xocalı şəhərində törədilən qətliamın məqsədi xalqımızı doğma torpaqlarından qovmaq və işğal siyasətini davam etdirmək idi", – deyə o, əlavə edib.

Azərbaycan Fotoqraflar Birliyinin təsisçilərindən biri Mirnaib Həsənoğlu Xocalı faciəsində şahid olduğu dəhşətlərdən söhbət açıb.

Bədii hissədə Günay Uşaq Teatrı tərəfindən Zərəngiz Dəmirçinin "Cavab ver" poeması əsasında səhnələşdirilmiş "Unutmadıq Xocalı" tamaşası nümayiş olunub. Səhnə əsərinin rejissoru Larisa Tarusovadır.

### *Milli Kitabxana*

**Milli Kitabxanada Azərbaycan xalqının tarixində və yaddaşında heç vaxt silinməyəcək və Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş "26 fevral – Xocalı soyqırımı" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunub.**

Kitabxanadan "XQ"yə bildirilib ki, virtual sərgidə erməni faşizminin törətdiyi Xocalı qətliamı, işğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlar, ağlasığmaz qəddarlıqla törədilmiş dəhşətli faciələr haqqında dövri mətbuatda çap olunan məqalələr, fotolar, ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımı siyasəti, Xocalı soyqırımının dəhşətli məqamları haqqında Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar nümayiş olunur.

### *"AzerGold" və Milli Xalça Muzeyi*

**"AzerGold" QSC və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı anım mərasimi keçirilib.**

Milli Xalça Muzeyində təşkil edilən tədbirdə "AzerGold" və onun törəmə şirkətləri – "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC, eləcə də muzeyin rəhbərliyi və kollektivi iştirak ediblər.

Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova Xocalı soyqırımının XX əsrin ən qanlı cinayətlərindən biri kimi bəşər tarixinə düşdüyünü, bu faciənin xalqımızın yaddaşında dərin izlər buraxdığını diqqətə çatdırıb. Təcavüzkar Ermənistan dövlətinin təkcə Azərbaycan xalqına deyil, mədəni irsimizə və tariximizə qarşı terror siyasəti yürütdüyünü xatırladan direktor bu əməllərə Azərbaycan dövləti və xalqı tərəfindən layiqli cavabların verildiyini qeyd edib.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov isə Prezident İlham Əliyevin liderliyi, qalib ordumuzun gücü ilə işğaldan azad edilmiş digər şəhər və rayonlarımız kimi Xocalının da öz həqiqi sahiblərinə qaytarıldığını, faciə qurbanlarının qisasının döyüş meydanında qətiyyətlə alındığını, Xocalı canilərinin bu gün ədalət qarşısında cavab verdiklərini bildirib.

Xatirə mərasimində Birinci vitse-prezident Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən Xocalıda yaşanan soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində görülmüş işlər xüsusi qeyd edilib.

Sonda Xocalı faciəsinə həsr olunmuş bədii-sənədli film nümayiş olunub. Daha sonra əməkdar rəssam Aydın Rəcəbovun eskizi əsasında Xocalı sakinləri tərəfindən toxunmuş "Ana fəryadı" xalçasına baxış keçirilib.

### *Bakı Yol Polisi İdarəsi*

**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin mətbuat xidməti bildirib ki, Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulacaq. Hərəkətin məhdudlaşdırılması faciə qurbanlarının xatirəsini yad edənlərin rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə həyata keçirilir.**

Fevralın 26-da səhər saat 08:00-dan mərasim qurtaranadək Xocalı prospekti ilə kəsişən, birləşən və paralel olan Mehdi Mehdizadə, Kamandar Əhmədov, Ayaz İsmayılov, Süleyman Vəzirov və İzzət Orucov küçələrində avtomobillərin hərəkəti məhdudlaşdırılmaqla istiqamət dəyişdiriləcək.

Bu istiqamətdə şəxsi avtomobillərdən mümkün qədər az istifadə edilməsi, ictimai nəqliyyata üstünlük verilməsi tövsiyə olunur.

*Hazırladı:*
*V.BAYRAMOV*
*XQ*

## Bölgələrdə anım məclisləri

### *Naxçıvan*

**AMEA-nın Naxçıvan Bölməsində Xocalı faciəsinin 33-cü ildönümü münasibətilə "Tariximizin qan yaddaşı: Xocalı soyqırımı" mövzusunda elmi konfrans keçirilib.**

Konfransda öncə soyqırımı qurbanlarının və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tarixin müxtəlif mərhələlərində ermənilərin xalqımıza qarşı ən qəddar üsullardan istifadə etməklə törətdikləri kütləvi qırğınlar və soyqırımları barədə danışıb. Xocalı faciəsini insanlığa qarşı ən ağır cinayət kimi səciyyələndirib.

Xocalı həqiqətlərinin, xalqın haqq səsinin dünyaya çatdırılması istiqamətində görülən işləri vurğulayan bölmə sədri bildirib ki, Xocalı soyqırımına ilk hüquqi-siyasi qiymət məhz ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsidir ki, bu gün Xocalı soyqırımını dünyanın bir sıra ölkələri rəsmən tanıyır. Xocalı həqiqətlərinin, erməni vəhşiliyinin dünyaya çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasının da mühüm rolu var.

"Bu gün Xocalı azaddır. Azərbaycanın igid oğulları Xocalı şəhidlərinin qisasını alıblar. Xocalı suveren Azərbaycanın yenidən qurulan bölgələrindəndir", – deyən akademik hələ də davam edən erməni uydurmalarına qarşı mübarizə aparmağın vacibliyini dilə gətirib.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov "Xocalı soyqırımı – insanlığa qarşı cinayət", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Natavan İbrahimova "Xocalı faciəsi ədəbiyyatımızda" mövzusunda məruzə ediblər. AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev Xocalı həqiqətlərinin təbliğini hər bir tədqiqatçının, hər bir insanın vətəndaşlıq borcu adlandırıb.

### *Sumqayıt*




**Gənclik şəhərində Xocalı faciəsinin qurbanlarının xatirəsi ehtiramla anılıb. Anım mərasimində şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, Sumqayıtda yaşayan xocalılılar və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**

Tədbir iştirakçıları şəhərin Nəsimi parkında Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstələri düzüb, Xocalıda həlak olan soydaşlarımızı sükutla yad ediblər. Şəhər rəhbərliyi Sumqayıtda məskunlaşan Xocalı sakinləri ilə görüşərək, Xocalı faciəsinin təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ən ağır soyqırımı cinayətlərindən biri olduğunu vurğulayıb. 44 günlük Vətən müharibəsində Xocalı qurbanlarının qisasının alındığı, qanlarının yerdə qalmadığı bildirilib.

Sumqayıtın təhsil ocaqlarında da Xocalı faciəsinin ildönümü münasibətilə çeşidli tədbirlər keçirilib. Şəhərdəki 40 nömrəli tam orta məktəbdə rəsm müsabiqəsi təşkil edilib. 9 nömrəli tam orta məktəbin 3–4-cü sinif şagirdləri isə müəllim Ayşən Məmmədovanın və Vəfa Cəfərovanın rəhbərliyi ilə Şəhidlər xiyabanındakı Xocalı soyqırımı abidəsini ziyarət ediblər. Abidənin önünə gül dəstələri düzülüb, şeirlər söylənib və xatirə şəkilləri çəkdirilib.

### *Mingəçevir*

**"Nur şəhəri"ndəki Dövlət Universitetində (MDU) "Əsrin faciəsi"nə həsr edilən mərasimlər təşkil olunub.**

"Bizi Xocalıya qovuşduran milli birliyimiz" mövzusunda elmi konfransda universitetin professor-müəllim heyəti, tələbələr və digər qonaqlar iştirak ediblər. MDU-nun rektoru vəzifəsini müvəqqəti icra edən Üzeyir Zeynalov çıxışında Xocalı faciəsinin Azərbaycan tarixində ən qanlı səhifələrdən biri olduğunu vurğulayıb.

Konfrans çərçivəsində Xocalı faciəsini əks etdirən videoçarx nümayiş olunub. Müəllimlər "Xocalı soyqırımı erməni vəhşiliyinin apogeyidir: faciəyə aparan yol", "Xocalı faciəsi vətənpərvərlik və qisas duyğuları yaradan milli dəyər kimi", "Xocalının qisasını almış xalq və milli lider" mövzusunda çıxışlar edərək, xalqın milli həmrəyliyi və güclü liderlik amilinin torpaqlarımızın azad olunmasında əsas rol oynadığını bildiriblər.

### *Masallı*

**Lənkəran–Astara Regional Gənclər və İdman İdarəsinin, Masallı Rayon İcra Hakimiyyətinin, Tarix-Diyarşünaslıq Muzeyinin, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Regional bölməsinin və Masallı Mərkəzi Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü il dönümü ilə bağlı "Xocalıya qayıdış" adlı mərasim keçirilib.**

Təşkilatçı qurumların nümayəndələri, qazilər və gənclərin iştirak etdiyi mərasimin əvvəlində soyqırımı qurbanlarının və Vətənin azadlığı, suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Çıxışlarda Xocalı şəhidləri ehtiramla xatırlanıb, haqq-ədalətin bərpası naminə keçilən çətin, lakin qürurlu yola nəzər salınıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər nəticəsində Xocalı soyqırımı qurbanlarının, eləcə də digər şəhidlərin qanının yerdə qalmadığı vurğulanıb. Fəxrlə bildirilib ki, 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhəri separatçılardan tamamilə təmizlənib. Dövlət başçısı İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltmaqla soyqırımı qurbanlarının qanının yerdə qalmadığını, onların qisasının alındığını bir daha sübuta yetirib.

Yekunda mərasim iştirakçıları muzeydə nümayiş olunan Xocalı soyqırımı qurbanlarına aid foto-sərgi ilə tanış olublar.

### *Xaçmaz*

**Erməni quldurlarının qanına qəltan etdiyi soydaşlarımızın qisası müzəffər Ordumuzun şanlı Qələbəsi sayəsində alınıb. Artıq torpaqlarımız azad, qayıdışımız əbədidir.**

Bu fikir Xaçmaz Tarix Diyarşünaslıq Muzeyi və Xaçmaz şəhər Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseyin birgə təşkil etdikləri "Əbədi qayıdış" adlı tədbirdə söylənilib.

Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunan mərasimdə Birinci Qarabağ və 44 günlük Vətən müharibəsi, antiterror əməliyyatları iştirakçıları, Xaçmaz Rayon İcra Hakimiyyətinin, ictimai birliklərin və təşkilatçı qurumların əməkdaşları, təhsil işçiləri, məktəblilər iştirak ediblər.

Məruzələr səsləndirilib, bu acı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının zəruriliyi vurğulanıb. Diqqətə çatdırılıb ki, indi erməni cinayətkarları ədalət məhkəməsi qarşısına çıxarılıb və şəhidlərimizin qisası yerdə qalmayıb.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımov haqqında film nümayiş olunub, məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim edilib.

### *Tərtər*

**Əsrin faciəsinin 33-cü ildönümü ilə bağlı Qarabağ Regional Mədəniyyət İdarəsinin Tərtər nümayəndəliyində ədəbi-bədii tədbir keçirilib.**

İştirakçılar öncə "Xocalıda məhv olmuş ümidlər" adlı filmi izləyiblər. Sonra çıxışlar olub. Natiqlər ermənilərin Xocalının dinc sakinlərinə, qadınlara, qocalara, uşaqlara qarşı törətdikləri insanlığa sığmayan qəddarlıqlarından danışıblar. Qeyd olunub ki, Xocalı soyqırımı törədilən zaman "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə konvensiyaları kobud şəkildə pozulub.

Diqqətə çatdırılıb ki, Xocalı soyqırımı ilə bağlı beynəlxalq səviyyədə məlumatlılığın artırılmasına, bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınması və qətliama siyasi-hüquqi qiymətin verilməsinə yönəlmiş "Xocalıya ədalət!" kampaniyası Heydər Əliyev Fondunun təşkilatçılığı ilə dünyanın bir çox ölkəsində davamlı olaraq həyata keçirilir. Kampaniya nəticəsində 18 dövlətin qanunvericilik orqanı, ABŞ-ın 24 ştatı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı tərəfindən bu qəddar qətliam pislənilib, soyqırımı kimi qiymətləndirilib, bununla bağlı müvafiq qərar və qətnamələr qəbul edilib.

Tədbirdə "Qarabağ artıq azaddır" adlı ədəbi-bədii kompozisiya, həmçinin faciəyə həsr edilmiş kitab sərgisi nümayiş olunub.

### *Ağdaş*

**Ağdaş Rayon İcra Hakimiyyəti və Mərkəzi Aran Regional Mədəniyyət idarəsinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümü qeyd olunub.**

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Orxan Hüseynzadə, Milli Məclisin deputatı Sahib Alıyev, rayon ictimaiyyətinin nümayəndələri, təhsil və mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər. Əvvəlcə Ağdaş Dövlət Rəsm Qalareyasının gənc rəssamlarının hazırladığı, Xocalı faciəsinə həsr olunmuş əl işləri və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim olunub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edənlər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərinin əhalisinə qarşı törədilmiş soyqırımının insanlığa qarşı ən dəhşətli cinayətlərdən biri olduğunu vurğulayıblar. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun möhtəşəm tarixi Zəfəri, həmçinin uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunduğu, Xocalının da separatçılardan tam təmizləndiyi bildirilib. Hazırda azad edilmiş digər ərazilərimiz kimi, Xocalıda da genişmiqyaslı quruculuq işlərinin aparıldığı, doğma yurdlara qayıdış prosesinin davam etdiyi bildirilib.

Rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən xalq teatrının təqdimatında "Qisas qiyamətə qalmadı, Vətən!" adlı tamaşa nümayiş etdirilib.

*Hazırladılar:*
*Ə.ƏLİYEV,*
*İ.HƏSƏNOV*
*XQ*

Xocalı soyqırımı dünyada anılır

# “Xocalıya ədalət!”in dünyada əks-sədası

**Erməni vandalların Xocalıda törətdikləri qətliam insanlığın heç bir əxlaq normalarına sığmayan davranışdır. Bəşəri dəyərlərə və milli kimliyə sahib heç bir millət digərinə qarşı bu cür cinayətə yol verməz. Bu, eyni zamanda beynəlxalq hüququn qüsurlarını üzə çıxarır. Əgər bu soyqırımı ermənilərin başına gəlsəydi, dünya buna susmazdı. Bu gün BMT üzvü olan bütün ölkələr Xocalı vəhşiliyini soyqırımı kimi tanımalı və unutmamalıdırlar ki, belə hadisə bir daha təkrarlanmasın. Bu fikirlər Xocalı qətliamının qurbanlarının xatirəsinin anıldığı müxtəlif ölkələrdə çıxışların ana xəttini təşkil edirdi.**

### *“Xocalıya ədalət!” beynəlxalq kampaniyası böyük uğur qazanıb*



Azərbaycanın Cənubi Afrika Respublikasındakı (CAR) səfirliyində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunan tədbir keçirilib. Anım mərasimində çıxış edən Azərbaycanın CAR-dakı müvəqqəti işlər vəkili Hüseyn Rəhimli erməni işğalçıları tərəfindən törədilən Xocalı soyqırımının bəşəriyyət tarixində qara ləkələrdən biri olduğunu iştirakçıların diqqətinə çatdırıb. O, bununla erməni millətçilərinin öz vəhşi simalarını bir daha nümayiş etdirdiklərini, törədilən faciənin təkcə azərbaycanlılara qarşı deyil, bəşəriyyətə qarşı yönəlmiş qanlı cinayət olduğunu dilə gətirib. Xocalıya hücum zamanı çox sayda uşaq, qadın və qocanın erməni quldur dəstələri tərəfindən xüsusi amansızlıqla qətlə yetirildiyi barədə danışan H.Rəhimli bu hadisələrin ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin nümunəsi olduğunu söyləyib: “Bu gün Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu soyqırımına qiymət verilməsi istiqamətində davamlı səylər göstərilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlayan “Xocalıya ədalət!” beynəlxalq informasiya və təbliğat kampaniyası bu istiqamətdə böyük uğur qazanıb. Əminik ki, insanlığa qarşı törədilmiş vəhşiliyin günahkarları gec-tez öz cəzalarını alacaqlar”.

Sonra tədbir iştirakçıları Xocalı soyqırımına həsr edilən fotosərgi ilə, eyni zamanda, ermənilərin törətdikləri vəhşilikləri əks etdirən kitablarla tanış olublar.

### *“Bu faciə Azərbaycan irsini Qarabağdan silmək məqsədilə törədilib”*

Azərbaycanın ABŞ-dakı səfirliyi və Corc Vaşinqton Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyasının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbirində yerli ictimaiyyətin və



azərbaycanlı icmasının üzvləri, bu ölkədə təhsil alan xarici və azərbaycanlı tələbələr, o cümlədən ABŞ-da akkreditə olunmuş diplomatik nümayəndəliklərin üzvləri iştirak ediblər. Tədbirdə çıxış edən Corc Vaşinqton Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyasının prezidenti Humay Sadiq ailəsinin məcburi köçkün kimi yaşadığı çətinliklərdən danışıb. H.Sadiq Xocalı soyqırımı zamanı həyatlarını itirənlərə Allahdan rəhmət diləyib, sülh və əmin-amanlıq dolu bir gələcəyə ümidini ifadə edib. Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim Xocalı soyqırımı qurbanlarının etnik və dini mənsubiyyətlərinə görə həyatlarını itirdiklərini, bu faciənin Azərbaycan irsinin Qarabağ regionundan tamamilə silinməsi məqsədilə törədildiyini qeyd edib. Səfir Xocalı qurbanlarının əziz xatirəsinin yad edilməsinin hər kəsin borcu olduğunu, lakin bunun kifayət etməyini, davamlı olaraq bu soyqırımı inkar edənlərə müqavimət göstərməli olduğumuzu vurğulayıb.

Tədbirdə daha sonra Xocalı soyqırımı hadisələrindən bəhs edən məlumatlandırıcı videoçarx nümayiş edilib. Amerikalı kamança ustası, Amerika Muğam Cəmiyyətinin sədri Cefri Verbok Xocalı soyqırımının Azərbaycan tarixi üçün əhəmiyyətindən bəhs edib. C.Verbok Qarabağın artıq azad olduğunu, bunun ölkə rəhbərliyi ilə Azərbaycan xalqının birliyi hesabına əldə edildiyini vurğulayıb. Daha sonra, Verbok kamança ilə Azərbaycan muğam sənətindən nümunələr ifa edib.

### *“Erməni silahlıları dinc əhaliyə divan tutublar”*



İtaliyanın Deputatlar Palatasında Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş tədbir barədə senator Culio Terzi “X” sosial şəbəkəsindəki hesabında paylaşım edib. O, çıxışında qeyd edib ki, 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi soyqırımı cinayəti nəticəsində 613 Azərbaycan vətəndaşı, o cümlədən 63 uşaq, 106 qadın, 70 ahıl qətlə yetirilib. Senator paylaşımında onu da vurğulayıb ki, bu gün iki ölkə arasında qarşılıqlı münasibətlərdə ciddi irəliləyiş müşahidə olunur: “İtaliya Senatında bu yaxınlarda yekdilliklə qəbul edilən müvafiq qətnamə və bir sıra müsbət addımlar Bakı ilə İrəvan arasında sülh müqaviləsinə yol açır”.

Xatırladaq ki, bir müddət əvvəl İtaliya Senatı “Ermənistan və Azərbaycan arasında sülh prosesinin dəstəklənməsinə yönəlmiş təşəbbüslər haqqında” qətnaməni yekdilliklə qəbul edib.

### *“Bu cinayət təkrarlanmasın deyə, soyqırımı kimi tanınmalıdır”*



Bunu Azərbaycanın azad olunmuş ərazilərinə səfər edən ilk xarici jurnalistlərdən biri – braziliyalı Fabiana Ceyhan deyib. O, Qarabağda gördüklərindən dəhşətə gəldiyini söyləyib: “Qarabağ Ermənistanın işğalından azad edildikdən sonra əraziyə səfər edən ilk jurnalistlərdən biri olmuşam. Düzdür, müəyyən qədər riskli idi, çünki ərazidə çoxlu sayda mina var idi. Amma biz risk edərək hər şeyi öz gözlərimizlə gördük”. F.Ceyhan bildirib ki, Qarabağ məsələsi onun üçün həyat missiyasına çevrilib: “Çünki həm tarixi, həm də coğrafi baxımdan Qarabağın Azərbaycana məxsus olduğunu gördük”. Braziliyalı jurnalist xatırladıb ki, Xocalı kiçik bir şəhər idi, orada hərbi qüvvə yox idi: “Yəni, Ermənistanın dinc və günahsız insanlara hücumunu heç nə ilə əsaslandırmaq mümkün deyil. Orada yalnız qadınlar, uşaqlar və qocalar qalmışdı. Bu, çox böyük insan faciəsidir və düşünürəm ki, dünya bu faciəni daim xatırlamalı və belə hadisələrin bir daha təkrarlanmaması üçün Xocalı soyqırımını tanımalıdır. Biz hamımız insanıq və haradan gəlməyimizdən asılı olmayaraq, Xocalı üçün sülh və ədalət naminə birləşməliyik”.

### *“Bu, etnik nifrət zəminində törədilmiş kütləvi qətldir”*

“Xocalı soyqırımı etnik nifrət zəminində törədilmiş kütləvi qətldir”. Bunu “Tovuzdan Qarabağa: Cənubi Qafqazda müharibənin hərtərəfli təhlili” kitabının müəllifi, Çində fəaliyyət göstərən beynəlxalq jurnalist, siyasi analitik Malik Ayub Sumbal deyib. O, kitabında Ermənistan və Azərbaycan arasında 30 ildən çox davam edən münaqişə, Ermənistanın işğal siyasəti və törətdiyi cinayətləri geniş şəkildə təhlil etdiyini bildirib: “Bu, Qarabağda baş verən son müharibədən sonra dərc edilən ilk kitabdır. Azərbaycan 30 il işğal altında qalan torpaqlarını azad etdi. Kitab həmin bölgədəki hadisələrin dərin analizini təqdim edir və münaqişənin beynəlxalq diqqət mərkəzinə çevrildiyini açıb göstərir. Sevindirici haldır ki, Azərbaycan öz ərazilərini geri qaytarmağa nail oldu”. Malik Ayub Sumbal kitabda Xocalıya ayrıca bir fəsil ayırıdığını qeyd etdi: “Kitabımda bu dəhşətli qətliamın detalları və onun soyqırımı kimi tanınmasının vacibliyi vurğulanır. Günahsız insanların qətli cəzasız qala bilməz, ədalət tələb olunmalı və cinayətkarlar beynəlxalq hüquqa uyğun cəzalandırılmalıdırlar”.

Siyasi analitik vurğuladı ki, Xocalı faciəsi çağdaş tarixin beynəlxalq media tərəfindən qeydə alınmış ən dəhşətli soyqırımlarından biridir: “Bir gecədə 600-dən çox insanın, o cümlədən qadın və uşaqların qətlə yetirilməsi etnik təmizləmənin ən bariz nümunəsidir. Bir çox ölkə Xocalı soyqırımını pisləyib və ədalət tələb edir. Azərbaycan xalqı bu faciəni unutmur və hər il günahsız faciə qurbanlarını anır. Xocalı faciəsinin ildönümündə insanların necə sarsıldığını və sevdiklərinin həsrətini çəkdiyini görürəm. Hələ də itkin düşən çoxlu sayda insan var. Mən faciə qurbanlarını dərin hüzn və ehtiramla yad edir, ruhları qarşısında baş əyirəm”.

### *“Xocalı Xatın və Xirosima faciələri ilə eyni səviyyədə dayanır”*



ABŞ-ın aparıcı ali təhsil ocaqlarından biri olan Kolumbiya Universitetində Xocalı soyqırımına həsr olunmuş anım tədbiri keçirilib. Tədbir Azərbaycan–Amerika Gənclər Federasiyasının təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə baş tutub. Anım mərasimində ABŞ-ın müxtəlif universitetlərində təhsil alan azərbaycanlı tələbələr və alimlər, bu ölkədə fəaliyyət göstərən diplomatlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər ermənilər tərəfindən müxtəlif dövrlərdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlardan danışıblar. Vurğulanıb ki, Xocalı faciəsi XX əsrin ən dəhşətli qətliamlarından biri olaraq Xatın və Xirosima faciələri ilə eyni səviyyədə dayanır. Tədbir çərçivəsində Xocalı soyqırımından bəhs edən qısametrajlı film nümayiş etdirilib. Daha sonra Xocalı qurbanlarının xatirəsinə həsr edilən musiqilər ifa edilib, Nyu-Yorkda fəaliyyət göstərən “My Way” Uşaq-Gənclər Yaradıcılıq İnkişaf Mərkəzinin şagirdlərinin Xocalı soyqırımına həsr olunmuş rəsm əsərləri sərgilənib. Bundan əlavə, azərbaycanlı rəssam və heykəltəraş Emin Quliyevin “Xocalı harayı” heykəli də nümayiş olunub.

### *“Xocalı qətliamına təkcə Azərbaycanın məsələsi kimi baxmıram”*



“Təəssüf ki, hətta 1948-ci il soyqırımı əleyhinə Cenevrə Konvensiyasından çox əvvəl də müharibə cinayətlərinin və soyqırımının uzun bir tarixi mövcuddur”. Bu sözləri ABŞ-ın Milli Müdafiə Universitetinin dosenti Stefan Bruks Xocalı soyqırımının ildönümü ilə bağlı danışarkən deyib. O bildirib ki, hər hansı bir soyqırımı ilə bağlı maarifləndirmənin aparılmaması bu cür hadisələrin davam etdirilməsinə təkan verir: “Soyqırımı və müharibə cinayətlərinin olmadığı bir dünya görmək üçün ilk addım kimi onlar haqqında məlumatlılıq artırılmalıdır. Ona görə də mən Xocalı faciəsinə təkcə Azərbaycanın məsələsi kimi baxmıram. Təbii ki, qurbanlar azərbaycanlılardır və bu, Azərbaycan xalqının acısıdır. Amma bu qurbanlar həm də bütün hərbi cinayətlərin və soyqırımlarının qurbanlarıdır. Beləliklə, bu faciə haqqında məlumatlılığı artırmaqla müharibə cinayəti və soyqırımı qurbanlarının hamısı barədə həqiqətləri dünyaya çatdıra bilərik. Ümid edirəm ki, bunu etməklə belə halın bir də təkrarlanmaması üçün birləşərək beynəlxalq ictimai rəyə və dövlətlərə daha çox təzyiq etmək mümkündür”.

*Hazırladı:*
***İ.HƏSƏNQALA,***
***XQ***

# İnsanlar bu cinayəti ittiham etməlidirlər

**Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin Azərbaycanşünaslıq Mərkəzində Xocalı soyqırımına həsr olunmuş açıq dərs keçirilib.**



Universitetdə Azərbaycan dili fənnini tədris edən filologiya üzrə fəlsəfə doktoru Mətanət Xudiyeva özbək tələbələrə Xocalı soyqırımı barədə geniş məlumat verib. O bildirib ki, Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin iştirakı ilə gecə saatlarında şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırımı törədiblər. Şəhəri yerlə-yeksan etmiş erməni silahlı dəstələri və alayın hərbçiləri dinc əhaliyə divan tutublar.

M.Xudiyeva deyib ki, erməni hərbi birləşmələrinin 7 min əhalisi olan Xocalı şəhərinə hücumu nəticəsində 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca olmaqla 613 dinc sakin vəhşicəsinə qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib, 1000 nəfər sakin aldığı güllə yarasından əlil olub. Faciə baş verən gecə 1275 nəfər dinc sakin əsir götürülüb, onlardan 150-nin taleyi hələ də məlum deyil.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi faktını videolentə almaq istəyən rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşları olan jurnalist və publisistləri qarşılaşdıqları görüntülər dəhşətə gətirib.

M.Xudiyeva onu da qeyd edib ki, hər il Xocalı soyqırımı Azərbaycanda və dünyanın bir çox ölkəsində hüznlə qeyd olunur. Azərbaycan səfirlikləri və diaspor təşkilatları fevralın 26-da fəaliyyət göstərdikləri ölkələrdə anım mərasimləri təşkil edir, dünya ictimaiyyətinə bu haqda məlumatlar çatdırırlar. Bu tədbirlərdə ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotostendlər, sənədli filmlər nümayiş olunur, soyqırımının həqiqətlərini əks etdirən kitablar sərgilənir.

Dərsin sonunda bu dəhşətli soyqırımı əks etdirən sənədli film izlənilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Daşkənd**

# Canilər cəzasiz qalmamalıdırlar

**Estoniya–Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat yayıb. Sənəddə deyilir: “Estoniya–Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verir. Estoniya parlamentinin Estoniya–Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edir və onu törədənləri məsuliyyətə cəlb etməyə çağırır. Biz 600-dən çox günahsız dinc sakinin, o cümlədən çox sayda uşaq, qadın və qocanın qətlə yetirildiyi Xocalı soyqırımı ilə bağlı Azərbaycan xalqının ağrısını bölüşürük. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının işğalı zamanı dinc azərbaycanlılara qarşı törədilmiş insanlıq əleyhinə cinayətləri qətiyyətlə pisləyirik”.**

Bəyanatda daha sonra qeyd edilir ki, bu kütləvi qətlin səbəbkarları ədalət qarşısında cavab verməlidirlər: “Regionun bütün ölkələrinin suverenlik və ərazi bütövlüyü, eləcə də beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı hüququ var. Biz Azərbaycana öz ərazisində davamlı sülhün bərqərar olması, inteqrasiya və yenidənqurma işlərində dəstəyimizi ifadə edirik”.



Qeyd edək ki, Estoniya–Azərbaycan parlamentlərarası dostluq qrupuna Riina Solman (sədr), Mariya Yufereva-Skuratovski (sədr müavini), Yaak Aab, Vadim Belobrovtsev, Zuleyxa İzmailova, Aleksey Yevqrafov, Ester Karuse, Toomas Kivimaqi, Ayvar Kokk, Anastasiya Kovalenko-Kılvart, Lauri Laats, Andres Metsoya, Eduard Odinets, Helyo Piekhof, Yuku-Kalle Raid, Urmas Reynsalu, Ayvar Sıerd və Hendrik Yoxannes Terras daxildirlər.

***XQ***

# Ararat Mirzoyan müharibə canilərinə haqq qazandırıb

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan BMT-nin İnsan Hüquqları Şurasının 56-cı Sessiyasının Yüksək Səviyyəli İclasında, 2025-ci il fevralın 24-də etdiyi çıxışında, Azərbaycanda hazırda məhkəmələri davam edən bir qrup müharibə cinayətkarına haqq qazandıran, insan hüquqları anlayışına zidd və bölgədə sülh səylərinə mane olan fikirlər səsləndirmişdir. Əvvəlcə qeyd edək ki, nazir A.Mirzoyanın, ölkəsinin 1992-ci il fevralın 25-26-da törətdiyi Xocalı soyqırımının ildönümündə həmin soyqırımını törətməkdə təqsirli bilinənlərin işi üzrə ədalət mühakiməsinə xələl gətirməyə çalışması soyqırımı qurbanlarının ruhuna hörmətsizlikdir.**

Bu fikirlər Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatında əks olunub.



Bəyanatda deyilir: “Tez-tez 1991-ci il Almatı Bəyannaməsinə istinad edən Ermənistan hökumətinin diqqətinə çatdırmaq istərdik ki, Ermənistan həmin bəyannaməni imzaladıqdan sonra Azərbaycana qarşı hücumlarını daha da genişləndirərək ölkənin 20 faizini işğal etmiş və 800 minə yaxın azərbaycanlını etnik təmizləməyə məruz qoymuşdur. Sülh hansısa sənədə istinad etməklə deyil, konkret addımlar atmaqla əldə olunur.

Bütün bunlar bir daha sübut edir ki, Ermənistan hökuməti sülhün və insan hüquqlarına hörmətin bərqərar olunmasında maraqlı deyil. Qərbi Azərbaycan İcması olaraq, Ermənistan hökumətindən qeyri-konstruktiv siyasətinə son verməyi, etnik təmizləməyə məruz qoyduğu azərbaycanlıların Ermənistana qayıdışına şərait yaratmağı və sülh üçün üzərinə düşən addımları atmağı tələb edirik”.

***XQ***

# Türk əsrinin mübariz lideri



**Fevralın 26-sı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyip Ərdoğanın doğum günüdür. İstanbulda anadan olsa da, əslən Rizə vilayətinin Güneysu bölgəsindəndir. Bütün siyasi həyatı boyunca Türkiyənin inkişafı və xalqın rifahı yolunda atdığı addımlar hər zaman təqdir edilmiş və o, son 23 ildə bütün seçkilərdə millətin etimadını qazanmışdır. Rəhbərlik etdiyi Türkiyə dövlətinin dünya siyasətindəki aparıcı rolu onun adı ilə bağlıdır. Onun hakimiyyəti dövründə Türkiyə regional gücdən qlobal gücə, aparıcı dünya dövlətinə çevrilmişdir.**

Rəcəb Tayyib Ərdoğanın qələmə aldığı və dünyanın bütün aparıcı dillərinə tərcümə edilmiş “Daha adil bir dünya mümkün” adlı kitabı bu sözlərlə başlayır: “Bu gün dünyada ən çox ehtiyac duyulan məsələlərin başında ədalət gəlir. Təəssüf ki, qlobal ədalətin qurulmasından məsul qurumlar böyük ətalət içindədirlər. Mərhəmətin itdiyi bir çağda ədalətin təmsilçisi və vicdanın səsi olmaq məsuliyyəti bizim üzərimizə düşür”. Bunları deməklə Ərdoğan ənənəvi olaraq tarixən türk millətinin getdiyi hər yerə ədalət apardığını və bu gün də həmin missiyanın daşıyıcısı olduğuna işarə edir. Ərdoğan deyir ki, əsasları Birinci Dünya müharibəsində qoyulmuş bu ədalətsiz nizamın problemləri indi bir çox başlıqlarda özünü göstərir. Bunlardan ən diqqət çəkəni odur ki, müstəmləkəçi və imperialist təfəkkür hələ də varlığını davam etdirir. Bu anlayış heç vaxt ədaləti bərpa etmədi, sabitlik gətirmədi və ya münaqişələrin həllini təmin etmədi. Bu anlayış İkinci Dünya müharibəsindən dərhal sonra müəyyən edilmiş yeni ədalətsizliklərlə özünü göstərdi. Xarici aktorların imperialist maraqlarına xidmət etmək üçün nəzərdə tutulmuş sərhədlər, regional mübahisələr və ədalətsizlik hissi üçün əsas yaratdı”.

Türkiyə Prezidenti daha sonra qeyd edir: “Bu qədər zülm əbədi davam edə bilməz. İkinci Dünya müharibədən sonrakı dövrün beynəlxalq güc bölgüsü və siyasi ab-havası və sistemi qlobal ədalətin təməli əsasında yenidən qurulmalıdır. Beynəlxalq aləmdə siyasi əxlaqın aşınması hər gün özünü daha çox göstərir”.

“Dünya beşdən böyükdür” – deyən Ərdoğan dünyanın taleyini BMT səviyyəsində həll edəcək ölkələrin iradəsinə tapşırmağı yanlış hesab edir, hər fürsətdə dilə gətirməkdədir ki, BMT Təhlükəsizlik Şurasının, ən az, 20 üzvü olmalıdır və müsəlman dünyası da orada təmsil olunmalıdır.

Onun şəxsi mövqeyi və liderlik tərzi Türkiyənin Türk dünyasına verdiyi dəstəyin mühüm tərkib hissəsidir. Ərdoğanın TDT-da fəaliyyəri və bu təşkilatın beynəlxalq status qazanmasında rolu onun həm Türkiyə daxilində, həm də beynəlxalq aləmdə güclü və qətiyyətli lider imicini gücləndirir. Bu da onun fikridir: “Ədalətli institusional strukturlardan məhrum birliklərin bloklandığı prosesdə Türk Dövlətləri Təşkilatı səsin, nəfəsin və sinerjinin yeni mərkəzinə çevrilir” və yaxud “Adriatik dənizindən Asiyaya qədər uzanan geniş coğrafiyada bizim çox geniş əməkdaşlıq imkanlarımız var. Tarixi inkişafların Türk dünyasının yolunu açdığı fürsət pəncərələrini düzgün qiymətləndirmək lazımdır. Siyasi həmrəylikdən tutmuş, başda enerji və nəqliyyat olmaqla iqtisadi əməkdaşlığa qədər hər sahədə onu mənfəətə çevirmək imkanımız var”. Ərdoğan digər Türk dövlətləri ilə birlikdə TDT memarı sayılır və bu tarixi xidmət kimi dəyərləndirilməlidir.

Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevlə yaxın şəxsi əlaqələri iki ölkə arasında əməkdaşlığı daha da həyati edir. Türkiyə ilə Azərbaycan arasındakı etnik və mədəni yaxınlıq iki ölkənin əlaqələrini hər sahədə gücləndirir. Bu anlayış Türkiyə ilə Azərbaycan arasındakı tarixi, mədəni və etnik bağlar Ərdoğanın Azərbaycana dəstəyinin və iki ölkə arasındakı həmrəyliyin əsasını təşkil edir. AKP hökuməti dövründə Türkiyə Azərbaycanla Ermənistan arasında uzun müddətdən bəri davam edən Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır.

2011-ci il iyulun 27-də Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri zamanı Türkiyə–Azərbaycan münasibətlərinin bu gün ən yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi. Ərdoğan Türkiyənin Dağlıq Qarabağ məsələsində hər zaman Azərbaycanın yanında olduğunu bildirərək, "Dağlıq Qarabağ məsələsində bizim mövqeyimiz, düşüncəmiz və mübarizəmiz eynidir. Bilinməlidir ki, Dağlıq Qarabağ bizim üçün qanayan bir yaradır, Azərbaycan üçün bundan sonra da qanayan bir yara ola bilməz."

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 27 sentyabr 2020-ci ildə Azərbaycanla Ermənistan arasında başlanan müharibənin ilk saatlarında Azərbaycana açıq, birmənalı siyasi və mənəvi dəstək verməsi ictimaiyyəti ruhlandırmaqla yanaşı, müharibəyə müdaxilə etmək fikrində olan digər gücləri və dairələri dayandırdı. Bu tarixi Qələbənin qeyd olunduğu Zəfər Paradında Azərbaycan və Türkiyə prezidentləri iki xalqın sarsılmaz qardaşlığı, bir-birinin daim yanında olacaqları barədə dünyaya çox mühüm və aydın mesajlar verdilər.

Dağlıq Qarabağ münaqişəsi kontekstində Ərdoğanın Azərbaycana dəstəyi təkcə siyasi və hərbi həmrəylik kimi deyil, həm də uzunmüddətli iqtisadi tərəfdaşlıq kimi qiymətləndirilə bilər. Bu əməkdaşlıq iki ölkənin həm iqtisadi, həm də strateji maraqlarını birləşdirir və regional sabitliyin təmin olunmasına töhfə verir.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsi”ni 2021-ci il iyunun 15-də işğaldan azad edilmiş Şuşada imzaladılar. Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında tarixi münasibətlərdə yeni mərhələ hesab olunur. Bu sənəddə müəyyən edilən strateji müttəfiqlik qardaş dövlətlərimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq, təhlükəsizlik və müdafiə sahələrində qarşılıqlı yardım prinsiplərini özündə ehtiva edir. Bəyannamədə deyilir ki, Türkiyə ilə Azərbaycanı, Azərbaycanın qərb bölgələrini və Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və bunun davamı olaraq Naxçıvan – Qars dəmir yolunun tikintisi ilə iki ölkə arasında nəqliyyat və kommunikasiya əlaqələrinin intensivləşməsində mühüm rol oynayacaq.

Prezident İlham Əliyev imzalanma mərasimindəki nitqində bu tarixi sənədin əhəmiyyətini dilə gətirmişdi: "Bu gün imzalanmış Birgə Bəyannamə – Müttəfiqlik Bəyannaməsi əlaqələrimizi ən yüksək səviyyəyə qaldırır. Bəyannamənin adı İttifaq Bəyannaməsidir və bu ad hər şeyi göstərir və deyir".

Türkiyə Ərdoğan dövründə Azərbaycanla hərbi və iqtisadi əməkdaşlığını daha da artırdı. Hərbi təlim, təlimlər və müdafiə sənayesi sahələrində əməkdaşlıq həyata keçirildi. Bu da qələbənin təmin olunmasında mühüm rol oynadı. İstər ikitərəfli münasibətlərdə, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində ən yüksək səviyyəli dostluq və əməkdaşlıq nümunəsi olan Azərbaycanla Türkiyə birgə böyük layihələrə imza atmaqla təkcə ölkələrimizin deyil, həm də geniş coğrafiyanın inkişafına mühüm töhfələr verirlər. Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum, Bakı – Tbilisi – Qars, TANAP, TAP kimi meqa layihələrdən qardaş ölkələrlə yanaşı, digər xalqlar da faydalanır. Beynəlxalq və regional təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələndirilmiş fəaliyyətin və qarşılıqlı dəstəyin davam etdirilməsi və gücləndirilməsi istiqamətində atdıqları addımlar öz bəhrəsini verməkdədir. Azərbaycan – Türkiyə münasibətlərinin belə yüksək səviyyədə inkişafı regionun ümumi tərəqqisinə və sabitliyinə mühüm töhfələr verir. Bu əlaqələr həm də türkdilli ölkələr və xalqlar arasında birlik və həmrəyliyin möhkəmlənməsinə töhfə verən ən mühüm amillərdən biridir. Bu işlərin reallaşmasında Ərdoğanın xidmətləri böyükdür.

Türkiyə ilə Azərbaycan arasında enerji əməkdaşlığı iki ölkə arasında iqtisadi əlaqələrin ən mühüm sütununu təşkil edir. Bu əməkdaşlıq həm Azərbaycanın enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması, həm də Türkiyənin enerji təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycanın təbii qazını Türkiyə üzərindən Avropaya daşıyan Trans Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) 2018-ci ildə istifadəyə verilib. Bu layihə Azərbaycanın Avropa bazarına çıxışını asanlaşdırmaqla yanaşı, Türkiyənin enerji mərkəzi olma reallığını da dəstəklədi. Azərbaycanın Xəzər dənizindəki təbii qaz yataqlarının istismarı və bu qazın Türkiyə vasitəsilə Avropaya nəqli iki ölkə arasında enerji əməkdaşlığının digər mühüm sütunudur. Bu, həm də Türkiyənin enerji təhlükəsizliyi baxımından da böyük əhəmiyyətə malikdir.

Türkiyə və Azərbaycan regional nəqliyyat dəhlizlərini inkişaf etdirmək üçün birlikdə çalışırlar. Bu layihələr həm iqtisadi, həm də strateji baxımdan əhəmiyyətlidir. Azərbaycandan Xəzər dənizi üzərindən Türküstana uzanacaq enerji dəhlizi də işlək duruma gətiriləcəkdir.

2017-ci ildə istifadəyə verilən Bakı – Tbilisi – Qars dəmir yolu xətti Çindən Avropaya uzanan Yeni İpək Yolunun mühüm bir hissəsidir. Türkiyə ilə Azərbaycanı birləşdirərək regional ticarətin inkişafına töhfə verir.

2020-ci il Dağlıq Qarabağ müharibəsindən sonra imzalanan sazişlə gündəmə gələn Zəngəzur dəhlizi Azərbaycanın Qərb hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqəni təmin etmək məqsədini daşıyır. Regional ticarət və daşımaları asanlaşdıracaq bu dəhliz Türkiyənin dəstəyi ilə regional ticarət və nəqliyyat üçün mühüm addım olacaq.

Azərbaycan Ermənistanın işğal etdiyi əraziləri geri aldıqdan sonra Türkiyə də bölgənin yenidən qurulmasına iqtisadi dəstək verməkdədir. Türkiyə Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarda yenidənqurma işlərinə cəlb olunub.

Ərdoğanın missiyalarından biri Cənubi Qafqaz bölgəsində barışın təsis olunmasıdır. Türkiyə lideri Ermənistan – Azərbaycan sülh danışıqlarını dəstəklədiyini dəfələrlə ifadə etmişdir. Ermənistan – Azərbaycan danışıqlarına paralel olaraq Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələrin qurulması və Türkiyə – Ermənistan sərhədlərinin açılması da gündəmdədir. İkitərəfli əlaqələrlə yanaşı, Türkiyə Prezidenti Ərdoğanın təklif etdiyi 3+3 formatı da region dövlətlərinin bir araya gəlib bütün problemləri həll etməsi üçün yaxşı formatdır. Rusiya, Türkiyə, İran, Azərbaycan, Ermənistan və Gürcüstanın daxil olacağı bu format bəzi problemlərə görə hələlik reallaşmır . Məsələn, Gürcüstanın Rusiya ilə problemləri var, Azərbaycanın İran və Ermənistanla bir araya gəlməsi hələ ki, alınmır. Türkiyə ilə Ermənistan arasında problemlər həll olunmayıb.

Ermənistanın baş naziri Nikol Paşinyanın 2023-cü il iyunun 3-də andiçmə mərasiminə dəvət edilməsi Prezident Ərdoğanın böyüklüyünün göstəricisi idi.

Ərdoğan və Türkiyənin Azərbaycana dəstəyi şəxsi, siyasi, milli və iqtisadi ölçüləri olan hərtərəfli strategiyanın bir hissəsidir. Bu dəstək həm Türkiyənin regional liderlik iddiasını gücləndirir, həm də daxili siyasətdə Ərdoğanın populyarlığını artırır. Eyni zamanda, iki ölkə arasındakı tarixi və mədəni əlaqələr bu dəstəyin davamlı olmasını təmin edir. İqtisadi və strateji maraqlar bu münasibətlərin gələcəkdə də davam edəcəyinin təminatıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə Türkiyə – Azərbaycan əlaqələrinin dünyanın digər ölkələri üçün nümunə olduğunu bildirib. Bu illər ərzində tərəflər müxtəlif sahələrdə 256 müqavilə imzalayıblar. Göründüyü kimi, Türkiyə ilə Azərbaycan arasında qardaşlıq əlaqələri bu gün də davam və inkişaf edir. Hər iki dövlət qardaşlıq münasibətlərini qoruyub saxlamaqda və inkişaf etdirməkdə israrlıdır. Bu, regionda sabitlik və sülh üçün çox vacibdir. “Türkiyənin yeni yüz ili” vizyonunu elan etmiş Prezident Rəcəb Tayyib Ərdoğan bu hədəfə çatmaq üçün praqmatik addımlar atmaqdadır.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

## Anan səni ər doğubdu, Ərdoğan!



**Ululardan dərs almısan, ulusan,**
**Amalı pak, əməli düz – doğrusan,**
**Ər kişisən, ər kişinin oğlusan!**
**Sən tək oğlu doğa bilməz hər doğan –**
**Anan səni ər doğubdu, Ərdoğan!**

**Ulu türkün Haqq işinə dayaqsan,**
**Gecə-gündüz savaşdasan, oyaqsan,**
**Bu savaşla sabahlara mayaksan!**
**Hər addımda Haqq göyərdən, Şər boğan –**
**Anan səni ər doğubdu, Ərdoğan!**

**“Dəmir yumruq” Qarabağa yol açdı,**
**Qarı düşmən “Aman!” – deyib dil açdı,**
**Xarıbülbül xilas olub gül açdı!**
**Şuşamıza qonaq gəldi Ərdoğan –**
**Anan səni ər doğubdu, Ərdoğan!**

**Sevincimiz-kədərimiz birdi – bir!**
**Bir millətə iki dövlət pirdi – pir!**
**Dostluğumuz möcüzədi, sirdi – sirr!**
**Türk igidlər fil aşıran, nər boğan –**
**Anan səni ər doğubdu, Ərdoğan!**

***Tahir AYDINOĞLU***

## Türkiyə parlamentində “Xocalıya ədalət!” çağırışı

**Türkiyə Böyük Millət Məclisində Xocalı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**

Bu barədə XQ-yə məlumat verən Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Dərnəyinin işlər müdiri Əvəz Səfərov bildirib ki, parlamentdəki bütün partiyaların qrup başqanlarının iştirak etdiyi mərasim Xocalı qurbanlarının xatirəsinə bir dəqiqəlik sükut və faciəni əks etdirən qısa filmlə başlayıb. Sonra “Xocalı





soyqırımı” sərgisinə baxış olub.

Anım məclisində qardaş ölkənin millət vəkilləri Şamil Ayrım, Uğur Bayraktutan, Filiz Kılıç, Ayyüce Türkeş, Səlçuk Özdağ çıxış edərək Xocalı soyqırımının bəşəriyyət tarixinin ən qanlı səhifələrindən biri olduğunu, soyqırımın yalnız Azərbaycan türklərinə deyil, bütün Türk dünyasına qarşı törədildiyini qeyd ediblər. Onlar Türkiyə parlamentarilərinin Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması üçün çalışmağa davam edəcəklərini bildiriblər.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və Azərbaycan Respublikası Prezidentinin Türk Dövlətləri Təşkilatında səlahiyyətli nümayəndəsi, dövlət xadimi Həsən Həsənov tariximizin ortaq acısı olan Xocalı faciəsini – Qarabağ bölgəsində törədilən soyqırımı aktının heç zaman unudulmayacağını söyləyiblər.

Anım mərasiminin davamında Xocalı soyqırımına həsr olunmuş panel müzakirə təşkil olunub. Paneldə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Türkiyənin Baş Ombudsmanı Mehmet Akarca “Xocalı soyqırımının insan hüquqları baxımından dəyərləndirilməsi” mövzusunda çıxış ediblər.

Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Dərnəyinin təşəbbüsü, Azərbaycanın Türkiyədəki səfirliyi və Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun birgə təşkilatçılığı ilə keçirilən mərasimin sonunda TADİV-in sədri, Türkiyə Respublikası Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar hər il Xocalı şəhidlərinin xatirəsinin Türkiyə Böyük Millət Məclisində ehtiramla qeyd edildiyi üçün təşəkkürünü bildirib.

Anım mərasimi "Xocalıya ədalət" çağırışı ilə sona çatıb.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Azad Xocalının yaraları sağaldılır

## *Ağrıları isə qan yaddaşında əbədiləşir*

**Yenə fevralın sonlarıdır. Xocalıya yenə qar yağıb, bir neçə gündür 33 il əvvəlki kimi ilikləri donduran şaxta var. Onsuz da tam bir qərinədir "fevral" və "şaxta" sözləri "Xocalı"nın sinonimlərinə çevrilib. Hansını eşitsək, qan yaddaşımızın qaysaq bağlamayan yarası göynəyir, gözlərimizin önündə mənfur erməni cəlladlarının törətdikləri qanlı cinayətlərin ağ-qara kadrları canlanır...**

Elə bil dünən idi dinc, günahsız insanlarımızın gecənin qaranlığında başıaçıq, ayaqyalın, ölüm qorxusuyla Qarqarın buzlu suyundan adlamağa, dağlarla, dərələrlə həyatlarına son vermək üçün onları axtaran güllələrdən yayınmağa, qaçmağa çalışdıqları. Elə bil dünən idi insan qanına susamış erməni faşistlərinin "getməyiniz üçün dəhliz yaradırıq" yalanıyla aldadıb ağsaqqal qocalarımızı, ağbirçək nənələrimizi, hamilə bacılarımızı, nur üzlü, hələ həyatın şirinliyini dadmağa macal tapmamış şirin körpələrimizi güllələbaran etdikləri, amansızcasına qətlə yetirdikləri. Elə bil dünən idi Kosalar kəndinin yüksəkliyindən Xocalının yanan evlərinin odunu-alovunu çarəsizliklə, göz yaşları içində izləməyə məcbur olduğum. Və elə bil dünən idi həmin vaxt Xocalıda Aydın adlı həmyaşıdımın özünü Ağdama sağ çatdıra bilmək üçün min bir müsibətlə üzləşdiyi, qanlı gecədə anasını, altı yaşlı qardaşını, daha neçə yaxınını itirdiyi...







Yenə fevralın sonlarıdır. Xocalıya yenə qar yağıb, bir neçə gündür 33 il əvvəlki kimi ilikləri donduran şaxta var. Ancaq indi bir qərinə əvvəl dağıdılmış, yandırılmış, illər sonra azadlığına qovuşaraq yenidən külündən doğulmuş bu yerlərdə güllə səsləri eşidilmir, murdar düşmənin izi-tozu da qalmayıb. İndi həmin həmyaşıdımla – Aydın Əzimovla azad Xocalıdakı yeni tikilmiş evin isti otağında oturub acı günləri xatırlayırıq, bugünümüzə şükür edirik.

### Haçabaş Qarik dedi ki, çıxın bayıra, yoxsa içəri qumbara atacam!"

Aydın təzəlikcə köçüb Xocalıya. Həyat yoldaşı və iki oğlu ilə. Oğlanlarının ikisi də məktəblidir. Böyüyü 11-ci sinifdə oxuyur, atasının faciəni yaşadığı yaşdadı, o birinin isə 13 yaşı var. Söhbətə, necə deyərlər, "kol-kos qıraraq" başlayırıq. Özümdən bilirəm, Xocalıdan danışmaq asan deyil. Üstəlik, o dəhşətləri yaşamış biri üçün soyqırımı gecəsini xatırlamaqdan çətin nə ola bilər?

– Gecə saat 11 olardı. Ermənilər şəhəri hər tərəfdən atəşə tutmağa başlamışdılar. Elə bildik yenə həmişəki kimi atıb dayanacaqlar. Mən, anam, qardaşlarım qaçıb qonşuluqda Şiraslan kişinin həyətində qazılmış daldanacağa girdik. Başqa qadınlar və uşaqlar da vardı orada. 6 kişi isə daldanacağın üstündə yeni tikilmiş kiçik daş otaqda dayanıb bizi qoruyur, ermənilərlə atışırdılar. Özü də ov tüfəngləri ilə. Dayım da onların arasında idi. Ancaq yaxşı silahlanmış düşmən bir-bir bizimkiləri qətlə yetirdi, tezliklə hamısı şəhid oldu. 3 erməni gizləndiyimiz daldanacağa yaxınlaşdı. Ballıcadan Qarik vardı, "Haçabaş Qarik" deyirdilər, əyildi daldanacağın ağzına, başını soxdu içəri. Avtomatının kəməri də aşağı sallanırdı. Azərbaycan dilində dedi kim varsa çıxsın bayıra, yoxsa içəri qumbara atacam! Məcbur hamımız çıxdıq çölə. Bizi sıraya düzdülər. Gülə-gülə, lağla dedilər ki, sakit durun, sizi Noraguha (Xocalı rayonunun Təzəbinə kəndi, vaxtilə ermənilər kəndin adını dəyişdirərək "Noraguh" adlandırıblar – M.R.) aparacağıq, oradan da buraxacağıq gedəsiniz. Ancaq biz artıq bilirdik ki, girov düşmüşük, düşmən bizə rəhm edən deyil. Yanımızda qonşuluqda yaşayan Məleykə adında qadın vardı, can qorxusu ilə dedi mən Xocalıdan deyiləm, Hadrutdanam, bura köçkün kimi gəlmişik. Ermənilər onu çiynindən güllə ilə atdılar, avtomatın qundağı ilə vurdular ki, sənə demədik sakit ol?!

### 3 saatlıq girovluqdan qaçış...

Vəhşiləşmiş, türk qanına susamış düşmən Aydıngili üç saata yaxın ayaq üstə girov saxlayıb ki, özləri ilə aparsınlar. Yəqin şəhərin hər yerində gedən qanlı döyüşün tezliklə onların qələbəsi ilə yekunlaşacağını gözləyirmişlər. Onsuz da döyüşün aqibəti əvvəlcədən bəlli idi – bir tərəfdə yaxşı silahlanmış, üstəlik, keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının hərtərəfli köməyindən, zirehli texnikalarından istifadə edən erməni daşnakları, bir tərəfdə isə ən yaxşı halda yüngül atıcı silahlarla, ov tüfəngləri ilə öz ev-eşiyini, ailəsini müdafiə etməyə çalışan mülki insanlar. Ancaq Aydının atası Abasqulunun ailəsini xilas etmək üçün özünü yetirməsi, onları ölüm qorxusu altında saxlayan ermənilərdən birini yaralaması girovların yolunu açır. Digər iki erməni yaralını götürüb qaçmağa məcbur olur. Aydıngil isə Xocalının Ağdam istiqamətindəki çıxışına, Qarqar çayına doğru yol alırlar. Aydın xilas olmaq üçün keçdikləri əzablarla dolu yolçuluğu belə xatırlayır:




– Daha atam da yanımızda idi deyə, heç birimiz qorxmurduq. Qarqar çayına çatanda məndən balaca qardaşım Ceyhunu aldım kürəyimə ki, çayı keçirim. Ancaq ayağımdakı dabanları hündür ayaqqabı sürüşürdü. Gördüm çayı belə keçsəm, yıxılacam suya. Ona görə də ayaqqabımı çıxarıb tulladım. Qarqarı keçəndən sonra gördüm corabla da yerimək mümkün deyil. Çünki yeridikcə qar corabın üstünə yapışırdı, qopub düşmürdü. Corablarımı da çıxarmağa məcbur oldum. Şalvarımın ayaqlarını çırmaladım, qarın üstündə ayaqyalın yeriməyə başladım. Canımızı qurtarmaq üçün mütləq Ağdam tərəfə, azərbaycanlıların yaşadıqları kəndlərə keçməliydik. Kətikdağ istiqamətində gedirdik. Biz Kətikdağa yaxınlaşanda artıq hava işıqlaşırdı, səhər açılırdı. Yuxarıdan aşağıya doğru enməyə başlayanda qarşıda atışma düşdü...



### "Sonradan bildim ki, anam və balaca qardaşım şəhid olub"

–Daha doğrusu, yolu üç tərəfdən mühasirəyə almış ermənilər dinc insanlara atəş açırdılar. Özü də təkcə atıcı silahlarla deyil, həm də zirehli texnika ilə. Sağdan, soldan, bir az yüksəklikdə kilsə var idi, oradan xocalılıları qırmağa başladılar. Rus hərbçilərə məxsus piyadaların döyüş maşınınından (PDM) əliyalın adamların üzərinə mərmilər yağdırırdılar. Bax o kadrlarda gördüklərimiz başının bir hissəsi, bədəninin müəyyən nahiyələri qopmuş meyitlər ki var, onları PDM-lə vurmuşdular!

Atamla mən ona görə geridən gedirdik ki, atam əlindəki avtomatla arxanı qoruyurdu. Elə bilirdik düşmən arxamızca gəlir. Sən demə, qarşıda yüksəkliklərdə mövqe tutaraq bizi gözləyirmişlər. İrəli getməyin mümkün olmadığını görüb geri qayıtdıq, bu dəfə Kətikdağ tərəfdən deyil, Naxçıvanik istiqamətindən irəli getməyə başladıq. Orada da bizi düşmən atəşi qarşıladı. Ancaq atam onlarla döyüşə-döyüşə bizə, belə demək mümkündürsə, yol açdı və hər ikimiz dağı aşıb Ağdamın Şelli kəndinə gedə bildik. Şellidən də Ağdamın özünə gəldik, yalnız orada mənə geyinməyə rezin uzunboğaz çəkmələr verdilər...

Biz Ağdama gələnə qədər elə bilirdik ki, anamgil Kətikdağ istiqamətində atışma başlamamışdan əvvəl yolu keçib xilas olublar. Ancaq sonradan anamın, altı yaşlı qardaşım Natiqin şəhid olduğunu öyrəndim!





### İndi yağan qarına şükür, Xocalı!

...Yenə fevralın sonlarıdır. Xocalıya yenə qar yağıb, bir neçə gündür 33 il əvvəlki kimi ilikləri donduran şaxta var. Ancaq bu qar, bu şaxta bir qərinə əvvəlki kimi bizi üşütmür, yollarımızı kəsər deyə, qorxmuruq. Xocalının, mənim şəhid şəhərimin qisası alınıb, sinəsi mənfur düşməndən təmizlənib, azadlığına qovuşub, yolları açılıb, əzəli sahibləri geri qayıdıb. Elə yağı üzərindəki şanlı qələbələrimizin ən böyük təcəssümü, zəfər yürüşümüzün ən parlaq zirvəsi də rəşadətli ordumuzun Qarabağda separatçılara, soyqırımı cəlladlarına qarşı keçirdiyi antiterror tədbirlərindən az sonra, 2023-cü il oktyabrın 15-də müqəddəs üçrəngli bayrağımızın Xocalıda ucaldılması idi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qanlı soyqırımının 32-ci ildönümündə Xocalıda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dediyi kimi, biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik: "Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik".

Bəli, biz Xocalını azad edənə qədər sakitləşmədik! Və bir vaxtlar Kosalar kəndinin yüksəkliyindən Xocalının yanan evlərinin odunu-alovunu çarəsizliklə, göz yaşları içində izləməyə məcbur olmuş mənə külündən doğulmuş, xarabalıqları üzərində cənnət kimi qurulan, bərpa edilən Xocalını yenidən görmək də məhz Müzəffər Ali Baş Komandanımızla görüş günü qismət oldu. Bugünsə üstündən cəmi bir il keçib, daimi yaşamaq üçün doğma ata-baba yurduna qayıtmış Aydınla oturub Xocalının xoş sabahlarından danışırıq. Aydın deyir ki, hava imkan verdikcə yeri belləyirlər, torpağı yaz əkininə hazırlayırlar. Axı Xocalının torpağı çox məhsuldardır. Alın təri ilə suvaran olsa, ildə iki dəfə məhsul verir. Elə qarın yağmağı da yaxşı oldu. Çünki qar torpağa bərəkət bəxş edir. Görün, ürək sızladan söhbətimizin sonu haralara gəlib çıxdı, nələri müzakirə edirik? Qeyri-iradi ikimizin də dodaqlarımızdan bizə bugünləri bəxş edən Tanrıya şükran duaları qopur:

–Yağan qarına, şükür, Xocalım, azadlığına şükür! Cəlladların Bakıda, məhkəmə qarşısında cavab verir, şəhidlərinin ruhu dinclik tapıb, doğma yurdum! Qisasın alınıb, oğul-qızların geri dönüb, ilahi ədalət bərqərar olub, əziz Vətən! Allah sənə bir daha qara günlər göstərməsin! Amin!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

## Haaqada Xocalı mövzusunda kitabların təqdimatı

**Erməni cəlladlarının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində dinc insanlara qarşı törətdikləri qanlı soyqırımı aktı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində daha bir layihə reallaşdırılıb.**



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətindən "Xalq Qəzeti"nə verilən məlumata görə, Niderland krallığının Haaqa şəhərində Xocalı sakini, yazıçı-publisist Səriyyə Müslümqızının "Onlar heç zaman böyüməyəcəklər" ("Ze werden nooit volwassen") və "Xocalıdan gələn var" ("Geesten uit Khojaly") adlı kitablarının Holland dilində təqdimatı keçirilib. Öz ailə üzvlərini, doğmalarını da Xocalı faciəsində itirmiş S.Müslümqızının kitabları holland dilinə yazıçı Henri van Rens təfəfindən tərcümə olunub.

Dəhşətli soyqırımı gecəsində erməni faşistləri tərəfindən amansızcasına qətlə yetirilmiş qadınların və uşaqların ölüm anını təsvir edən kitablar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Kitabların holland dilinə tərcümə edilməsinin əsas səbəblərindən biri isə Beynəlxalq Ədalət Məhkəməsinin məhz Niderland Krallığında yerləşməsidir.

Təqdimat mərasimində çıxış edən müəllif bildirib ki, ədalətin ocağı sayılan Niderland Xocalı qətliamını törədənlərin cəzalandırılmasını tələb etməlidir. 32 ildən sonra doğma yurduna dönərək burada yaşadığını bildirən S.Müslümqızı tədbir iştirakçılarına Xocalıya bu gün yenidən həyatın qayıtması, burada aparılan bərpa-quruculuq işləri barədə məlumat verib, Vətənimizin, xalqımızın bir daha belə məşəqqətlərlə üzləşməmisini arzulayıb.

Qeyd edək ki, Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı Niderland Krallığında anım mərasimi də keçirilib. Mərasim çərçivəsində Haaqa şəhərində Xocalı faciəsi qurbanlarının xatirəsini əbədiləşdirən abidə ziyarət olunub, önünə əklil və çiçəklər qoyulub. Daha sonra anım mərasimini təşkil edən Holland-Azərbaycan Türk Kültür Dərnəyi başqanının videoçıxışı izlənilib.

Məlumatda, həmçinin bildirilir ki, Xocalı soyqırımı qurbanlarının xatirəsi Almaniyada da yad ediləcək. Mərasimdə Xocalıya qayıdış, Prezident İlham Əliyevin Xocalıya səfəri və burada doğma yurda dönən xocalılarla görüşünü əks etdirən videolar nümayiş olunacaq.

***XQ***

# Leyla Əliyeva 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 24-də işinə başlayan 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirak edir.**



Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin rəhbəri Abdullah Ər-Rabiənin dəvəti ilə forumda təmsil olunan Leyla Əliyeva "Qlobal humanitar könüllülük: perspektivlər və hədəflər" adlı paneldə çıxış edərək Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda və digər ölkələrdə həyata keçirilən humanitar layihələr barədə məlumat verib.

Ər-Riyad şəhərində iki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun himayəsi altında, Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin təşkilatçılığı ilə keçirilən forumda münaqişələr zamanı humanitar diplomatiya, fövqəladə hallarda media və kommunikasiya strategiyası, süni intellektin humanitar yardım fəaliyyətində rolu, beynəlxalq hüquq çərçivəsində humanitar yardım sahəsində mövcud problemlər və gələcək imkanlar müzakirə edilir.



Leyla Əliyeva forumun gündəliyindəki məsələlərin qlobal əhəmiyyətini vurğulayaraq, Azərbaycanın müstəqilliyini yenidən əldə etdikdən sonra aparılan uğurlu siyasət nəticəsində humanitar yardım alan dövlətdən donor dövlətə çevrildiyini bildirib. Heydər Əliyev Fondunun regionun nəhəng qeyri-hökumət təşkilatı kimi 2004-cü ildən genişmiqyaslı humanitar layihələr həyata keçirdiyini qeyd edib. Fondun bir sıra istiqamətlərdə fəaliyyətini önə çəkən Leyla Əliyeva təhsil, səhiyyə və sosial sahələr üzrə layihələrin beynəlxalq səviyyəni əhatə etdiyini, bu fəaliyyətin tərəfdaş təşkilatlar və ölkələr tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Leyla Əliyeva müasir dünyada iqlim dəyişiklikləri kimi böhrana diqqət çəkərək ətraf mühitin və təbiətin qorunması istiqamətində, eləcə də aclığın aradan qaldırılması kimi problemlə üzləşən ölkələrə yardım sahəsində güclərin səfərbər olmasının vacibliyini vurğulayıb. O, Azərbaycanın könüllülük fəaliyyəti üzrə uğurlu modelə sahib olduğunu bildirərək, mövcud humanitar problemlərin həllində könüllülük proqramlarının inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.



Qeyd edək ki, fevralın 24–25-də keçirilən forumda bir sıra ölkələrin yüksəksəviyyəli rəsmiləri, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, BMT-nin Uşaq Fondu və digər nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, donor təşkilatlar, beynəlxalq ekspertlər və tədqiqatçılar təmsil olunub.

# Hikmət Hacıyevin Ankara görüşləri



**Türkiyə xarici işlər naziri Hakan Fidan Ankarada Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.**

Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.

* * *



**Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ankaraya səfəri çərçivəsində Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altunla da görüşüb.**

Bu barədə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov "X"də yazıb.

Bildirilib ki, görüş zamanı Azərbaycanla Türkiyə arasında media və kommunikasiya sahəsində ikitərəfli əməkdaşlıq, qlobal və regional gündəlikdəki məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# Ruben Vardanyanın təqsirləndirildiyi cinayət işi üzrə məhkəmə istintaqı başlayıb

**Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri və digər ağır cinayətlərdə təqsirləndirilən Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası fevralın 25-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

İclasın əvvəlində Ruben Vardanyan və müdafiəçisi vəsatət verərək məhkəmə tərkibinə yenidən etiraz ediblər.

Dövlət ittihamını müdafiə edən prokurorlar Vüsal Əliyev və Fuad Musayev vəsatətə münasibət bildirərək qeyd ediblər ki, eyni məzmunlu vəsatətə əvvəlki məhkəmə proseslərində baxılaraq müvafiq qərar qəbul olunub. Habelə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində hakimə etirazın konkret hallarının müəyyən edilməsinə və həmin etirazın əsaslandırılmasının zəruri olmasına dair tələblər təkrarən xatırladılıb.

Vəsatətdə qeyd edilən məsələlərə dair konkret əsasların müəyyən olunmadığını bildirən prokurorlar etirazın baxılmamış saxlanılmasını xahiş ediblər.

Bundan sonra məhkəmə etiraza baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra elan edilən qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

Daha sonra Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev məhkəmə istintaqında sübutların tədqiq edilmə ardıcıllığına dair ittiham tərəfinin təklifini səsləndirib.

Təqsirləndirilən şəxs R.Vardanyan və onun müdafiəçisi Avraam Berman sübutların tədqiq olunma ardıcıllığına dair hər hansı təklif irəli sürməyiblər.

Bundan sonra R.Vardanyan aclıq aksiyası keçirdiyinə görə özünü yaxşı hiss etmədiyini söyləyib. Hakim təqsirləndirilən şəxsin həkim müayinəsindən keçməsi üçün fasilə elan edib.

Fasilədən sonra məhkəmə iclasına sədrlik edən hakim Zeynal Ağayev cinayət prosesinin tərəflərinə məhkəmə istintaqında sübutların tədqiq edilmə qaydasını izah edib.

Ardınca təqsirləndirilən şəxsə sərbəst ifadə vermək təklif olunub, lakin o, ifadə verməkdən imtina edib.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxsə ittiham olunduğu cinayət əməlləri üzrə suallar verməyə başlayıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev təqsirləndirilən şəxs R.Vardanyandan Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunması, azərbaycanlıların zorla didərgin salınması, əsir və girov götürülmüş şəxslərə işgəncələrin verilməsi və öldürülməsi, Azərbaycan Respublikasına maddi ziyan vurulması və digər faktlara dair münasibətini soruşub.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov, dövlət ittihamçıları Fuad Musayev və Vüsal Abdullayev təqsirləndirilən şəxsin Azərbaycanın suveren ərazilərinin işğal olunmasına təkan verən hadisələr, Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və Davit Manukyanla münasibətləri, humanitar məqsədlər adı altında fəaliyyət göstərən "Avrora Humanitar Təşəbbüs Fondu", Rusiya Federasiyasının vətəndaşlığından çıxma və Ermənistan Respublikasının vətəndaşlığını qəbul etmə səbəbləri barədə suallar ünvanlayıb.

Eyni zamanda, Robert Köçəryan, Serj Sarkisyan, Samvel Babayan, Vitali Balasanyan Mikaeli, Zori Balayan və digərləri ilə əlaqələri barədə suallar verilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxsə qondarma rejimin dövlət naziri vəzifəsinə təyin edilməsi qaydası, həmin vəzifəyə təyin olunmasına zəmanətin kim tərəfindən verilməsi, bununla bağlı məsləhətləşmələr apardığı insanların şəxsiyyəti, Azərbaycan Respublikasının əvvəllər işğal altında olmuş hansı ərazilərinə səyahət etməsi, "Biz və Bizim dağlar Ərazi İnkişaf Agentliyi" və "Artsaxın Təhlükəsizliyi və İnkişaf Cəbhəsi Hərəkatı"nın fəaliyyət istiqamətləri barədə suallar verib.

Bundan sonra R.Vardanyanın cinayət işinin materiallarında olan müsahibəsi nümayiş etdirilərək tərcüməçinin iştirakı ilə tədqiq olunub.

Dövlət ittihamçıları məhkəmədə nümayiş etdirilən müsahibədən irəli gələn bir sıra məqamlar barədə təqsirləndirilən şəxsə suallar ünvanlayıb, o cümlədən Ermənistan ərazisindən keçərək qanunsuz olaraq Azərbaycan Respublikasının suveren ərazisi olan Qarabağa gəlməsi, keçmiş qondarma rejimin ərazisində dövriyyədə olan pul vahidi, həmin qondarma rejimin ərazisində Ermənistan Respublikasının pasportundan istifadə olunma səbəbi, Ermənistan Respublikasının silahlı qüvvələrinin orada yerləşməsinin məqsəd və əsasları, R.Vardanyan tərəfindən Azərbaycan və erməni xalqlarının birgə yaşamasının qeyri-mümkünlüyünü ifadə edən, habelə xalqlar arasında nifrət və ədavəti oyadan xarakterə malik çıxışların edilmə səbəbi və məqsədi, qondarma rejimin maliyyələşdirilməsi forması və Ermənistan dövlətinin bu prosesdə iştirakı, "dövlət naziri" vəzifəsində qısa müddət olmasının səbəbi barədə suallar verib.

Təqsirləndirilən şəxs Ruben Vardanyan ona verilmiş sualların heç birini cavablandırmayıb.

Məhkəmənin növbəti iclası martın 4-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

*XQ*

# Qan sızan rəsmlər

**Düz bir qərinə – 33 il əvvəl törədilmiş Xocalı faciəsi Azərbaycan incəsənətinin əksər sahələrində öz emosional bədii ifadəsini tapıb. Müxtəlif bölgələrdə xatirə-memarlıq kompleksləri inşa edilib, monumental heykəllər ucaldılıb, bu mövzuda kinofilmlər çəkilib, tamaşalar səhnəyə qoyulub, musiqi və ədəbi əsərlər yazılıb.**












Milli təsviri sənətimizdə bu mövzu öz təcəssümünü yetərli qədər tapıb. Ən təsirli, geniş təsviri-nəqledici mahiyyətə malik tabloları rəssam Nazim Məmmədov işləyib. O,1992–2004-cü illərdə Xocalı faciəsi mövzusunda 40-dan çox rəngkarlıq və qrafika əsəri yaradıb. Əsasən multiplikator-rəssam, kitab tərtibatçısı və abstrakt rəngkarlıq tablolarının müəllifi kimi tanınan Nazim Məmmədov "Xocalı harayı"nı sənətkar qəlbinin harayı, düşüncəsi kimi təqdim edə bilib. Buraya məhv edilmiş şəhərin və onun sakinlərinin faciələrini böyük planda əks etdirən "Xocalının son günü", "Xocalı od içində", "Ata, oğul, ər! Bizi xilas edin!", "Köməksiz Xocalı" kimi əsasən iri formatlı çoxfiqurlu kompozisiyalar daxildir. Elə tablolar da var ki, onlarda bir ailənin, yaxud hətta bir insanın faciələri öz əksini tapır. Bu əsərlərin təkcə adları – "Ailə əsirlikdə", "Onu asıblar", "Mən yetim qaldım", "Qohumlarım həlak oldu, mənsə sağ qaldım", "Xocalı Qavroşu", "Körpənin ölümü" – onların süjetini çox dolğun ifadə edir. "26 fevral, gecə" tablosu üslubiyyatına görə abstrakt sənətə yaxındır, başqa birisi – "Bu qız üçün günəş Xocalıda batdı" tablosu forma quruluşu baxımından kubizmi xatırladır.

"Xilaskarı gözləyən gözlər" kompozisiyasında isə bir neçə ağlar qadın gözü, sanki, ağlayan buluda dönüb. Burda yüksək bədii sənətkarlıqla insan imkanlarının son həddində, dərin psixoloji sarsıntıların, tarıma çəkilmiş əsəblərin səbrlə, dözümlə çarpışdığı, baş-başa gəldiyi o mənəvi uçurum canlanır.

Türkiyədə yaşayan azərbaycanlı rəssam Məhəmməd Əliyev Xocalı mövzusunda təsirli tabloların müəllifidir. AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Ərtegin Salamzadə onun haqqında yazır: "Rəssamın yaradıcılığında erməni vandalizminə qarşı etiraz xüsusi bir səhifə təşkil etmişdir. Azərbaycan xalqının fəryadı, acı səhnələri və dəhşətli mənzərələr onun əsərlərində əyaniliyi və yaddaqalanlığı ilə bədii əksini tapmışdır. M.Əliyev Xocalı faciəsini insanlıq tarixində dəhşətli faciələrdən biri sayaraq qəlb ağrısı ilə "Xocalı vəhşiliyi" tablosunu yaratmışdır. Anaların ahı, fəryadı duyulan bu əsərdə gecə, soyuq havada silahsız sakinləri işgəncə verib öldürən ermənilər vəhşi heyvan şəklində təsvir edilmişdir. Əsərdə diqqətçəkən bir detal da əlində sülh, əmin-amanlığı simvolizə edən göyərçin tutmuş uşaqdır. Həqiqətən də, daşıdığı mənasına görə çox təsirli bir bağlılıqdır. Uşaq əlində quşu tutaraq azad olmaq istəyir, ölmək istəmir, savaşmaq istəmir… M.Əliyev ermənilərin qabağına çıxan günahsız insanların bir neçəsini əlində bıçaqla verməklə Azərbaycanın igid oğullarının əyilməz qürurunu, mərdliyini, Vətənin keşiyində durduqlarını göstərməyə çalışmışdır. Əsərin bədii təsir gücü sayəsində hər tamaşaçıda günahsız insanlara mərhəmət, faciəni törədənlərə isə sonsuz nifrət hissi oyanır...

Məhəmməd Əliyevin soyqırımı ilə bağlı digər bir əsəri "Şəhid əsgər" adlı tablosudur. Rəssam bu əsəri şəhid olmuş xalası oğluna həsr edərək, "Torpaq, uğrunda ölən varsa Vətəndir" deyərək, kətan üzərində onu bir heykələ, şəhidlərin ölməz bir abidəsinə çevirir". Rəssamın "Əsir əsgər", "Xocalıda qadın qırğını" adlı əsərləri də acı, sarsıdıcı kədər, hüzn, iztirab və dramatik əhvali-ruhiyyə ilə doludur.

Uzun müddət Almaniyada yaşayan, lakin öz xalqının faciələrinə biganə qala bilməyən soydaşımız Əşrəf Heybətovun "Xocalı" pannosunda da buna bənzər emosional gərginlik, ağrı və kədər hissləri özünü göstərir. Bu monumental əsərin kolorit həlli öz ifadəsini qan-qırmızı və göy rənglərin təzadlı kəsişməsində tapır və dünyanın sonu – apokalipsis görüntüsü ovqatı yaradır.

İncəsənətdə Xocalı faciəsi təkcə rənglər yox, həm də daş, plastik obrazlar vasitəsilə öz təcəssümünü tapır. Bakıda, metronun "Xətai" stansiyası yaxınlığında memar Camal Rəşid Əlizadə, Əməkdar rəssam Aslan Rüstəmov və oğulları – Teymurla Mahmudun birgə işi olan "Ana harayı" abidəsi (2008) ən rəsmi və ən kütləvi ziyarət məkanına çevrilib. Heykəltəraşlar soyqırımı ideyasını son dərəcə lakonik və sadə vasitələrlə ifadə etməyə müvəffəq olublar. Qara mərmərlə üzlənmiş hündür postament üzərində üz-gözündə, duruşunda dərin kədər və hüzn əks olunan, irəliyə doğru uzatdığı əlləri üstündə öldürülmüş körpəsini saxlayan gənc ana fiquru ucalır. Postamentin aşağı hissəsində müəlliflər soyqırımı qurbanlarının xatirəsinə tuncdan tökülmüş əbədi qəbirüstü əklil yerləşdiriblər.

Xalq rəssamı, heykəltəraş Natiq Əliyev isə Mexikoda (2012), Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda (2012) və Ankarada (2014) Xocalı qurbanlarının xatirəsinə monumental abidələrin müəllifidir. Bu heykəllər maraqlı kompozisiya həlli, plastik formaların mütənasib quruluşu, dramatik məzmunu ilə seçilir.

Vaqif Ucatayın bütün dünyanı dolaşmış "Xocalı" plakatında köksünə xəncər sancılmış körpə təsvir olunub. Bu kompozisiya təsir gücünə görə soyqırımı mövzusunda işlənmiş ən riqqətli, yaddaqalan əsərlərdən biridir. Rəssam həmçinin dinc azərbaycanlıların erməni quldurları tərəfindən törədilən soyqırımına həsr olunmuş "Bax! Gör! Xatırla!" adlı qrafik əsərlər seriyası yaradıb. Burada heç bir rəssam təxəyyülü, mücərrəd bədii ümumiləşdirmə yoxdur – rəsmlərdəki dəhşətlər real olayları əks etdirir. 49 qrafik vərəqədən ibarət olan seriyada əks edilmiş tükürpərdici görüntüləri V.Ucatay möcüzə nəticəsində sağ qalaraq əsirlikdən qurtulmuş Xocalı sakinlərinin dilindən eşitdikləri əsasında işləyib.

Tanınmış qrafik rəssam Oqtay Quliyev və oğlu Vüqar Quliyevə də Xocalı mövzusu yad deyil. Oqtay müəllimin serial rəsmlərinin, az qala, hər birində dərin kədərə qərq olmuş milli geyimli qadınlar təsvir olunub. Vüqarın isə "Xocalı qaçqını", "Qaçqın qadın", "Təcavüz", "Soyqırımı" qravüraları, eləcə də "Faciə" triptixi diqqət çəkir.

…Xocalı faciəsi təkcə azərbaycanlı rəssamların deyil, bir insan kimi bu dəhşəti kənardan biganəliklə seyr edə bilməyən xarici rəssamların yaradıcılığında da yer alıb. Fransız rəssamı Reno Baltzinger bu mövzuya ağ fonda qırmızı və qara rənglərlə işlənmiş bir neçə əsər həsr etmişdir. Rəsmlərdəki qırmızı və qara rənglər kətan üzərində axaraq ölüm və qan assosiasiyası yaradır.

Rəssamlar Ağəli İbrahimov, Sara Manafova, Mais Ağabəyov, Bəyim Hacızadə, Namiq Zeynalov, Rafiq Heydərzadə, heykəltəraşlar Sahib Quliyev, Xanlar Əhmədzadə, Zakir Əhmədov, Nəriman Məmmədov, Məmməd Rəşidovun Xocalı faciəsini əks etdirən işləri də sərgilər çərçivəsində nümayişlənir.

Bəli, təsviri sənət ustalarımız – rəssamlar, memarlar, heykəltəraşlar da öz əsərlərində ağrılara, itkilərə yaddaqalan "bədii güzgü" tutaraq, tarixi həqiqətləri rəngə, cizgiyə və bərk materiallara hopdurub, əbədiləşdiriblər. Onlar bu gün də yaşadıqları zamanın, şahidi olduqları hadisələrin bədii salnaməsini yaratmaqla tarix səhifələrinə çevirir, gələcək nəsillərə ötürürlər.

***Ə.DOSTƏLİ***
***XQ***

# Günahsız qızcığazın hekayəti



**Belarusun paytaxtı Minsk şəhərinin yaxınlığındakı Loqoyski rayonunda Xatın Dövlət Memorial Kompleksi, ərazidəki hündür abidə, 185 simvolik məzar, faciəni xatırladan müxtəlif eksponatlar 22 mart 1943-cü ildə alman faşistlərinin benzin töküb yandırdığı insanların bəd taleyini əks etdirir. Orada 149 nəfər, o cümlədən ən kiçiyinin 7 yaşı olan 75 uşaq yanaraq külə dönüb. Mən 1978-ci ildə Xatın kompleksində olarkən, o dəhşətli mənzərəni ürək ağrısı ilə seyr edərkən heç ağlıma belə gəlməzdi ki, cəmi 14 il sonra – 1992-ci il fevral ayının şaxtalı bir gecəsində, oxşar faciəni–soyqırımını Xocalı sakinləri də yaşayacaq, erməni faşistlər bədnam 366-cı motoatıcı alayının köməkliyi ilə bu Azərbaycan şəhərini işğal edərək viran qoyacaqlar. Erməni qəsbkarları Xatında olduğu kimi, insanları evlərində diri-diri yandırıb, əliyalın sakinləri yatdıqları yerdəcə amansızlıqla qətlə yetirəcəklər.**

Hazırda Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bir sıra beynəlxalq təşkilat, 18 dövlətin qanunverici orqanı, o cümlədən Pakistan, Sudan, Peru, Honduras, Panama, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, İordaniya, Ruminiya, Şotlandiya faciəni parlament səviyyəsində qətliam kimi tanıyıblar. ABŞ-ın 24 ştatı da Xocalı qətliamını rəsmi şəkildə tanımışdır.

Xocalıda sağ qalmış insanların helikopterlə təxliyəsində yaxından iştirak etmiş əzmkar bir insan– hazırda İsraildə yaşayan Əsəd Fərəcov söyləyir ki, 26 fevral 1992-ci ildə Xocalıdan axırıncı helikopteri yola salarkən, donaraq həlak olmuş ananın qucağındakı körpə qızcığaz nəzərimi cəlb etdi və onu da ölü bilərək Ağdamda məscidə təhvil verdim. Sonra bildim ki, məsciddə meyitlər yuyulan zaman bir tibb bacısı bu 2 yaşlı qızcığazın nəfəs aldığını görərək evinə aparmış və sonradan uşağın cibindəki kağızla kimliyini öyrənib onu ana nənəsinə qovuşdurmuşdur.

2019-cu ildə Bakı Kitab evində Xocalı tədbiri zamanı "Xocalıya ədalət!" kampaniyasının təşəbbüsçüsü – Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın məsləhəti ilə bu qızın uzun müddət axtarışında olsaq da, nəticə hasil etməmişdik. Nəhayət, 2022-ci ildə Opera və Balet teatrında həmin xanımla – Kübra Mahmudova ilə görüşmək tanınmış fəal, şair Nigar Hasan-Zadəyə nəsib olmuş və Nigar xanım onu Əsəd Fərəcovla görüşdürmüşdür. Mən isə 26 fevral 2024-cü ildə Bakı Beynəlxalq Muğam Mərkəzində "Xocalıya ədalət!" kampaniyası çərçivəsində növbəti tədbir zamanı Kübra xanımla tanış olmaq imkanı qazandım. Təqdim etdiyim bu şəkildə Kübra Mahmudova (o ailəlidir, üç uşaq anasıdır) sağda, Əsəd Fərəcov isə ortada dayanandır.

Kübra xanım o günlərdən – talesiz uşaqlığından danışanda kövrəlsə də, təskinliyini bunda tapır ki, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi və sərkərdəlik məharəti, qəhrəman ordumuzun əzmkarlığı və xalqımızın birliyi sayəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında 24 saatdan az çəkən antiterror əməliyyatı nəticəsində Qarabağımız tam azad edilmiş, suverenliyi tam bərpa olunmuş Azərbaycan torpağı, o cümlədən Xocalı şəhəri bu gün abad, yaraşıqlı, müasir bir məkana çevrilməkdədir...

***Fəxrəddin MEYDANLI,***
***şair-publisist***

# Xocalım, ay Xocalım!

*Zəlimxan YAQUB, Xalq şairi*



**Bu dağların qoynunda yaşıl bir kənd varıydı,**
**Əlvan saray, güllü bağ, gen aynabənd varıydı.**
**Neçə dodağı şəkər, söhbəti qənd varıydı,**
**Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.**
**Yoxdu daha, nağıldı,**
**İtdi, batdı, dağıldı.**
**Mənim şirin qafiyəm, mənim üççə hecalım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Ağzından alov saçan silahlar yedi səni,**
**İştahalar, nəfslər, tamahlar yedi səni.**
**Bağışlanmaz, yuyulmaz günahlar yedi səni,**
**Göydə Allahı danan "allah"lar yedi səni,**
**Heç Allah götürərmi qisasımı gec alım?**
**Xocalım, ay Xocalım!**

* * *

**Neçə ki yer üzündə yamanlar, pislər yaşar,**
**İçi dolu qurd olan nankor xəbislər yaşar,**
**Dumanlı beyinlərdə dumanlı hisslər yaşar,**
**Neçə ki bu şeytanlar, cinlər, iblislər yaşar,**
**Gərək hər gün, hər saat yağılardan öc alım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Quruyub cadar olmuş dodaqlara nə deyim?**
**Kəsilmiş biləklərə, barmaqlara nə deyim?**
**Qar içində buz olmuş ayaqlara nə deyim?**
**Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?**
**Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Nə möcüzə göstərim, nə cürə imkan tapım,**
**Qan itirən kəslərin damarına qan tapım?**
**Hansı yolu seçim ki, dərdinə dərman tapım,**
**Amansız cəmiyyətdə sənə nə aman tapım?**
**Millətəmi güvənim, torpaqdanmı güc alım?**
**Xocalım, ay Xocalım!**

* * *

**Sənə yas verənlərə yas dalınca yas gərək,**
**İgidlərim öyməli, oğullarım xas gərək.**
**Dəmirdən geyim gərək, poladdan libas gərək,**
**Ölümə ölüm gərək, qisasa qisas gərək,**
**Gərək səndən ötəri qala yıxım, bürc alım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Həyat şirin, yol çətin, ölüm ucuz, can baha,**
**Baş qaldırıb ağrılar, dözmür ürəklər daha.**
**Təslim olmaq yaraşmaz bu gün ağrıya, aha,**
**Yalvarmaq istəyirəm peyğəmbərə, Allaha,**
**Haqqımı qaytarmağa bir ömür də borc alım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Töküldülər üstünə quduz kimi, ac kimi,**
**Şumladılar yer kimi, qırdılar ağac kimi,**
**Dağıtdılar çöllərə əsir, yalavac kimi.**
**Səni qaldırammasam başım üstə tac kimi,**
**Tarixin yaddaşında çətin qalxım, ucalım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Bizdən ürək istədin, ürək vermədik sənə,**
**Bizdən kömək istədin, kömək vermədik sənə,**
**Bizdən qanad istədin, lələk vermədik sənə.**
**Aylarla su vermədik, çörək vermədik sənə,**
**Buraxdıq özbaşına əlimizdən cənnəti,**
**Sənsiz nəyimə gərək Məkkə görüm, Hac alım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Təzədən yandı xallar muğamın nəvasında,**
**Bayquşlar ötür bu gün bülbülün yuvasında.**
**Biqeyrət oğulların şan-şöhrət havasında,**
**Kəmfürsət övladların vəzifə davasında,**
**Harayına çatmağa tapılmadı macalım,**
**Xocalım, ay Xocalım!**

* * *

**Yerbəyer eləməmiş sevincimi, dərdimi,**
**Bir-birindən seçməmiş mərdimi, namərdimi,**
**Əjdahalar əlindən qurtarmamış yurdumu,**
**Tanrının qırmancına döndərməmiş ordumu,**
**Qoy gəlməsin ölümüm, qoy çatmasın əcəlim,**
**Xocalım, ay Xocalım!**
**XOCALIM, ay XOCALIM!!!**

**(31 yanvar 1997-ci il)**

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 43 (30737) 26 fevral 2025-ci il, çərşənbə

İdman

## III MDB Oyunlarına hazırlıq




**2025-ci ildə Azərbaycan Respublikasında keçiriləcək III MDB Oyunlarına fəal hazırlıq işləri aparılır. Fevralın 24-də müvafiq işçi qrupunun onlayn formatda növbəti iclası olub.**

İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan və MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak ediblər.

İclas iştirakçılarının diqqətinə Oyunlara hazırlığın gedişi ilə bağlı Azərbaycan Gənclər və İdman Nazirliyinin məlumatı və Bədən Tərbiyəsi və İdman Şurasının təsdiqinə təqdim edilməsi tövsiyə olunan III MDB Oyunlarının Əsasnamə layihəsinə dair təkliflər çatdırılıb. Qərara alınıb ki, fevralın 28-dək Azərbaycan tərəfinin təklif etdiyi məsul şəxslərlə Oyunların idman növləri üzrə yarışların detallarının (o cümlədən yaş kateqoriyaları) işlənib hazırlanması təklif edilsin.

MDB iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarından Oyunlarda iştirakçıların akkreditasiyası üçün rəqəmsal platformada öz ölkələrinin idman nümayəndə heyətlərinin müraciəti prosesinə cavabdeh olan şəxsləri müəyyən etmək, müvafiq qaydada martın 7-dək Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə bu barədə məlumat vermək xahiş olunub.

Qeyd edək ki, III MDB Oyunları sentyabrın 28-dən oktyabrın 8-dək "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncədə, həmçinin Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi şəhərlərində keçiriləcək. İdmanın 23 növü üzrə yarışların keçirilməsi təklif olunur.

Oyunlarda iştirak etmək üçün təkcə MDB-dən deyil, bir sıra digər ölkələrdən də idmançıların dəvət ediləcəyi gözlənilir.

## Romada 3 medal




**İtaliyanın paytaxtı Roma şəhərində ciu-citsu üzrə keçirilən ənənəvi "Böyük Dəbilqə" turnirində idmançılarımız uğurla çıxış ediblər.**

Yarışda çıxış edən Azərbaycan Braziliya Ciu-citsu Klubu İctimai Birliyinin ciu-citsuçuları Fərid Hadıyev (77 kq) gümüş, Fuad Əliyev (46 kq) uşaqlar arasında bürünc medala yiyələnib. Rita Kovari (62 kq) isə qadınların mübarizəsində 2-ci yeri tutub.

***L.QURBANOVA***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələrə tikinti materiallarının satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il martın 5-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.
Əlaqə telefonu – (012) 404-37-00, daxili –1242.

***✓ 2025-ci il fevralın 3-də ümumi yığıncağın qərarı ilə İmişli rayonunda fəaliyyət göstərən "Məzrəli", "Qızılkənd", "Muğan", "Həsənli" və "Yeni həyat" Sudan İstifadəedənlər Birlikləri birləşərək, "Köhnə Cənub Muğan" Sudan İstifadəedənlər Birliyini təsis etmişlər. Ünvan – İmişli rayonu, Qızılkənd kəndi.***

Təbiət abidələrimiz

# İşıqlı dağının aynası – Qaragöl!

**Azərbaycanın əsrarəngiz gözəl təbiətini, zəngin flora və faunasını qorumaq məqsədilə yaradılan milli parklarımız, qoruqlar və yasaqlıqlarımız sayca kifayət qədər çoxdur. Onların hər birinin özəlliyi barədə qəzetimizin səhifələrində vaxtaşırı olaraq söhbət açmışıq. Bu yazılara oxucu reaksiyası da müsbətdir.**



Bu dəfə Qaragöl Dövlət Təbiət Qoruğu haqqında söz açmaq fikrindəyik. Ona el arasında İşıqlı Qaragöl də deyirlər. Bura Qarabağ vulkanik yaylasının cənub hissəsindəki böyük İşıqlı dağında yerləşir. İşıqlı dağının aynasıdır Qaragöl! O, dəniz səviyyəsindən 2 min 650 metr hündürlükdədir. Qoruğun ərazisi isə 240 hektardır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Laçın rayonu ilə Ermənistanın Gorus rayonu sərhədində yerləşən Qaragöl sərhəd gölü hesab edilir. Bu yüksək dağ gölü olduğundan tədqiqatçılar üçün daim xüsusi maraq doğurur. Qaragöl ilə bağlı olaraq çox sayda elmi tədqiqat işləri, araşdırmalar aparılmışdır.

Məlumat üçün bildirək ki, Qaragöl Dövlət Təbiət Qoruğu 17 oktyabr 1987-ci il tarixində Azərbaycan və Ermənistan respublikalarının direktiv orqanlarının qərarı ilə yaradılmışdır və o vaxtdan respublikalararası dövlət qoruğu elan edilmişdir. Hər iki tərəf ərazinin unikal flora və faunasını qorumaq üçün qarşılıqlı öhdəliklər götürmüşlər. Amma Ermənistan tərəfi Qaragölün çirklənməməsi və buradakı heyvanlar aləminin qorunması ilə əlaqədar öz üzərinə düşən vəzifələrə əməl etməmişdir.

Nəzərə alınmalıdır ki, Qaragöl mühüm hidroloji və təsərrüfat əhəmiyyətinə malikdir. Onun suyundan əkin yerlərinin suvarılması, qoyunçuluq və balıqçılıq üçün istifadə edilir. Gölün şimal, şimal-qərb və qərb tərəflərində quru ərazi yarğan və qayalardan ibarətdir, qalan hissələrində isə relyef nisbi düzənlikdir. Ərazidə çimli dağ-çəmən, humusla zəngin torpaqlar yayılmışdır.

Qoruğun ərazisi üçün qışı quraq keçən soyuq iqlim tipi hakimdir. Burada havanın ən soyuq ayının orta temperaturu mənfi 3 dərəcədən aşağı, ən isti ayınınkı isə müsbət 10 dərəcə Selsidən yuxarıdır. İllik yağıntının miqdarı 700 millimetrdir. Qoruğun gölü dövrəyə alan quru ərazisi yüksək dağlıq qurşaq üçün səciyyəvi olan alp çəmənliklərindən ibarətdir.

Qoruğun bitki örtüyü o qədər də zəngin deyil. Bitki nümunələrinin azlığı qoruğun quru sahəsinin kiçik olması və əsas nadir və endemik bitkilərin onun sərhədlərindən kənarda qalması ilə əlaqədardır. Burada uzun illər qoyun sürülərinin otarılması ərazidəki otların tapdalanmasına səbəb olmuşdur. Bu da, öz növbəsində, ərazidəki bitkilərin inkişafına və zənginliyinə xeyli mənfi təsir göstərmişdir. Qoruğun ərazisinin bitki örtüyü əsasən alp çəmən bitkilərindən ibarətdir. Cənub hissədə üçyarpaq yoncanın, şərq hissədə gəvənin üstünlük təşkil etdiyi çəmənliklər inkişaf etmişdir.

İşıqlı Qaragöl və onun ətraf ərazisi tarixən xalqımıza məxsus olan torpaqlar olmuşdur. Erməni vandalları 30 ilə yaxın bu ərazini işğal altında saxlamışlar və bu yerlərin təbii sərvəti ilə vəhşicəsinə davranmışlar. Xoşbəxtlikdən 2020-ci ilin payızında ərazi rəşadətli Milli Ordumuz tərəfindən işğaldan azad olunmuşdur.

Hazırda Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş bütün ərazilərində olduğu kimi, Qaragöl Dövlət Təbiət Qoruğunun yerləşdiyi Laçın rayonunda da geniş tikinti-quruculuq, bərpa işləri aparılır. Laçından Qaragöl istiqamətində rahat yol çəkilir. Laçınlılar deyirlər ki, yaz-yay, payız aylarında bu yerlər əsl cənnəti xatırladır.

Təbii ki, bu dağlarda qışın da ecazkar gözəlliyi var və bu səbəbdən bölgədə qış turizmini genişləndirmək üçün geniş imkanlar mövcuddur. İnanırıq ki, ən yaxın aylar, illər ərzində buralar həm yerli, həm də əcnəbi turistlərin ən çox ziyarət etdiyi məkanlardan biri olacaq. O zaman buranı ziyarət edənlər öz dost və tanışlarına səmimi şəkildə deyəcəklər: İşıqlı dağının qoynunda bir göl var. Adına Qaragöl deyirlər. Çox gözəl göldür. Oranı mütləq ziyarət edin!

***M.HACIXANLI***
***XQ***

# Ortaq türk tarixi layihəsi

**Türkiyənin paytaxtı Ankara şəhərində Beynəlxalq Türk Akademiyası türk dövlətlərinin tarixinə dair beynəlxalq seminar təşkil edib.**



Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun nəzdindəki Türk Tarix Qurumunun evsahibliyi, Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının dəstəyi ilə gerçəkləşən tədbirdə TDT-yə üzv ölkələrin tarix və arxeologiya sahələrinin aparıcı mütəxəssisləri iştirak ediblər.

Beynəlxalq seminarda türk tarixinə dair ortaq akademik işin konsepsiyası müzakirə edilib. Türk Dövlətləri Təşkilatının 2024-cü il noyabrın 6-da Bişkekdə keçirilən XI Zirvə görüşündə türk ölkələrinin ortaq tarixinin hazırlanması ideyası irəli sürülüb. Dövlət rəhbərlərinin göstərişi ilə irimiqyaslı layihənin koordinasiyası Beynəlxalq Türk Akademiyası tərəfindən həyata keçirilir.

Seminarı giriş nitqi ilə Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev açaraq layihəyə fəal dəstək verən bütün iştirakçılara təşəkkür edib, birgə fəaliyyətin vacibliyini vurğulayıb.

"Hətta bir ölkənin tarixi ilə bağlı araşdırma aparmaq heç də asan məsələ deyil. Bizim işimiz daha çətindir. Missiyamız qardaş xalqların və ölkələrin ümumi tarixini yazmaqdır", – deyə bildirən akademik Şahin Mustafayev ilk addım kimi kollektiv monoqrafiyanın konseptual əsaslarının müəyyənləşdirilməli olduğunu vurğulayıb. O, əsərin həm akademik dərinliyə, həm də sadə üsluba malik olmasının vacibliyini qeyd edib. Bildirib ki, iş yalnız ciddi elmi xarakter daşımamalı, eyni zamanda, tələbələr və gənc tədqiqatçılar da daxil olmaqla geniş auditoriya üçün anlaşıqlı olmalıdır.

Onun sözlərinə görə, kollektiv monoqrafiyanın əsas məqsədi Türk dünyasının tarixinin əsas mərhələlərini işıqlandırmaq, qardaş xalqların ümumi tarixi şüurunun formalaşdırılması, xüsusən də gənclər arasında milli qürurun möhkəmləndirilməsi, həmçinin beynəlxalq arenada türk tarixi və mədəni irsinin tanıdılmasıdır.

Sonda Türk Akademiyasının prezidenti, TDT-yə üzv ölkələrin tarix və arxeologiya institutlarının rəhbərləri türk dövlətlərinin tarixi üzrə akademik işin ortaya qoyulması üçün əməkdaşlıq haqqında protokolu imzalayıblar.

Qeyd edək ki, tədbirdə TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun sədri professor Derya Örs, Türk Tarix Qurumunun sədri Yüksel Özgen və tarix elmləri doktoru Həsən Həsənov da iştirak ediblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

Hava

# Sulu qar yağacaq...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə sulu qar yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 0-3° şaxta, gündüz 1-3° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə və gündüz 65-75 faiz olacaq. Gecə və səhər bəzi yollar buz bağlayacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.



Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 3-7° isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 18-23° şaxta, gündüz 3-8° şaxta olacaq. Yolların buz bağlaması davam edəcək.

***XQ***

*Sağlamlıq*

# Cəfəri – cana verir təpəri

**Cəfəri suyu tərkibindəki yüksək vitamin və minerallar sayəsində immuniteti gücləndirməkdən həzmi dəstəkləməyə qədər bir çox müsbət təsirlərə malikdir. O, detoks effekti ilə orqanizmi toksinlərdən təmizləyir və ödemin aradan qaldırılmasını asanlaşdırır.**



Cəfəri suyunun bəzi mühüm faydalarını təqdim edirik. Böyrəklərin təmizlənməsinə kömək edir. Sidikqovucu təsiri ilə bədəndəki ödemin aradan qaldırılmasına dəstək olur. Tərkibindəki yüksək C vitamini sayəsində immunitet sistemini dəstəkləyir.

Bu tərəvəz antibakterial xüsusiyyətləri ilə orqanizmi infeksiyalardan qoruyur. Həzmsizlik və şişkinlik problemlərini aradan qaldırmağa kömək edir. Mədəni sakitləşdirir və həzmi asanlaşdırır. Qaraciyəri toksinlərdən təmizləyir, yağlanmasının qarşısını alır.

Cəfərinin tərkibində qan şəkərini tənzimləməyə kömək edən maddələr var. Diabet riskini azaltmağa kömək edir. Antioksidantlarla zəngin olduğu üçün dəri sağlamlığını yaxşılaşdırır. Dərini təmizləyir və sızanaqların əmələ gəlməsinin qarşısını alır.

Nəhayət, cəfəri maddələr mübadiləsini sürətləndirərək yağ yandırılmasını dəstəkləyir. Bədəndə su qalmasını azaldaraq ödemi aradan qaldırır.

***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin biologiya və onun tədrisi texnologiyası kafedrasının əməkdaşları baş müəllim Günel Məmmədovaya atası

**ƏLİMÖVSÜM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3252
SİFARİŞ 427
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00